ADİL NİFTİ OĞLU MƏMMƏDOV
Tibb elmləri namizədi

NAXÇIVAN MSSR-də SƏHİYYƏNİN TARİXİ VƏ MƏRHƏLƏLİ İNKİŞAFI (1826 – 1966)

BAKI – 2006

Adil Nifti oğlu Məmmədov. Naxçivan MSSR-də Səhiyyənin tarixi və mərhələli inkişafi (1826 – 1966).
Bakı, "Nurlan", 2006.- 190 səh.

4702000000 – 725
Qrifli nəşr
N – 098 – 2006

© "Nurlan", 2006.

G I R I Ş

Sosialist quruluşunun müvəffəqiyyəti, mədəni səviyyənin və rifah halının kəskin qaldırılması, əsl xalq səhiyyə sisteminin yaradılması nəticəsində Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığı xeyli yaxşılaşmışdır və bu sahədə böyük nailiyyətlər əldə edilmişdir.

Naxçıvan MSSR-də səhiyyənin tarixinə aid çox az məqalələr (H.Səfiyev, M.Ibrahimov, Y.Marqulis, H.Abbasov, Ə.Tahirov, Y.Kaminski və s.) yazılmışdır. Onlar da əsasən xülasə şəklində çap edilmişdir. Bu yazılar heç cürə Naxçıvan MSSR-də səhiyyənin tarixi və inkişafı haqqında ətraflı təsəvvür yaratmır. Onların hamısı səhiyyənin tarixinin ayrı-ayrı hissəsinə aiddir.

Inkar etmək olmaz ki, sosialist quruluşunun səhiyyəsi hətta belə bir ərazisi nisbətən kiçik və əhalisinin sayı az olan Muxtar Respublikada böyük maraq doğurmasın. Çünki bu Sovet Dövlətinin kiçik, əvvəllər geridə qalmış xalqların siyasətini təsvir edir.

Səhiyyə sisteminə aid olan qanunvericilik aktların, respublikanın partiya orqanlarının və Naxçıvan Nazirlər Sovetinin, Naxçıvan Mərkəzi Dövlət arxivinin, Azərbaycan SSR-in və Naxçıvan MSSR-in səhiyyə nazirliklərinin, ədəbiyyat və statistika materiallarının öyrənilməsi imkan verdi ki, Naxçıvan MSSR-də səhiyyənin tarixini və inkişafını Naxçıvan xanlığının Rusiyanın tərkibinə birləşdirilməsindən bu günə qədər (1828-1966-cı illər) və respublikada səhiyyənin müasir vəziyyətinin təhlili ətraflı işıqlandırılsın.

Monoqrafiyada sovet hakimiyyəti dövründə səhiyyənin əsas mərhələlərdə inkişafı ətraflı göstərilib, yaşayış yerlərinin sanitar vəziyyətinin qaldırılması sahəsində görülən böyük nailiyyətlər, əhaliyə müalicə – profilaktika və sanitar – epidemiya əleyhinə xidmət göstərilməsi əks etdirilib.

Naxçıvan MSSR-də səhiyyənin nəinki müvəffəqiyyətləri, habelə onun ayrı-ayrı hissələrində, müxtəlif mərhələlərdə mövcud olan nöqsanlar və onların aradan qaldırılması yolları göstərilib.

Səhiyyə xidmətində görülən böyük, müsbət irəliləyiş respublikada bərpa və xalq təsərrüfatının və mədəniyyətin inkişafının ayrı-ayrı mərhələlərinin fonunda işıqlandırılıb.

Vaxtı ilə Çar Rusiyasının geridə qalmış ucqarlarından biri olan, səfalət və əsarətin hökm sürdüyü Naxçıvan ölkəsi tarixən qısa müddətdə böyük inkişaf yolu keçərək indi Şərqin qapısında mayaq kimi bir respublikaya çevrilib.

Sovet hakimiyyəti illərində respublikanın iqtisadiyyatında, məişətində və mədəniyyətində köklü dəyişiklik oldu, hərtərəfli xalq kadrları yetişdi. Respblikada xalq səhiyyəsinin inkişafında da böyük nailiyyətlər əldə edildi.

Xalqın maddi və mədəni səviyyəsinin yüksəlməsi, əmək və məişət şəraitinin yaxşılaşması, geniş müalicə – profilaktika müəssisələri şəbəkəsinin yaradılması, zəhmətkeşlərə ixtisaslı pulsuz yardım göstərilməsi nəticəsində əhalinin sağlamlığının qorunması işində xeyli nailiyyət əldə edilmişdir. Səhiyyənin daha da təkmilləşdirilməsi, tibb elminin inkişafı, geniş sanitariya – sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi nəticəsində respublikada xəstəliklər, xüsusilə yoluxucu xəstəliklər – taun, vəba, təbii çiçək, səpgili yatalaq, malyariya, sifilis tamamilə ləğv edilmiş, traxoma, qarın yatalağı, difteriya və başqa yoluxucu xəstəliklərin sayı xeyli azalmışdır.

Fərəhli haldır ki, 1999-cu ildə Naxçıvan MR-in səhiyyə nazirliyi, Naxçıvan Respublikasının 75-illiyi ilə əlaqədar olaraq, kollegiya iclasında Naxçıvan səhiyyə tarixinin yazılması haqqında məsələ müzakirə etmiş və bu haqda kitab yazılmasını nazirin müavini Tofiq Cəfərova tapşırmışdı. Onun tərəfindən az vaxt içərisində yazılan «Naxçıvan Muxtar respublikasında səhiyyənin inkişafı» adlı kitabda Naxçıvan səhiyyəsi haqqında çox maraqlı və qiymətli məlumatlar vardır. Kitabda səhiyyədə işləyən tibb kollektivinin əməyi daha geniş yer tutur.

Onu da qeyd etmək yerinə düşərdi ki, tərəfimizdən 3 il aspirantura müddətində (1961-1964) yazılan və müdafiə olunan «Naxçıvan MSSR-də səhiyyənin inkişafı» (1828-1966-cı illər) adlı dissertasiyanın 25-dən çox fraqmentləri 1962-1972-ci illərdə nəşriyyatda, ayrı-ayrı jurnallarda, elmi-tədqiqat institutlarının əsərlərində dərc olunmuşdur. T.Cəfərovun

yazdığı kitabda bu fraqmentlərin əksərindən geniş istifadə olunmuşdur. Bunu nəzərə alaraq oxuculardan xahiş olunur ki, bu monoqrafiyada cümlələrin, cədvəllərin, rəqəmlərin üst-üstə düşməsinə, təkrarlanmasına rast gələndə heç də təəccüblənməsinlər.

Bu monoqrafiya hər şeydən əvvəl tarixi əhəmiyyət kəsb edir. Burada Naxçıvanın sovetləşməsinin ilk illərində, bərpa, quruculuq və müharibənin ağır, acılı illərində səhiyyənin tarixi və mərhələli inkişafı ilə bərabər respublikanın tibb kollektivinin, xüsusən səhiyyə təşkilatçılarının fədakar əməyi, əzmlə və səylə işə can yandırmaları da göstərilib. Onların səhiyyənin bazasının möhkəmləndirilməsinə, əhalinin sağlamlaşdırılmasına, sanitar-sağlamlaşdırıcı tədbirlərin vaxtında həyata keçirilməsinə sərf etdikləri səmərəli əməyi, göstərdikləri xidməti işıqlandırmağa cəhd etmişik.

Nə qədər buna nail olmuşuq, onu oxucuların mülahizəsinə veririk.

I FƏSIL.

SOVET HAKIMIYYƏTININ QƏLƏBƏSINƏ QƏDƏR NAXÇIVANDA TIBB XIDMƏTININ INKIŞAF TARIXI (1828-1920-ci illər)

Naxçıvanın qədim tarixi var. Naxçıvanın indiki ərazisində o vaxtlar məskunlaşan tayfalar, maddi mədəni qədim abidələr Neolit dövrünə (e.ə.7-6-cı minillər) aiddir.

Çoxsaylı maddi mədəni memarlıq abidələri göstərir ki, Naxçıvan çox keçmişdə özünün yüksək mədəniyyəti ilə yaxın şərqdə şöhrət tapmışdır.

VIII-X əsrlərdə Naxçıvan, Culfa, Ordubad iri peşə-ticarət mərkəzi olmuşdur.

VII-XIV əsrlərdə Naxçıvan Sacilər, Səlcuqlar, Eldənizlər, Monqollar dövlətlərinin tərkibində olmuşdur.

XV-XVI əsrlərdə Naxçıvan yarım köçəri feodal dövlətlərin – Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətlərinin tərkibində olmuşdur.

1903-cü ildə I Şah Abbasın qoşunları tərəfindən dağıdılmışdır. XVIII əsrin əvvəllərində isə Şəhər Nadir Şahın qoşunları tərəfindən tutulmuşdur.

Özünün çoxillik tarixi ərzində Naxçıvan yadellilər tərəfindən işğal edilmiş, dəfələrlə dağıdılmış və talan edilmişdir.

Lakin nə yadelli qoşunların basqınları, nə əsarət altına salmaq cəhdləri, nə də onun qarət edilməsi xalqın vətənə olan məhəbbətini söndürə bilməmişdir. Onlar silahlanaraq öz torpağı, ailəsi və uşaqları uğrunda vuruşdular.

XVIII əsrin ortalarında yarımmüstəqil Naxçıvan xanlığı yaradıldı.

1826-28-ci illərdə Rusiya-Iran müharibəsi gedişində 1827-ci ilin iyununda rus qoşunları Naxçıvanı zəbt etdilər. Türkmənçay müqaviləsinə əsasən Naxçıvan xanlığı Irəvan xanlığı ilə birlikdə Rusiyaya birləşdirildi. Çar hökuməti Irandan və Türkiyədən minlərlə erməni ailəsini Naxçıvan Xanlığı ərazisinə köçürmüşdür. 1828-ci iladək azərbaycanlılar diyarın əhalisinin 92%-ni təşkil edirdilərsə, 1897-ci ildə bu

66,3%-ə enmiş, ermənilərin sayı isə artaraq 32,7%-ə çatmışdır.[1]

Naxçıvan diyarı Çar hökumətinin Qafqazda apardığı inzibati islahata (10 aprel 1840) əsasən Gürcüstan-Imperiya quberniyasının tərkibində Naxçıvan qəzası kimi (1841) təşkil edilmiş, sonra isə (1849-cu ildə) Irəvan quberniyasının tərkibinə keçirilmişdi.

Ilk əvvəl Naxçıvan ərazisində iki qəza (Naxçıvan və Ordubad) olub, sonralar isə (1867-ci ildə) bu qəzalar birləşdirilərək bir qəza – Naxçıvan qəzası adlanır.

1870-ci ildə Irəvan quberniyasının tərkibində növbəti qəza – Şərur-Dərələyəz qəzası təşkil edilir. Bu iki polis sahəsindən – Şərur (I sahə) və Dərələyəz (II sahə) ibarət olur.

Biz yalnız I sahədə (Şərur) məskunlaşan kənd əhalisinə göstərilən tibbi xidmət haqqında tam məlumat verəcəyik. O ki, qaldı II sahəyə (Dərələyəz), burada kənd əhalisinə göstərilən tibbi xidmətə aid cüzi məlumat olduğundan onu təsvir etmək mümkün olmadı. Ona görə gələcəkdə Şərur-Dərələyəz qəzası sadəcə olaraq Şərur qəzası kimi göstəriləcək.

Beləliklə Naxçıvan diyarında, Sovet hakimiyyəti qurulanadək, iki qəza (Naxçıvan və Şərur-Dərələyəz) olmuşdur.

Naxçıvanın Rusiya imperiyasının tərkibinə keçirilməsi, onu özünün ucqar müstəmləkəsinə çevirsə də obyektiv olaraq xarici hücumlardan, ara müharibələrinin, feodal çəkişmələrinin törətdiyi bəlalardan xilas etdi.

Azərbaycanın böyük filosofu, dramaturqu və maarifpərvəri Mirzə Fətəli Axundov ölümündən bir il qabaq, 1877-ci ildə Azərbaycanın görkəmli maarifpərvəri və ictimai xadimi Həsən bəy Zərdabiyə yazdığı məktublarının birində Azərbaycanın Rusiya tərkibinə daxil olması nəticəsində onun yadellilərin basqını təhlükəsindən qurtarmasının əhəmiyyətindən danışaraq qeyd etmişdi: «Heç olmazsa ona minnətdar ol ki, biz Rusiya dövlətinin

[1] Naxçıvan Ensiklopediyası. «Azərbaycan Elmlər Akademiyası». Bakı, 2002-ci il, səh. 385, 517

himayəsi sayəsində keçmişdə sonsuz işğalçı orduların saysız basqın və talanlarından xilas olduq və nəhayət, rahatlıq əldə etdik»[1].

Bununla belə tarixi materiallar göstərir ki, Çar Rusiyası Cənubi Qafqazı ələ keçirməkdə məqsədi öz iqtisadi və siyasi maraqlarını əsas tutaraq müstəmləkəlik siyasətini həyata keçirmişdir.

Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi dövrünə qədər olan illərdə səhiyyə işlərinin vəziyyətini təsvir etmək üçün bəzi tarixi məlumatları nəzərdən keçirək.

Naxçıvanda inqilaba qədər işləmiş həkimlərin verdiyi məlumatlardan aydın olur ki, Rusiyanın tərkibinə daxil olana qədər Naxçıvanda heç bir xəstəxana və həkim olmamışdır. Əhali tibbi yardım almaq üçün ara həkimlərinə, mollalara, seyidlərə, dərvişlərə, falçılara müraciət edirdi.

Şərur qəzasının həkimi H.Səfiyev qəzada ilk xəstəxana açılana qədər olan dövrü təsvir edərək yazır: «…O vaxta qədər (1889-cu ilədək, yəni ilk xəstəxana açılana qədər) əhali ancaq ara həkimləri və dəlləklərin köməyi ilə keçinirdi…»[2].

Insanın anatomiyası, fiziologiyası və xəstəliklərin mahiyyəti barəsində heç bir təsəvvürü olmayan bu cür başabəla«həkimlərin» günahı üzündən hər il yüzlərlə adam, o cümlədən körpə uşaq onların qurbanı olurdu.

«Irəvan quberniyasında səhiyyə işlərinin müasir vəziyyəti» adlı məqalədə aparılan türkəçarə müalicə üsulları tənqid edilərək belə yazılır: «Ehtimal ki, bəşəriyyətin əmələ gəlməsi ilə bir gündə yaranan xalq təbabəti hələ bu günə qədər uşaqlıq dövründə qalmış, onda sadəlik və uşağa aid xüsusiyyətlər çoxdur. Doğrudan da məsələn, xəstənin heyvan dərisinə salınması, qanaxmanın peyinlə dayandırılması, yaranın üstünə nəcisdən məlhəm qoyulması, ovsun oxunması, cadulama və s. bu kimi müalicə üsullarını başqa cür necə izah etmək olar?…»[1].

[1] «Əkinçi» qəzeti, 1877-ci il, №2.

[2] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, II cild, 2-ci buraxılış, Tiflis, 1916, səh.54.

Naxçıvan ölkəsində ara həkimlərinin elmi əsası olmayan müalicə metodlarının geniş yayıldığını malyariya haqqında aşağıdakı ədəbiyyat məlumatı təsdiq edir: «… o zaman xalq arasında malyariyaya qarşı tətbiq edilən müalicə vasitələrindən biri qorxutmaqla müalicə etməkdən ibarət idi; bu zaman qızdırmalı adamın üstünə qəflətən soyuq su tökür və ya o, yatmış ikən üzünə sillə vururdular və s…»[2].

Təbabətə və ümumiyyətlə təbiətə qarşı olan bu cür geri qalmış münasibət onunla izah edilirdi ki, əhalinin yaşadığı tarixi şəraitdən və ictimai inkişaf səviyyəsindən asılı olaraq onun zehnində təbiət qanunlarına qarşı müxtəlif baxışlar var idi. Burada biz başlıca olaraq dinin və mövhumatın kök salıb hökm sürdüyü dövrü nəzərdə tuturuq.

Insanlar sadəlövhcəsinə xəstələnmə halını «allahın qəzəbi» kimi başa düşür və xəstəni pirə aparırdılar ki, bəlkə allah onun günahından keçə ki, o da sağala.

Bu, ondan irəli gəlir ki, o vaxtlar ruhanilər və dindarlar cürbəcür vasitələrlə zəhmətkeş kütlələrin şüurunu zəhərləyir, hər növ istismar, zülm və əsarətə tabe etdirməyə çalışırdılar.

Burada öz-özünə aydın olur ki, dindar insanlar təbiətin qanunlarını düzgün başa düşməyərək təbiətdə xarüqalədə qüvvələrin varlığına inanır və nəticədə onların şüurunda yanlış fikirlər əmələ gəlirdi.

Azərbaycanın görkəmli satirik ədibləri, şairləri və yazıçıları öz əsərlərində məzlum xalqı aldadıb var yoxunu əlindən alan, onları «müalicə» edən mollaları, falçıları, ara

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, I cild, 3-cü buraxılış, Tiflis, 1914, səh.54.

[2] M.Malyujenko – Irəvan quberniyasında malyariya və onunla mübarizə. «Irəvan quberniyasının 1912-ci il yaddaş kitabçası», VII fəsil, səh.37, Irəvan şəhəri, 1912-ci il.

həkimlərini və sairləri atəşli tənqidə tutur, bu cür tipləri ifşa edir və iç üzlərini açıb xalqa göstərirdilər.Belə görkəmli xadimlərdən biri öz iti qələmi ilə şöhrət qazanmış satirik yazıçı Cəlil Məmmədquluzadə idi. Onun redaktor olduğu «Molla Nəsrəddin» satirik jurnalı Azərbaycanda sanitariya maarifinin inkişafı uğrunda mübarizədə böyük xidmət göstərmişdir. Jurnal öz səhifələrində mollaların, ara həkimlərinin və digər şarlatanların apardıqları türkəçarə «müalicə» üsullarını ifşa edib, onların nadanlığına iztehza edir və onları ələ salırdı. «Molla Nəsrəddin» jurnalının 1909-cu il 47-ci nömrəsində dua yazan məşhur bir mollanın karikaturası verilmişdir (şəkil 1).

1-ci şəkil

-Xanım, inşallah bircə saatdan sonra qarnınızın ağrısı keçər

Şəkildə molla sancı çəkən bir qadının yarıçılpaq bədəninə tamaşa edərək dua oxuyur ki, qadın bu duadan «şəfa» tapsın. Lakin sancı get-gedə artır. Belə vəziyyəti görən molla; «-xanım, inşallah bircə saatdan sonra qarnınızın ağrısı keçər» – deyə qadını sakitləşdirməyə çalışır. Jurnal, avam xalqı aldadıb, onun cibini soyan, öz dini fəaliyyətini müalicə işi ilə bağlayan bu cür mollaların fırıldağını acı gülüşlərlə ifşa edir və onların iç üzünü açıb xalqa göstərir.

Naxçıvan MSSR-nin ərazisində tibb işi XIX əsrin ortalarında təşkil edilib.

Mövcud qanuna əsasən 1847-ci ildə Qafqaz ölkəsinin inzibati idarəsi tərəfindən Cənubi Qafqaz üçün tibb personalının ştatı haqqında əsasnamə imzalandı. Buna əsasən hər qəzada bir qəza həkimi, iki feldşer və bir mama vəzifəsinin olması nəzərdə tutulurdu.

Rəsmi məlumatlardan aydın olur ki, 1852-53-cü illərdə Naxçıvan və Ordubad qəzalarında əhaliyə tibbi yardım göstərilib. O vaxtlar Naxçıvan qəzasında qəza həkimi Stepan Vasilyeviç Bitlitski, mama Mariya Nikolayevna Makaroviç, Ordubad qəzasında (qəza 1867-ci ildə ləğv dilib) qəza həkimi Avqust Vilhelmoviç Miller, mama Feodosiya Nikolayevna Romanovskaya[1] işləmişlər. Onlardan başqa yerli əhaliyə hərbi hospitalda işləyən hərbi həkimlər də tibbi kömək göstərmişlər. Bu həkimlərdən Aleksandr Maksimoviç Şalomovu, Pyotr Kirilloviç Balyuranı və Maksim Qriqoryeviç Slimovskini[2] göstərmək olar.

Irəvan quberniyası üçün 13 noyabr 1874-cü ildə təsdiq edilmiş ştata əsasən Naxçıvan qəzasında bir qəza həkimi, iki feldşer və bir mama ştatı, Ordubad qəzası ləğv edildikdən sonra onun əvəzində Şərur qəzası yaradıldı və buraya bir qəza həkimi, iki feldşer verilir[3].

1878-ci ildə Qafqaz təqvimində Naxçıvan və Şərur qəzalarının (Naxçıvan və Ordubad şəhərlərinin) ərazisi, əhalisi və əhalinin sıxlığı haqqında məlumat verilib[4]. Elə orada, qəzalarda işləyən tibb işçiləri göstərilib. Naxçıvan qəzasında qəza həkimi Vasiliy Aleksandroviç Subbotkin, mama Lyuba Ivanovna Breyer işləmişlər. Şərur qəzasında qəza həkimi Qavril Yakovleviç Oqunov işləmişdir. Feldşer haqqında məlumat yoxdur.

[1] Qafqaz təqvimi, 1853-cü ilə aid. Beşinci şöbə «Qafqaz mülki idarələrin tibbi şöbəsi, Tiflis, 1852, səh.572.

[2] Qafqaz təqvimi, 1854-cü ilə aid. Beşinci şöbə hərbi hosbitallar, Tiflis, 1853, səh.713.

[3] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri. I cild, 3-cü buraxılış, Tiflis, 1914, səh.115.

[4] Qafqaz təqvimi 1879-cu ilə aid. Ikinci şöbə, Qafqaz canişinlik istehsal qüvvələrinin xülasəsi, Tiflis, 1878-ci il, səh.328.

Göstərmək lazımdır ki, qəza həkimlərinin vəzifəsi əsasən məhkəmə təbabəti və tibbi-polis fəaliyyəti ilə məşğul olmaqdan ibarət idi (məhkəmə-tibb müayinəsi, meyityarma və s.). Bundan başqa qəza həkiminin onun tabeliyində olan feldşerlərin və mamaların üzərinə nəzarət, əhaliyə həkim köməyi göstərmək vəzifəsi də düşürdü.

1-ci cədvəl

Qəza və şəhərlərdə ərazi, əhali və əhalinin sıxlığı haqqında məlumat

Qəza və şəhərlər	Ərazi kv.km	Əhali			1 kv. km-ə düşən əhali
		kişi	qadın	cəmi	
Naxçıvan qəzası	3908,4	34149	25749	59898	17,1
Naxçıvan şəhəri		3719	3159	6878	
Ordubad şəhəri		2069	1456	3525	
Şərur qəzası	840	14267	12201	26468	31,5
CƏMI	4748,4	54204	42565	96769	20,4

Qeyd etmək lazımdır ki, qəza həkimi vaxtının çoxunu məhkəmə təbabəti işlərinə sərf etdiyindən əhali tibbi xidmətdən demək olar ki, məhrum edilmişdi. Bu haqda «Qafqaz mülki idarələrində müasir tibbi şöbələrin vəziyyətinin xülasəsi» adlı bir məqalədə göstərilmişdir ki, «Qəza həkimləri başlıca olaraq məhkəmə təbabəti və başqa müayinə, meyityarma və ekspertiza ilə məşğul olurlar».[1]

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, I cild, 2-ci buraxılış, Tiflis, 1914 il, səh.40.

Həmin xülasənin digər bir yerində belə yazılmışdır: «…Qəza həkimləri yalnız bilavasitə öz məhkəmə təbabəti

vəzifəsi ilə məşğul olduğundan onlar falçıların, ara həkimlərinin və ruhanilərin əlində qalan kənd əhalisinə lazımi qədər tibbi yardım göstərə bilmirdilər»…[1]

XIX əsrin 70-ci illərin axırlarında kənd əhalisinə həkim köməyini təşkil etmək məqsədi ilə əvvəlcədən yeni əsasnamə layihəsi hazırlanmasına başlanıldı.

18 fevral 1880-ci ildə Qafqazda mülki idarələrin tibb hissəsinin hazırladığı layihə «Cənubi Qafqaz ölkəsinin quberniyalarında kənd həkim sahələrinin təşkil edilməsi haqqında» Dövlət Şurasının əsasnaməsi təsdiq edildi.[2]

Əsasnamədə hər qəzada 4 çarpayıdan ibarət (ikisi kişi və ikisi qadın) qəbul otağı, ambulatoriya və aptek açılması nəzərdə tutulurdu. Stasionar şöbəsində xəstələrə ilk yardım göstərmək, lazım gəldikdə isə xəstəni xəstəxanaya qəbul etmək qeyd olunurdu.

Ambulatoriya təyin edilmiş saatlarda xəstələri hər gün, təcili hadisələrdə isə günün hər vaxtında qəbul etməli idi. Xəstələr həkimin resepti əsasında apteklərdən pulsuz dərmanlarla təchiz edilməli idilər.

Kənd – həkim sahəsinə bir həkim, iki feldşer və bir mama nəzərdə tutulmuşdur. Əsasnaməyə əsasən aptek müdiri vəzifəsi xəstəxananın həkiminin mülahizəsinə əsasən feldşerlərin birinə həvalə olunmalı idi.

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, I cild, 2-ci buraxılış, Tiflis, 1914 il, səh.40.

[2] Rusiya imperiyasının qanunlarının bütün toplusu. II toplu, 7-55, II şöbə, əlavə Sankt-Peterburq, 1884 il, səh.38.

2-ci cədvəl

Cənubi Qafqaz quberniyasında kənd həkim sahəsinin xərcləri (manatla)

		Yemək xərci		Cəmi
Kənd həkimi	600	575	300	1475
Böyük tibb feldşeri	250	-	50	300
Kiçik tibb işçisi	200	-	50	250
Mama	250	-	50	300
Sair xərclər (istilik, işıqlandırma, dərmanlara əlavə)	-	-	-	1100

Bundan başqa ştat cədvəlində hər bir qəzaya birdəfəlik xərc nəzərdə tutulurdu: a) qəbul otağının ilkin yerləşdirilməsi üçün 350 man., b) aptekin yerləşdirilməsinə 350 man., c) qəbul otağına, feldşer və mamalara cərrahi alət almaq üçün 90 man.

Əsasnamədə Qafqaz nümayəndəsinə ölkədə kənd – həkim sahəsini xüsusi təlimatla təyin etmək səlahiyyəti verilmişdir. Belə təlimat və qayda yalnız 4 ildən sonra, yəni 27 fevral 1884-cü ildə təsdiq edildi. Bu vaxtdan etibarən Naxçıvan və Şərur qəzalarında qəbul otaqları təşkil edildi.

Ilk qəbul otağı (4 çarpayı) 1889-cu ildə Şərur qəzasının Bafnoşaren kəndində açıldı.

Naxçıvan qəzasında ilk qəbul otağı (4 çarpayı) 1892-ci ildə Cəhri kəndində açıldı. Beləliklə XIX əsrin axırında Naxçıvan və Şərur qəzalarının ərazisində cəmi 8 çarpayıdan ibarət iki kənddə qəbul otaqları olmuşdur ki, burada da 4 həkim (onlardan 2-si qəza həkimi idi) və 6 orta tibb işçisi çalışmışdır.

Xəstəxana təşkil edilən illər və hətta ondan bir neçə il sonra əhali xəstəxanaya çox təsadüfi hallarda müraciət edirdi. Əhali «insanın alnında nə yazılıbsa, o da olacaq» və ya «xəstəlik allah əmridir» – deyə xəstələnən adamın üstünə həkim çağırmırdılar. Sonralar el arasında «Allah dərd verib, onun dərmanını da göndərib» – deyə həkimə müraciət

edənlərin sayı bir qədər çoxalır. Kənd həkimi Y.Kaminski (1911-ci ildə) «Naxçıvan qəzasının 2-ci tibb məntəqəsinin tibbi-sanitariya vəziyyəti» adlı məqaləsində yazır ki, müsəlmanlar təsadüfi hallarda, özü də könülsüz olaraq, xəstəxanada yatırdılar»[1].

Habelə Şərur qəzasının həkimi H.Səfiyev Başnoraşendə xəstəxana təşkil olunan birinci illərdə, xəstələrin xəstəxanaya müraciət etmələri haqqında belə yazır: «…Ilk əvvəllər tibbi yardım üçün xəstəxanaya çox az
müraciət olunurdu, çünki ona etibar etmirdilər…»[2].

Tarixi materiallar göstərir ki, əhali doğrudan da ilk əvvəllər həkimlərə etibar etmir və onları «allahın» düşməni sayırdı.

Deyilənlərə bir daha inanmaq üçün satirik «Molla Nəsrəddin» jurnalının nömrələrinin birində (1910-cu ildə) rəssam Rotterin ustalıqla çəkdiyi iki şəkli nəzərdən keçirək.

2-ci şəkildən aydın olur ki, boğazı xəstələnən bir qadın üzünü həkimə göstərməyin dərdindən, hətta ərinin razılıq verməsinə baxmayaraq yenə də: «Yox, yox, ölsəm də açmaram» – deyə üzünü həkimdən gizlədir. Bu, son dərəcə isbat edir ki, əhali doğrudan da həkimə inanmırdı, çünki onun zəkası «ilahi» qanunların uydurmaları ilə zəhərlənmişdi. Ona görə ki, onun bilik səviyyəsi yox dərəcəsində idi. Ona görə də əhali mollaların dua oxumasına, onların «sehirli» və «gizli» müalicə üsullarına, ara həkimlərinin apardığı «müalicənin» gücünə daha çox inanırdı. Əlbəttə, belə inam nəinki insanın şüuruna, həm də onun sağlamlığına əks təsir göstərirdi. 3-cü şəkildə həmin xəstə qadın mollaya inanaraq nəinki boğazını, hətta yarımçılpaq bədənini belə ona göstərməkdən çəkinmir. Ərinin icazəsini gözləmədən: «Qoy molla göbəyimi yazsın, bunun zərəri yoxdur» deyə qadın kişisini qabaqlayır.

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, II cild, 2-ci buraxılış, Tiflis, 1916, səh.66.

[2] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, II cild, 2-ci buraxılış, Tiflis, 1916, səh.54.

2-ci şəkil
- Ay arvad, aç üzünü həkim boğazına baxsın.
- Yox, yox, ölsəm də açmaram.

Əlbəttə «Molla Nəsrəddin» jurnalı bu şəkillərdə əhalini təbliğ edərək başa salırdı ki, xəstəni əsil müalicə edən şəxs həkimdir, molla isə fırıldaqçı, hiyləgər və yalançı bir şəxsdir.

3-cü şəkil
- Qoy molla göbəyimi yazsın, bunun zərəri yoxdur.

Zaman keçdikcə əhali həkimin xəstələrə qayğısını hiss edir və onun doğrudan da xəstəni sağaltdığını öz gözü ilə görürdü. Şübhəsiz ki, həkimə inanmaq və ona qarşı münasibətin yaxşılaşması bir çox illər ərzində tədriclə başa gəlmişdir. Sonralar xalq arasında həkimdən söhbət düşəndə «həkim allah adamıdır», hətta «həkim qadına məhrəmdir» deyirlər[1].

[1] Islam dininə görə yad kişinin qadına baxması günah sayılır. O vaxtlar isə Naxçıvanda qadınlardan həkim yox idi. Ona görə də kişi həkimlərin xəstə qadınlara baxmasına "«Allah özü razılıq verib"»-deyə onu günah saymırdılar, onu (həkimi) məhrəm hesab edirdilər.

Bundan başqa «Molla Nəsrəddin» jurnalının inqilabdan əvvəlki nömrələrinin birində tibb elmindən xəbəri olmayan bir boyaqçının uşaqlarda göyöskürək xəstəliyini necə müalicə etməsi haqlı olaraq ifşa edilmişdir.

4-cü şəkildə avam xalqı aldadan həmin boyaqçının karikaturası verilmişdir. Şəklin altında belə yazılıb: «Boyaqçı hansı uşağın boğazına bir az göy sürtsə, həmən saat öskürməyi rəf olar».[1]

Buradan öz-özünə aydın olur ki, keçmişdə yoluxucu uşaq xəstəliklərinin nə olduğunu bilməyən bu cür boyaqçıların apardığı «müalicə» nəticəsində uşaqların əksəri ölürdü.

Bir neçə ildən sonra məlum oldu ki, qəzalarda açılan qəbul otaqları əhalinin ehtiyacını kifayət qədər ödəmir, onun böyük hissəsi tibbi yardımdan kənarda qalır.

Bunu nəzərə alan Çar hökuməti «mərhəmətə» gələrək Cənubi Qafqazda kənd-həkim sahələrinin təkmilləşdirilməsi haqqında Dövlət Şurasının fikri ilə razılaşdı. 8 mart 1904-cü ildə 605№-li yeni əsasnamə təsdiq etdi. Bundan sonra elə bil qəzalarda tibbi xadmət işinin inkişafına bir addım atıldı.

Belə dəyişiklik forma və təşkili cəhətdən 1880-ci il əsasnaməsindən bir qədər fərqlənirdi. Yeni əsasnaməyə görə hər qəzada iki kənd həkim sahəsi, hər sahədə 6 çarpayılıq kənd xəstəxanası (əvvəlki 4 çarpayı əvəzinə) təşkil edilməli idi. Çarpayılardan başqa otaqların sayı artmalı, xəstəxanada ambulatoriya, aptek, kişi və qadın palatalarından başqa həm də əməliyyat və vanna otaqları olmalı idi.

Hər sahədə xəstəxanadan başqa feldşer məntəqəsi açılmalı idi. O qəbul otağından, onun nəzdində aptekdən, feldşerlər və başqa xidmət üçün lazım olan otaqlardan ibarət olmalı idi. Beləliklə hər qəzada bir əvəzinə dörd müalicə idarəsi: - iki xəstəxana və iki feldşer məntəqəsi fəaliyyət göstərməli idi. Stasionar şöbədə çarpayılar, nəinki qabaqlarda olduğu kimi birincili xəstələrə yardım göstərmək, o həm də xəstəni stasionarda müalicə etmək nəzərdə tutulurdu. Keçmişdən fərqli olaraq çarpayılardan

[1] «Molla Nəsrəddin» jurnalı, 6 sentyabr, 1911-ci il, №32.

4-cü şəkil
Uşaqlarda olan göy öskürəyin boyaqxanada tamam müalicə olunması

xroniki və ruhi xəstələrdən başqa, bütün xəstələr istifadə edə bilərdilər. Stasionarda, eləcə də ambulatoriyada müalicə pulsuz olmalı idi. Feldşer məntəqələrində ambulator qəbulu pulsuz olmalı, onlara dərman pereparatlarının pulsuz buraxılması nəzərdə tutulurdu. Məntəqəyə baş feldşer müdirlik etməli idi. O, öz növbəsində kənd sahə xəstəxana həkiminə tabe idi.

Kənd sahəsi bir həkim ştatından, iki baş feldşerdən (biri stasionarda, o biri feldşer məntəqəsinin müdiri – o, həm də aptek müdiri) və bir kiçik feldşerdən, bir mamadan ibarət olması nəzərdə tutulurdu.

Tibb idarələrini saxlamaq üçün pul xərcləri aşağıda göstərildiyi kimi olmuşdur:

3-cü cədvəl
Kənd xəstəxanalarının və feldşer məntəqələrinin saxlanması xərcləri

	Bir nəfərin bir ildə xərci		Cəmi
	Maaşı	yeməyi	
Sahə həkimi	700	700	1400
Xəstəxanada baş feldşer	420	-	420
Məntəqə baş feldşeri	420	-	420
Kiçik feldşer	360	-	360
Mama	420	-	420
Bir sahənin müalicə idarəsini saxlamaq üçün sair xərclər (xəstəxana və s. feldşer məntəqələri)			2480

Bundan başqa xəstəxananın hər qəbul otağını təşkil etmək üçün 175 man. və hər yeni təşkil edilən xəstəxana feldşer məntəqələri ilə birlikdə 900 man. həcmində pul nəzərdə tutulmuşdur[1].

Qeyd etmək lazımdır ki, yeni əsasnaməyə uyğun olaraq qəbul otaqlarının kənd xəstəxanalarına çevrilməsi və sahədə ikinci xəstəxananın, feldşer məntəqəsinin açılması iki dövrdə həyata keçirilməli idi.

Birinci dövr (1904-1906) – qəbul otaqları kənd xəstəxanalarına çevrilməklə o sahədə feldşer məntəqəsi açılmalı idi.

Ikinci dövr (1907-1909) – iuinci kənd xəstəxanası feldşer məntəqəsi ilə bir sahədə açılmalı idi.

Yeni əsasnaməyə uyğun olaraq Naxçıvan və Şərur qəzalarında bir sıra dəyişiklik edildi: a) birinci dövr 1905-ci ildə Cəhri kəndində (Naxçıvan qəzası) və Başnoraşen

[1] «Qafqazda mülki idarələrin tibb sahəsinin indiki vəziyyətinin xülasəsi». Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri.T-1, 2-ci buraxılış, Tiflis, 1914-cü il, səh.41-43

(Şərur qəzası) qəbul otaqları kənd xəstəxanasına çevrildi. Hər bir xəstəxanada 6 çarpayı oldu. Beləliklə Başnoraşen qəbul otağı öz yerində qaldı, amma Cəhri kəndindəki qəbul otağı Naxçıvan şəhərinə köçürüldü.

Naxçıvan qəzasının Cənnəb kəndində isə feldşer məntəqəsi açıldı: b) ikinci dövrdə – fevral ayı 1908-ci ildə Cənnəb kəndində 6 çarpayılıq yeni xəstəxana açıldı. Orada olan feldşer məntəqəsi isə Naxçıvan qəzasının Əbrəqunus kəndinə köçürüldü. Bundan başqa Naxçıvan qəzasının Cəhri kəndində, Şərur qəzasının Xanlıqlar kəndində yeni feldşer məntəqəsi açıldı.

Qeyd etmək lazımdır ki, o zamanlar şəhər əhalisinə tibbi xidmət göstərmək üçün heç bir xəstəxana yox idi. Ona görə Naxçıvan şəhərində yaşayanlara tibbi yardım göstərmək məqsədi ilə əlacsızlıqdan Cəhri kəndində olan 6 çarpayılıq kənd xəstəxanası 1905-ci ildə Naxçıvan şəhərinə köçürülür. Naxçıvan şəhər ictimai-idarə üsulu tərəfindən həmin xəstəxanada 2 çarpayı artıq saxlamaq üçün ildə 1500 man. həcmində vəsait ayrılır. Məhz buna görə də Naxçıvan şəhərinin əhalisi kəndlilərlə bir yerdə bu 8 çarpayılıq kənd xəstəxanasından eyni hüquqda istifadə edirlər.

Beləliklə 1 yanvar 1910-cu ildə Çar rejimi dağılanadək aşağıdakı qaydada kənd tibb şəbəkəsi təşkil edilir[1].

Naxçıvan qəzası. Birinci kənd sahəsi Naxçıvan şəhərində xəstəxana (8 çarpayı) – birinci və ikinci polis sahəsinin 78 kənd və Naxçıvan şəhər əhalisinə xidmət edirdi. Ümumi xidmət sahəsi 1799 kv.metr, Ən uzaq məsafə 52 km., əhalisinin sayı 59923, feldşer məntəqəsi Cəhri kəndində idi.

Ikinci kənd xəstəxanası – Cənnəb kəndində xəstəxana (6 çarpayılıq), qəzanın 3-cü, 4-cü polis sahəsində 89 kənd əhalisinə xidmət edirdi. Ümumi xidmət sahəsi 2192 kv.metr, Ən uzaq məsafə 38 km., əhalisinin sayı 52726 nəfər, feldşer məntəqəsi Əbrəqunus kəndində yerləşirdi.

Şərur qəzası. Şərur kənd həkim sahəsi 864 kv.metr, Ən uzaq məsafəsi 19 km., əhalisinin sayı 35986 nəfər, feldşer məntəqəsi Xanlıqlar kəndində idi.

[1] Irəvan quberniyasının 1910-cu ilə aid yaddaş kitabı. Birinci şöbə, Irəvan, 1910-cu il, səh.22-23.

01 yanvar 1910-cu ilə yuxarıda göstərilən qəzalarda aşağıda göstərilən tibb işçiləri qulluq edirdi:

Naxçıvan qəzasında – qəza həkimi Epitan Qeorqiyeviç Şenqeliya, mama Nina Dmitriyevna Babkova. Birinci sahənin kənd həkimi Appalon Qriqoryeviç Kantakuzin, mama Yelena Semyonovna Şeykina. Ikinci sahənin kənd həkimi (məlumat yoxdur), mama Tamara Konstantinovna Matyukova.

Şərur qəzasında – qəza həkimi (boşdur), mama (boşdur). Şərur sahəsinin kənd həkimi Hüseyn Qulubəy Cabbarbəy oğlu Səfiyev, mama Mariya Dmitriyevna Quminskaya. Hər iki qəzanın feldşerləri haqqında məlumat yoxdur. Beləliklə 1910-cu ildə hər iki qəzada işləyən həkimlərin sayı – 7 (onlardan 3-ü başqa idarədən idi), feldşerlərin sayı – 15 (onlardan 4-ü başqa idarədən idi) və mamalar – 5 (onlardan biri başqa idarədən idi). Çarpayıların sayı 20-yə qədər çoxaldı. 1910-cu ildə 7 aptek olmuşdur ki, onların da 4-ü xüsusi sahibkarların əlində idi.

1910-cu ildə Naxçıvan qəzasında əhalinin 29788 nəfərinə 1 həkim, 8046 nəfərinə 1 çarpayı düşürdü.

Şərur qəzasında əhalinin 35956 nəfərinə 1 həkim, 5998 nəfərinə 1 çarpayı düşürdü.

Yeni əsasnamə qəbul olunandan sonra (8 mart 1904-cü il) əhaliyə tibbi xidmətin vəziyyəti keçmiş illərə nisbətən bir qədər yaxşılaşır. Bunu daha aydın başa düşmək üçün 1889-1905 və 1906-1910-cu illərdə Naxçıvan və Şərur qəzalarında əhaliyə göstərilən ambulatoriya və stasionar xidmətin vəziyyətini nəzərdən keçirək.

4-cü cədvəl

1889-1905 və 1906-1910-cu illərdə kənd xəstəxanalarında qəbul olunan ambulatoriya və stasionar xəstələrinin artıb əskilməsi haqqında məlumat[1]

Qəzalar	Kənd xəstəxanası, feldşer məntəqəsi ilə birlikdə	Illər	Qəbul olunan xəstələrin sayı	
			Ambula-toriyada	stasionarda
Naxçıvan	Cəhri	1892 - 1905	70,256	Məlumat yoxdur
	Naxçıvan şəhəri	1906 - 1910	79,914	237
	Çənənəb	1908 - 1910	23,471	10
Şərur	Başnoraşen	1889 - 1905	73,135	Məlumat yoxdur
		1906 - 1910	126,322	66
CƏMI:		1889 - 1905	143,391	Məlumat yoxdur
		1906 - 1910	229,707	313

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, I cild, 3-cü buraxılış, Tiflis, 1914, səh.117, 134.

Cədvəldən göründüyü kimi, əgər 1889-1905-ci illər, yəni 17 il ərzində Şərur qəzasında 73,135 ambulatoriya xəstəsi qəbul edilərək orta hesabla bir ildə əhalinin 1000 nəfərinə 113 gəliş düşürdüsə, 1906-1910-cu illərdə (yəni 5 il ərzində) 126,322 ambulatoriya xəstəsi qəbul edilərək, orta hesabla bir ildə əhalinin 1000 nəfərinə 702 gəliş düşürdü: əgər 1892-ci və 1905-ci illər (yəni 14 il) ərzində Naxçıvan qəzasında 70,256 ambulatoriya xəstəsi qəbul edilərək orta hesabla bir ildə əhalinin 1000 nəfərinə 49,7 gəliş düşürdüsə, 1906-1910-cu illər (yəni 5 il) ərzində üst-üstə 103,385 ambulatoriya xəstəsi qəbul edilərək orta hesabla 198,0 gəliş düşürdü; əgər 1889-1905-ci illər ərzində hər iki qəzada 143,391 ambulatoriya xəstəsi qəbul edilərək orta hesabla bir ildə əhalinin 1000 nəfərinə 61 gəliş düşürdüsə, 1906-1910-cu illərdə hər iki qəzada 229,707 ambulatoriya xəstəsi qəbul edilərək orta hesabla bir ildə əhalinin 1000 nəfərinə 295 gəliş düşürdü.

Yuxarıda göstərildiyi kimi, 1892-1905-ci illərə nisbətən hər iki qəzada əhalinin 1000 nəfərinə düşən ambulatoriya xəstələrinin sayı 1906-1910-cu illərdə 6 dəfədən çox olmuşdur. Lakin qeyd etmək lazımdır ki, 1906-1910-cu illərdə xəstələrin sayının artması heç də o demək deyildir ki, əhaliyə göstərilən ambulatoriya xidməti qəzalarda yalnız tibb şəbəkəsinin genişləndirilməsi və tibb işçilərinin sayının artırılması nəticəsində olmuşdur. Bunun başlıca səbəbi əhalinin iqtisadi yaşayış şəraitinin zəifləməsi üzündən bir sıra yoluxucu və ictimai xəstəliklərin artması olmuşdur.

Bununla yanaşı cədvəldən göründüyü kimi 1906-1910-cu illərdə əhalinin xəstəxanaya qəbulu olduqca dözülməz olmuşdu. Orta hesabla bir ildə hər xəstəxanada cəmi 21 xəstə yatmışdır. Halbuki, yalnız bir çarpayı il ərzində normal olaraq 20-21 xəstə, habelə hər iki qəzada olan 20 çarpayı isə 400-420 xəstə qəbul edə bilərdi. Belə vəziyyət onunla izah edilir ki, xəstəxanalarda müalicə işi keyfiyyətsiz aparılırdı, dərman və sarğı materialları üçün hər xəstəyə cəmi 5-6 qəpik pul buraxılırdı. Xəstələrin qidalanması üçün lazımi qədər ərzaq buraxılmırdı.

Dərman və sarğı materialları almaq üçün hər kənd xəstəxanasına 1890-1892-ci illərdə bir ildə 400 manat pul

buraxılırdı. Bu puldan hər xəstəyə Başnoraşen xəstəxanasında 3,2 qəpik, Cəhri xəstəxanasında isə 9 qəpik xərcləməyə icazə verirdilər. Sonralar xəstəxanalarda dərman və sarğı materiallarına buraxılan xərc bir qədər artırıldı. Hər xəstəxanaya feldşer məntəqəsi ilə birlikdə 800 manat pul buraxıldı. Lakin xəstəyə düşən dərman pulu isə artmadı. Məsələn, bu vəsait artırılan illər Başnoraşen kəndində hər bir xəstəyə 3 qəpik, Naxçıvan şəhərindəki kənd xəstəxanasında 5 qəpik, Çənənəb kənd xəstəxanasında isə 10 qəpik dərman pulu xərclənməsinə icazə verildiyi qeyd edilir. Bir ildə qəbul olunan stasionar və ambulatoriya xəstələrinin sayını nəzərə alsaq, aydın olur ki, hər bir xəstəyə cəmi 3-3,3 qəpik pul sərf olunurdu.

Şərur qəzasının Başnoraşen kənd xəstəxanasının həkimi H.Səfiyev xəstələrə buraxılan dərman pulundan şikayətlənərək yazır ki, «xəstəxanaya və feldşer məntəqəsinə buraxılan vəsait çatışmadığından həkim məcbur olur ki, xəstəyə lazımi tibbi yardım göstərməkdən imtina etsin. Sonra müəllif qeyd edir ki, ambulatoriya və stasionar xəstələrinə keyfiyyətli müalicə göstərilməsi üçün vəsaiti artırmaq lazımdır…»[1].

Xəstəxanada yatan xəstələrin qidalanmasına buraxılan vəsait onları təmin etmirdi, bundan başqa xəstələrə lazım olan ərzağı tapmaq olmurdu. Bu haqda Çənənəb kənd həkimi Y.Kaminski yazır ki, «Smeta üzrə hər xəstəyə bir gecə-gündüz ərzində 30 qəpik çatır. Bu pulla xəstəni saxlamaq qeyri mümkündür. Bu 30 qəpiyə xəstəyə yalnız az miqdarda isti xörək, bir yumurta və bir qədər çörək vermək olar. Xəstələr normal qidalansınlar deyə, istər-istəməz öz ciblərindən əlavə pul verməli olurlar»[2].

Əhaliyə göstərilən tibbi yardımın aşağı səviyyədə olması və xəstələrin xəstəxanaya az qəbul olunmasının

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, II cild, 2-ci buraxılış, Tiflis 1916, səh. 54-55.
[2] Yenə orada, səh. 66.

bir səbəbi də kənd xəstəxanasının xidmət etdiyi sahədə 40000-45000 nəfərin olması, kəndlərin xəstəxanadan xeyli uzaqda yerləşməsi idi. Kənd yollarının bərbad halda olması, ümumiyyətlə münasib və rahat nəqliyyat vəsaitinin olmaması və s. səbəblər üzündən, xüsusilə qış aylarında, xəstəxanaya qəbul daha da azalırdı. Bu da onunla izah edilir ki, qışda çoxlu qar yağması nəticəsində kəndlərin çoxunun yolları bağlanırdı. Çənənəb kənd həkimi Y.Kaminski bu haqda belə yazır: «Yolların əlverişsiz və yararsız halda olması, iş gününün itirilməsi və s. bunların hamısı o qədər də varlı olmayan əhali üçün maneçilik törədirdi. Qışda qar yağanda isə yuxarılarda olan kəndlər başqa yerlərlə tamamilə əlaqəsini kəsir və dağ cığırları təhlükəli olduğundan yalnız tək-tük adam tapılırdı ki, o da son dərəcə ehtiyac üzündən, qonşu kəndlərə getməyi qərara alsın»[1].

Ona görə göstərilənləri və habelə həkim kadrlarının kəskin azlığını nəzərə alsaq belə nəticəyə gəlmək olar ki, qəzalarda yaşayan kənd əhalisinə göstərilən tibbi xidmət nə dərəcədə aşağı səviyyədə idi.

Ölkənin sanitariya vəziyyəti keçmişdə çox ağır idi. Küçələr başdan-başa zibillə dolu olurdu. Habelə küçələrin bərbad olması üzündən qışda palçıqdan, yayda isə tozdan keçmək mümkün olmurdu. «Molla Nəsrəddin» jurnalı Naxçıvanın belə acınacaqlı vəziyyətinə gülərək keçmiş Naxçıvandakı küçələrin bərbad halda olmasını öz nömrələrinin birində tənqid edir. Jurnalda çəkilən karikaturada bir nəfər Naxçıvan şəhər əhalisinin dəvə üstündə işə getməsi və dəvənin yarıya qədər palçığa batması göstərilir (5-ci şəkil).

Sanitariya işlərinə nəzarət yetirilməsi polis işçilərinə tapşırılmasına baxmayaraq, əslində bu işlə heç kim məşğul olmurdu.

Naxçıvan şəhərində qədimdə 3 hamam var idi: - Şeyxəlibəy hamamı, Əlifəzli hamamı və qaçqın Mirzəəlibəy

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, II cild, 2-ci buraxılış, Tiflis 1916, səh.62.

hamamı. Ordubadda isə cəmi 2 hamam var idi. Kəndlərin əksərində hamam yox idi. O kənddə ki, hamam var idi, onlar da çirkab sularla dolu olurdu. Əhali çimmək üçün

5-ci şəkil
Naxçıvan şəhəri Puşkin küçəsi

ümumi hovuzlardan istifadə edirdi ki, bu da dəri və yoluxucu xəstəliklərin yayılması üçün əlverişli bir mənbə idi.

«Molla Nəsrəddin» jurnalının inqilabdan qabaqkı nömrələrinin birində hamamda çimənlərin vəziyyətini təsvir etmişdir. 6-cı şəkildən göründüyü kimi hamam otağının ortasında olan hovuzdan necə istifadə edilir.

Kənd həkimi Y.Kaminski Naxçıvan qəzasının ikinci sahəsində (indiki Culfa rayonunda – A.M.) yaşayış şəraitindən və sahənin sanitariya vəziyyətindən məlumat verərək yazır ki, «sahənin yaşayış şəraiti ümumiyyətlə aşağı idi. Əhalinin istifadə etdiyi bulaq suyu kəndlərdə bir qayda olaraq çirkləndirilirdi. Kəndlərdə zibil tökmək üçün daimi yer ayrılmadığından zibil və başqa tullantılar ya çaya, ya da kəndin kənarına tökülürdü»[1].

6-cı şəkil
Kənd hamamı

Yerlərdə nüfuzlu polis nümayəndələrinin olmaması üzündən əhaliyə verilən göstərişlər vaxtında icra olunmurdu, əhali tibb işçilərinin göstərişlərinə çox vaxt etinasızlıqla yanaşırdı. Protokol tərtib edilməsi işə az kömək edirdi.

Kənd həkimi H.Səfiyev Şərur qəzasının ümumi halı və əhalinin sanitariya vəziyyəti haqqında verdiyi məlumatda göstərir ki, qışda əhali otağın ortasında qazılmış təndirdən həm çörək yapmaq üçün, həm də soyuqdan qorunmaq üçün istifadə edirdi. Belə ki, təndirə çörək yapılandan sonra onun üstünə kürsü qoyur və bunun da üzərinə böyük bir yorğan salırdılar. Ailə üzvlərinin hamısı bu yorğanın altında yatırdılar.

Müəllif yazır: «Heç bir evdə mebel yox idi, bunu

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, II cild, 2-ci buraxılış, Tiflis, 1916, səh.59-60.

köhnə palaz əvəz edirdi[1].

Çar Rusiyası dövründə Naxçıvan və Şərur qəzalarında əhali amansızcasına istismar edilir, onlar arasında profilaktik və sanitariya-sağlamlıq tədbirləri olduqca zəif həyata keçirilirdi. Yuxarıda göstərildiyi kimi, tibb müəssisələrinin, həkim və orta təhsilli tibb işçilərinin sayı son dərəcə az idi. Iqtisadi gerilik hökm sürür, eləcə də məişət və əmək şəraiti aşağı səviyyədə idi. Məhz bu səbəblər üzündən ölkədə tez-tez epidemiyalar baş verirdi.

1892-ci ilin yay ayında baş vermiş vəba epidemiyası vaxtı Naxçıvan qəzasında 2583 vəbalı xəstə qeydə alınmış, onlardan 1227 nəfəri (47,5%-i) ölmüşdür. Naxçıvan şəhərində isə 250 vəbalı xəstədən 157-si (62,8%-i) ölmüşdür.

1904-cü ildə Naxçıvan və Şərur qəzalarında vəba epidemiyasının baş verməsinin qarşısını almaq və epidemiya əlehinə tədbirləri gücləndirmək məqsədi ilə 1904-cü ildə Şərur qəzasının Başnoraşen kəndində (iyul), Ordubad şəhərində (avqust) və Naxçıvan şəhərində (sentyabr) həkim-sanitar məntəqələri təşkil edilir. Onlara sanitar tədbirlərin həyata keçirilməsinə və xidmət dairəsində sanitar vəziyyətinə nəzarət etmək həvalə olunmuşdur. Xəstəlik hadisəsi baş verən vaxt ona qarşı bilavasitə mübarizəyə qoşulmaq nəzərdə tutulmuşdur.

1904-cü ilin avqust ayında Naxçıvan şəhərində vəbalı xəstələr üçün 10 sarpayılıq, sentyabr ayında Şərur qəzasının Başnoraşen kəndində isə 3 çarpayılıq xəstəxana açılır.

Naxçıvan və Şərur qəzalarında baş verən vəba epidemiyası zəhmətkeşlər arasında çoxlu qurbanlar apardı. Təkcə 1904-cü ildə vəba epidemiyası zamanı Naxçıvan qəzasında vəbaya tutulmuş 837 xəstədən 628 nəfəri (yəni xəstələnənlərin 74%-i), Şərur qəzasında isə 845 vəbalı xəstədən 660 nəfəri (yəni xəstələnənlərin 78,1%-i) ölmüşdü[2].

[1] Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, II cild, 2-ci buraxılış, Tiflis, 1916, səh.51.

[2] Irəvan quberniyasının 1906-cı ilə aid yaddaş kitabı. «Irəvan quberniyasında 1904-cü ildə vəba epidemiyasının xülasəsi»,Irəvan,1905,səh.97.

Başqa sözlə desək, 1904-cü ildə hər iki qəzada ümumiyyətlə ölmüş 3428 nəfərdən 1288-i (yəni ümumi ölüm hallarının 37,6%-i) yalnız vəba xəstəliyindən olmuşdur. Beləliklə, 1904-cü ildə Keçmiş Naxçıvanda əhalinin hər 10000 nəfərinə 110 vəbalı xəstə düşürdü. Elə kəndlər var idi ki, vəbaya tutulan xəstələrin 90-95%-i, hətta 100%-i vəfat edirdi. Məsələn, 1904-cü ildə hər iki qəzanın 35 kəndində xəstələnən 204 vəbalı xəstənin hamısı ölmüşdür. Buna misal Naxçıvan qəzasının Aşağı Rəmeşin, Kükü, Şada, Payız, Nehrəm, Yuxarı Uzunoba, Camaldın, Culfa, Əliabad, Şahbuz, Kolanı, Tumbul; Şərur qəzasının Zeyvə, Keştaz, Mahmudkənd, Siyaqut, Vayxır, Tumaslı, Qarxın və sair kəndlərini göstərmək olar.

Irəvan qubernatoru quberniya həkiminin müşayiəti ilə 1904-cü il oktyabr ayının 14-də yerlərdə vəba epidemiyası əleyhinə aparılan tədbirlərin necə təşkil edildiyi ilə şəxsən tanış olmaq üçün Naxçıvana gəlir və bir neçə gün burada qaldıqdan sonra geriyə qayıdır. Çox təəssüflə qeyd etmək lazımdır ki, bu gəlişin nəzərə çarpacaq dərəcədə elə bir təsiri olmur. Xəstəlik isə ara vermədən günü-gündən çoxalır. Təkcə bunu göstərmək kifayətdir ki, 1904-cü il noyabr ayının 1-dən dekabr ayının 1-nə kimi vəbalı xəstələrin sayı 617 nəfərə çatmışdı ki, bunların da 481-i (yəni xəstələnənlərin 78%-i) vəfat etmişdi.

Irəvan quberniyasında 1904-cü ildə vəba epidemiyasının yayılması səbəbləri aydınlaşdırılarkən belə yazılmışdır: «Bu haqda danışmazdan əvvəl aşağıdakı suallara cavab vermək lazımdır:… Məgər bizim yaşayış şəraitimizin sanitariya vəziyyəti o qədər hazır idimi ki, biz vəba kimi qorxulu bir düşmənin qarşısına cürətlə çıxaq? Biz kifayət qədər hazırdıqmı ki, vəba xəstəliyini vaxtında aşkar edək və vaxtında onun qarşısını alaq? Bu sualların yalnız bir cavabı var: Yox! yox!»[1].

1894-cü ildə Naxçıvan qəzasında 4 nəfər və Şərur qəzasında bir nəfər cüzəmlı xəstə qeydə alınmışdır. Tədbir görülmədiyindən xəstələrin sayı ildən-ilə artır. Hər iki

[1] Irəvan quberniyasının 1906-cı ilə aid yaddaş kitabı, üçüncü hissə. Irəvan, 1905, səh.102.

qəzada 1894-1907-ci illərdə xəstəliyin nə dərəcədə yayılmasını bilmək üçün aşağıdakı cədvəli nəzərdən keçirək:

5-ci cədvəl

1894-1907-ci illərdə cüzam xəstəliyinin gedişi haqqında məlumat

Qəzalar	Yaşayış məntəqəsi	Qeydə alınmış			Ölmüş		
		kişi	qadın	Cəmi	kişi	qadın	cəmi
Naxçıvan	17	24	17	41	23	15	38
Şərur	9	7	5	12	5	5	10
CƏMI:	26	31	22	53	28	20	48

Yuxarıda deyilənlərdən və cədvəldən göründüyü kimi, 1894-cü ildə qeyd olunan cüzam xəstəliyinə qarşı vaxtında tədbir görülmədiyindən, xəstəlik yayılaraq 26 kəndi bürüyür və onun sayı 14 il ərzində (1908-ci ilədək) 5-dən 53-ə çatır ki, bunun da 48 nəfəri (yəni xəstələnənlərin 90,5 %-i) ölümlə nəticələnir.

Qəzalar üzrə götürdükdə Naxçıvanda xəstələnən 41 nəfər cüzamlı xəstənin 38-i (yəni xəstələnənlərin 92,7 %-i), Şərurda isə 12 xəstədən 10-u (yəni xəstələnənlərin 83,3 %-i) vəfat etdiyi aydın olur. 1907-ci ildə Naxçıvan və Şərur qəzalarında uşaqlar arasında skarlatina epidemiyası baş verir. Bu epidemiya zamanı Naxçıvan qəzasında skarlatinaya tutulan 229 uşağın 18-i (yəni xəstələnənlərin 8 %-i), Şərur qəzasında isə xəstələnən 56 uşağın 20-si (yəni xəstələnənlərin 35,6 %-i) ölür. Beləliklə, hər iki qəzada skarlatina ilə xəstələnən 285 uşaqdan 38-i (yəni xəstələnənlərin 13,3%-i) ölmüşdür[1].

Tibbi statistikanın lazımi səviyyədə aparılmaması bir çox xəstəliklər haqqında dəqiq rəqəmlər göstərməyə imkan vermir. Lakin bir sıra materiallardan aydın olur ki, o zamanlar müraciət edən xəstələr içərisində vərəmli,

[1] Irəvan quberniyasının 1912-ci ilə aid yaddaş kitabı, VII fəsil, Irəvan, 1912, səh.3-7.

traxomalı, dəri-zöhrəvi və bu kimi yoluxucu xəstəliklərə tutulanların sayı az olmamışdır.

«Qafqaz həqqında məlumatlar məcmuəsi» adlı əsərdə Naxçıvanda o zamanlar bir sıra xəstəliklərlə yanaşı qanlı ishalın, qızılcanın, keçəlliyin, müxtəlif göz xəstəliklərinin hökm sürdüyü göstərilir.[1] Habelə Naxçıvan və Şərur qəzalarında qarın yatalağının, qanlı ishalın, sifilisin, vərəmin olmasını, 1908-1909-cu illərdə Culfada və Yayçı kəndində çiçək və Nəsirvaz kəndində (Ordubad rayonu) skarlatina epidemiyasının baş verməsini (60 uşaqdan 50-si ölmüşdür) təsdiq edən sənədlər də vardır.

Yuxarıda göstərilən fakt və rəqəmlərdən aydın olur ki, keçmiş Naxçıvanda səhiyyə işlərinin kədərli mənzərəsi necə idi. Buradan belə nəticə çıxarmaq olar ki, Naxçıvan və Şərur qəzaları təbii çiçək, qarın yatalağı, vəba, cüzam, qanlı ishal, dəri-zöhrəvi xəstəlikləri, traxoma, vərəm, göy öskürək, qızılca, skarlatina və başqa yoluxucu xəstəliklərin mənbəyi idi.

Elə müəllifə rast gəlməzsən ki, o öz əsərində keçmiş Azərbaycanda, xüsusən Naxçıvanda malyariya xəstəliyinin vəziyyətindən danışarkən onun xalqın qənimi, bəlası olmasını, zəhmətkeşlər arasında geniş yayılmasını və çoxlu qurbanlar aparmasını göstərməsin. Doğrudan da xalq arasında «qızdırma» adlanan bu xəstəlik keçmişdə hər il yüzlərlə adamı, xüsusən uşaq və hamilə qadınları məhv edirdi. Əhali arasında malyariya Naxçıvan qəzasına nisbətən Şərur qəzasında daha geniş yayılmışdı. Bu haqda «Böyük sovet ensiklopediyası»nda Naxçıvan MSSR-də səhiyyə işlərinin keçmişdəki zəif inkişafından, əhali arasında xəstəliklərin yayılmasından bəhs edilərək göstərilir ki, əhali arasında yatalaq, traxoma, malyariya (Arazətrafı zolaqda əhalinin 70-80%-i, Noraşendə isə – az qala 100%-ə qədəri) xəstəlikləri geniş yayılmışdı[2]. Məsələn, Naxçıvan

[1] «Qafqaz haqqında məlkmatlar məcmuəsi», VII cild, Tiflis, 1880, səh.258.

[2] Böyük Sovet Ensiklopediyası, 29-cu cild, 2-ci nəşr, Moskva,1954,səh.276.

qəzasında 1906-cı ildə – 4621 nəfər, 1907-ci ildə – 3749 nəfər, 1908-ci ildə – 893 nəfər, 1909-cu ildə – 6575 nəfər və 1910-cu ildə 5476 malyariyalı xəstə qeydə alınmışdı.

Malyariya xəstəliyinin gedişi haqqında verilən məlumatların birində xəstəliyin törətdiyi ağırlaşmalar xarakterizə edilərək göstərilir ki, malyariyanın təsirindən hamilə qadınlarda tez-tez uşaqsalma və vaxtından əvvəl doğuş hadisələri baş verir, habelə zahılıq dövrü yüksək temperatur, daxili cinsiyyət üzvlərinin müxtəlif səbəblərdən ağırlaşması ilə nəticələnir ki, bu da çox vaxt zahı qadının ölümünə səbəb olurdu.

Müəllif qeyd edir ki, xroniki malyariya nəticəsində qanazlığı müşahidə edilən qadınların bir neçəsində illərlə aybaşı olmur[1].

Kənd həkimi Kantakuzinin müşahidəsinə əsasən 1909-cu ildə malyariya epidemiyası zamanı Naxçıvan şəhərində uşaqsalma və vaxtından qabaq doğuşdan sonra ağırlaşmış, uzun sürən uşaqlıq qanaxması və s. səbəblər üzündən 100-dən çox qadın (çoxusu cavan yaşlarda) ölmüşdür.

Beləliklə, öz-özlüyündə aydın olur ki, inqilabdan, qabaqkı Naxçıvanda əhalinin təbii artımının son dərəcə azalması, ölümün, xüsusən uşaq ölümünün çoxalmasına səbəb – yuxarıda göstərildiyi kimi – xəstəliklərin geniş surətdə yayılması, yaşayış şəraitinin aşağı səviyyədə olması idi. «Naxçıvan MSSR»-i kitabının müəllifi A.Nadirov bu barədə haqlı olaraq yazır: «Sovet hakimiyyəti qurulmamışdan əvvəl Naxçıvan MSSR-nin hazırki ərazisində əhalinin təbii artımı son dərəcə aşağı idi. Bunun əsas səbəbi, hər şeydən əvvəl, o zaman əhalinin ən geniş kütlələrinin iqtisadi vəziyyətinin olduqca ağır olması, habelə malyariya, səpgili yatalaq və başqa bu kimi ağır xəstəliklərin yayılması… idi.[2]

[1] Həkim Malyujenko M. Irəvan quberniyasının 1912-ci ilə aid yaddaş kitabı, VII fəsil, Irəvan, 1912, səh.35

[2] A.Nadirov. Naxçıvan MSSR (iqtisadi-coğrafi oçerk), Bakı, 1959, səh.39.

6-cı cədvəl

1904-1910-cu illərdə Naxçıvan və Şərur qəzalarında əhalinin təbii artıb-əksilməsi haqqında məlumat[1]

İllər	Əhalinin sayı	Doğulanların sayı		Ölənlərin sayı		Təbii artım	
		Mütləq rəqəmlərlə	Hər 1000 nəfərə görə	Mütləq rəqəmlərlə	Hər 1000 nəfərə görə	Mütləq rəqəmlərlə	Hər 1000 nəfərə görə
1904	152865	3880	25,4	3428	22,4	452	3,0
1906	153769	3185	20,7	2614	17,0	571	3,7
1908	154911	4543	29,3	3382	21,8	1161	7,5
1910	157232	4864	30,9	3269	20,8	1594	10,1

Elə illər də olmuşdur ki, (1904-cü ildə), hər 1000 nəfərə düşən təbii artım 3-ə, ölüm 22,4-ə, doğum isə 25,4-ə çatmışdır. Deyilənləri daha düzgün başa düşmək üçün Naxçıvan və Şərur qəzalarında 1910-cu ildə əhalinin hər 1000 nəfərinə düşən doğumu, ölümü və təbii artımı Azərbaycan SSR və Naxçıvan MSSR-in 1962-ci ilə aid göstəriciləri ilə müqayisə edək:

	Doğum	Ölüm	Təbii artım
Keçmiş Naxçıvan (1910-cu ildə	30,9	20,8	10,1
Naxçıvan MSSR (1962-ci ildə)	47,7	7,8	39,9
Azərbaycan SSR (1962-ci ildə)	40,3	7,4	32,9
SSRI (1962-ci ildə)	22,5	7,5	15,0

[1] Bu cədvəli tərtib edərkən Irəvan quberniyasının 1904-1910-cu illərə aid yaddaş kitabından istifadə edilmişdir.

Ağır iqtisadi vəziyyət və çar hökumətinin Naxçıvan əhalisinə etinasızlığı nəticəsində yüksək xəstələnmə və ölüm halı ilə yanaşı əlillik də artırdı. Belə hadisə 1897-ci ildə Rusiya imperiyasının əhalisinin birinci siyahıya alınmasında qeyd edilmişdir.

7-ci cədvəl

1897-ci ildə əhalinin siyahıya alınmasında əlillik haqqında məlumat

Qəzalar və şəhərlər	Əhalinin sayı	Əlillərin sayı			
		Korlar	Kar və lallar	Ağıldan kəm	Cəmi
Naxçıvan şəhəri	8790	26	4	5	35
Ordubad şəhəri	4611	8	-	1	9
Naxçıvan qəzası (şəhərlə birlikdə)	100771	304	73	68	445
Şərur qəzası	38269	101	30	20	151
Hər iki qəzada CƏMI	139040	405	103	88	596

Məlumatdan aydın olur ki, əhalinin hər 1000 nəfərinə düşən əlillərin sayı belə olub:

Naxçıvan şəhəri üzrə – korlar 2,9; kar və lallar – 0,4; ağıldan kəmlər – 0,6; cəmi əlillər – 3,9;

Ordubad şəhəri üzrə - korlar 2,7; ağıldan kəmlər – 0,2; cəmi əlillər – 1,9;

Naxçıvan qəzası üzrə (şəhərlərlə birlikdə) - korlar 0,3; kar və lallar – 0,7; ağıldan kəmlər – 0,7; cəmi əlillər – 4,4;

Şərur qəzası üzrə - korlar 2,6; kar və lallar – 0,8; ağıldan kəmlər – 0,5; cəmi əlillər – 3,9;

Hər iki qəza üzrə - korlar 2,9; kar və lallar – 0,7; ağıldan kəmlər – 0,6; cəmi əlillər – 4,2.

Çar hökumətinin devrilməsinə qədər Naxçıvanda səhiyyə işlərinin kədərli tarixi belə olmuşdur.

1917-ci il fevral inqilabından sonra Naxçıvanda müvəqqəti hökumətin və Xüsusi Cənubi Qafqaz Komitəsinin yerli hakimiyyət orqanları formal olaraq yaradıldı. Bu yeni

hakimiyyət əslində devrilmiş çar üsuli-idarəsindən çox az fərqlənirdi.

1917-20-ci illərdə Naxçıvan və Şərur qəzaları daşnakların və onların ingilis – amerikan ağalarının əlində idi. Bu ağalar Naxçıvan və Şərur qəzalarında yaşayan xalqları bir-biri ilə salışdırır, onlar arasında qırğın törədirdilər. Onların yeritdikləri düzgün olmayan siyasətin nəticəsində yüzlərlə adam milli qırğınların qurbanı oldu.

Ölkədə olan bu acınacaqlı vəziyyəti görən həkim və orta təhsilli tibb işçiləri öz şəxsi təhlükəsizliklərini təmin etmək üçün qəzanı tərk edirlər. Beləliklə, 1917-1920-ci illərdə əhaliyə göstərilən tibbi xidmət son dərəcə xarablaşır. Təkcə bunu göstərmək kifayətdir ki, 1920-ci ildə hər iki qəzada bir həkim və bir neçə orta təhsilli tibb işçisi var idi.

Bu illərlə statistik məlumatlar saxlanılmadığından əhaliyə göstərilən tibbi xidmət haqqında məlumat yoxdur. Amma bir sıra materiallardan aydın olur ki, həmin illərdə xəstəliklər və aclıq nəticəsində gündə 40-50 adam ölürmüş.

1918-22-ci illərdə Naxçıvanda həkim işləmiş (1920-ci ildə o, ilk səhiyyə komissarı olmuşdur) Əli Abbas oğlu Abbasov 1918-20-ci illərdəki həkimlik fəaliyyətindən danışarkən qeyd edib ki, «o illərdə Naxçıvanda səhiyyə işləri olduqca acınacaqlı vəziyyətdə idi.» O, təkbaşına işləmək məcburiyyətində olub. 1918-ci ildə Naxçıvana gələndə burada 1910-cu ildən həkimlik edən, əhali arasında yaxşı mütəxəssis kimi qiymətləndirilən, böyük təcrübəyə malik olan K.Qilneri və E.Şenqelini görür. Az vaxt içində onlar, bütün orta tibb işçiləri və yeganə mama şəxsi təhlükəsizliklərini qorumaq məqsədilə qəzanı tərk edirlər. Bu səbəbdən Ə.Abbasov müraciət edən xəstələrə tək başına, qəbul otağında, kömək göstərir. Ağır xəstələrə isə evlərdə yardım edir. O illərdə dərman çatışmayıb, peyvənd materialının olmaması üzündən uşaqlar arasında çiçək xəstəliyi günü-gündən artırmış. Xüsusilə qaçqınlar arasında ağır xəstələrin sayı daha çox olmuşdur.

Beləliklə, göstərilən, hətta az-maz materiallardan məlum olur ki, 1917-20-ci illərdə səhiyyənin vəziyyəti dözülməz dərəcədə pisləşib. Olub-qalan tibb şəbəkəsi dağıdılıb, tibbi kadrlar ölkəni tərk edib, yerlərdə sanitar vəziyyəti kəskin

pisləşib. Millətlər arasında qırğın nəticəsində əhali son dərəcə yoxsullaşıb. Bunların hamısı əhali arasında xəstəliyin, xüsusən yoluxucu xəstəliklərin artmasına səbəb olub.

N Ə T I C Ə

1. Rusiyanın tərkibinə daxil olana qədər Naxçıvanda heç bir tibb idarəsi və həkim olmamışdır. Əhali tibbi yardım almaq üçün ara həkimlərinə, mollalara, seyidlərə, dərvişlərə, falçılara və s. müraciət etmişlər.

2. 1828-ci ildən, yəni Naxçıvanın Rusiyaya birləşdirilməsindən sonra, ərazidə ilk tibb ocaqları və tibb kadrları yaradıldı. Bu ara həkimləri ilə mübarizədə əhəmiyyətli rol oynadı və Naxçıvanda tibb işinin irəli getməsinə zəmin yaratdı.

Bununla belə Çar hökumətinin müstəmləkəçilik siyasəti əhaliyə öldürücü təsir edirdi. O, əhalinin rifa halının, onun sağlamlığının qayğısına bigənə idi. Buna görə tibb idarələrinin, həkimlərin, orta tibb işçilərinin sayı təqribən 90 il ərzində son dərəcə azlıq təşkil edirdi. Əhaliyə həkim köməyi qeyri-qənaətbəxş idi.

3. Qəzalarda əhali ixtisaslı yardımın nə olduğunu bilmirdi. Burada nə uşaq, nə qadın tibb idarələri, nə də sanitar-epidemioloji xidmət təşkil edilməmişdir.

4. Iqtisadi gerilik, məişət və əmək şəraitinin aşağı səviyyədə, yaşayış yerlərinin antisanitar vəziyyətdə olması, tibb işinin olduqca zəif inkişafı – bunlar hamısı yoluxucu xəstəliklərin: - təbii çiçək xəstəliyinin, vəbanın, yatalağın, malyariyanın, dizenteriyanın, traxomanın, prokazanın uşaq yoluxucu xəstəliklərinin baş verməsinə və yayılmasına səbəb olurdu.

5. Əhali arasında ümumi ölüm, xüsusən uşaq ölümü çox yüksək səviyyədə, əhalinin artımı aşağı səviyyədə əhalinin əlilliyi yüksək dərəcədə idi.

6. 1917-20-ci illərdə tibbi xidmət daha da pisləşir, xəstəliklər günü-gündən artır. 1917-ci ilə qədər Naxçıvanda işləyən tibb işçiləri ağır siyasi vəziyyətlə əlaqədar 1-2 nəfərdən başqa hamısı qəzanı tərk edir. Sayca onsuz da az olan tibb

şəbəkəsi dağılır. Sanitar vəziyyət son dərəcə pisləşir, vəba, malyariya, vərəm, sifilis, traxoma və başqa yoluxucu xəstəliklər əhalinin get-gedə yoxsullaşmasının nəticəsində artır.

II FƏSIL.

SOVET HAKIMIYYƏTI ILLƏRINDƏ NAXÇIVAN MSSR-də SƏHIYYƏNIN INKIŞAFI

1. Naxçıvanda Sovet hakimiyyəti qurulan illərdə bərpa, sənayeləşmə, kənd təsərrüfatının kollektivləşməsi dövründə səhiyyə (1920 – 1932-ci illər)

1920-ci il iyulun 28-də Naxçıvan zəhmətkeşləri Qızıl Ordunun köməyi ilə müdaxiləçiləri devirdilər və Sovet hakimiyyətini qurdular. Dörd il keçdikdən sonra (9 fevral 1924-cü il) Azərbaycan SSR-nin tərkibində Naxçıvan MSSR-i yaradıldı. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi Naxçıvan zəhmətkeşlərinin tarixi müqəddəratında əsaslı dönüş yaratdı. Beləliklə də ölkənin iqtisadi və mədəni inkişafı üçün geniş imkanlar açıldı. Bunun nəticəsində respublikada səhiyyə işləri yenidən quruldu və inkişaf etdi, əhaliyə tibbi yardım göstərilməsi yaxşılaşdırıldı.

1920-ci il oktyabrın 10-da Naxçıvan inqilab komitəsinin dekreti ilə ölkədə ilk səhiyyə şöbəsi yaradıldı. Bu ağır illərdə əhaliyə tibbi yardımın təşkili və səhiyyənin inkişaf etdirilməsi işi Naxçıvanda inqilabi hərəkatın iştirakçısı olan Əli Abbas oğlu Abbasova tapşırıldı. Bir neçə aydan sonra səhiyyə şöbəsi səhiyyə komissarlığına çevrildi. Ə.Abbasov səhiyyə komissarı təyin edildi.

Ilk günlərdən etibarən sovet səhiyyəsinin prinsipləri əsasında əhaliyə tibbi yardım göstərilməsi işinə başlandı.

Qeyd etmək lazımdır ki, sovetləşmənin ilk illərində səhiyyə işini yenidən bərpa etmək əhaliyə tibbi xidməti təşkil etmək o qədər də tez başa gəlmədi. Bir tərəfdən büdcənin zəif olması, mərkəzi səhiyyə orqanları, xüsusən Azərbaycan Səhiyyə komissarlığı ilə əlaqənin tam bərpa edilməməsi, əvvəllər sayca cüzi də olsa müalicə müəssisələrinin dağıdılması, olub – qalan tibb işçilərinin hərc-mərcilik nəticəsində 1918-1920-ci illərdə ölkəni tərk etmələri,

xəstəliklərin, xüsusən yoluxucu xəstəliklərin həddindən artıq artması – bunlar hamısı yenicə təşkil edilmiş səhiyyə şöbəsinin fəaliyyətinə ciddi maneələr, çətinliklər yaradırdı. Bunlara baxmayaraq, səhiyyə işinin günü-gündən yaxşılaşdırılması sahəsində gərgin iş görülürdü.

1920-ci ildə XI Ordunun Qafqaz polkunun hissələri ilə Naxçıvana gəlmiş və 1967-ci ilə qədər Naxçıvanda işləmiş tibb bacısı E.F.Uspenskaya öz xatirələrində o illərdə Naxçıvan əhalisinin vəziyyətini təsvir edirdi: «Biz Naxçıvana gələndə əhali az idi. Bir çoxu öz əmin-amanlığını qorumaq üçün ev-eşiyini tərk edərək qaçmışdı. Bizim gəlişimizlə onlar uşaqları ilə geri dönməyə başladılar. Qaçqınların bir çoxu ölmüşdü, onlar xüsusən aclıqdan əzab çəkmişdilər. Şəhər dağıdılmışdır və bərbad hala salınmışdır. Burada Sovet hakimiyyəti bərqərar olandan sonra camaat çox sevinirdi. Tibb xidməti haqqında danışmağa dəyməz, o çox zəif idi. Naxçıvanda vur-tut bir ya iki həkim qalmışdı. Kəndlərdə nə tibb ocağı, nə də tibb personalı var idi. Ona görə mən və polkun həkimi N.Dmitriyev çağırışa əsasən rayonlara, kəndlərə gedərək əhaliyə tibbi kömək göstərirdik».[1]

1920-ci ilin axırlarında Bakı ilə əlaqə bərpa olandan sonra Naxçıvana həkimlər, orta tibb işçiləri və s. gəlməyə başlayır. Məsələn, 1920-ci ilin avqust ayında Azərbaycan Inqilab Komitəsinin səhiyyə komissarlığı Naxçıvanda sirayət edən yoluxucu xəstəliklərlə mübarizə etmək üçün buraya bir vaqon dərman preparatları göndərir.[2]

Naxçıvanda Sovet hakimiyyətinin ilk aylarında şəhər xəstəxanası bərpa edildi və çarpayıların sayı 20-dək artırıldı, yeni uşaq evi, ambulatoriya, sanitariya müfəttişliyi təşkil olundu və aptek açıldı. 01.01.1921-ci ildə bu tibb idarələrində 1 həkim (Abbasov A.A.), 3 feldşer (Qədimov M., Allahverdiyev A. və Allahverdiyev M.), 1 sanitar müfəttişi (Məhərrəmov M.T.), 2 əczaçı (Musayev I. və Qədimov A.),12 xəstəyə qulluq edən, 5 sanitarka və 1 aşbaz

[1] Moskva şəhəri «Feldşer və akuşerka» jurnalı, 1964-cü il, №11, səh.51.

[2] Naxçıvan M.D.A. fond 25, siyahı 2, qovluq 1, səh.15.

işləyir.[1]

Respublikada tədricən səhiyyənin şəbəkəsi və tibb işçilərinin sayı artmağa başlayır. 1922-ci ildə burada 2 xəstəxana, sanitar müfəttişliyi (komitet), feldşer məntəqələri və şəhər apteki var idi.

01.01.1922-ci ilə bu müəssisələrdə 4 həkim (A.Abbasov, Malyuyenko, M.T.Sultanov və F.Kəngərli), 4 feldşer, 1 tibb bacısı, 1 sanitar müfəttişi (orta tibb işçisi), 4 əczaçı və 32 kiçik və texniki işçi işləyirdi.

1922-ci ilin ortalarında Respublikada, 2 qəzada səhiyyə şöbəsi təşkil edilir: Şərurda (S.Q.Antonov), Ordubadda (Q.Serqeyev). Habelə Naxçıvan şəhərində şəhər ambulatoriyası, uşaq xəstəxanası, islah evi ambulatoriyası, 2 feldşer məntəqəsi (biri Şərur qəzasının Şaxtaxtı kəndində, o biri Ordubad qəzasının Cənnəb kəndində), Bənəniyar kəndində olan feldşer məntəqəsi isə Culfaya (Naxçıvan qəzası) köçürülür.

Get-gedə, hər il tibb müəssisələrinin və tibbi kadrların sayı artır.

01.01.1923-cü ilə 3 xəstəxana, 2 ambulatoriya, 3 feldşer məntəqəsi sanitar müfəttişliyi (komitə) şəhər apteki və xüsusi kənd apteki var idi ki, onlarda da 6 həkim, 6 feldşer, 1 mama, 1 tibb bacısı və 2 əczaçı işləyirdi.[2]

Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılandan sonra (9 fevral 1924-cü il) burada 3 qəza təşkil olundu: Naxçıvan, Ordubad və Şərur qəzaları. Qəzalar öz növbəsində dairələrə bölündü. Respublikada dairələrin sayı 12 idi. Onlardan 8 Naxçıvan qəzasında, 4 isə Şərur qəzasında.

1921-ci il mart ayının 16-da RSFSR və Türkiyə arasında «Dostluq və qardaşlıq haqqında müqavilə» Naxçıvanda Sovet hakimiyyətinin möhkəmlənməsinə təkan verdi. Bu müqaviləyə əsasən Naxçıvan Vilayəti Azərbaycan
SSR-in himayəsi altında Muxtar Respublika kimi qəbul edildi.

[1] Naxçıvan M.D.A. fond 17, siyahı 2, qovluq 1, səh.11

[2] Naxçıvan MSSR Səhiyyə nazirliyinin arxivi, fond 17, siyahı 2, qovluq 3, səh.1-27

1921-ci ildə Vilayət Inqilab Komitəsinin dekretinə əsasən Naxçıvan Xalq Komissarlar Soveti yaradıldı və onun tərkibində Xalq Səhiyyə Komissarlığı təşkil edildi və Əli Abbas oğlu Abbasov ilk Səhiyyə komissarı təyin edildi. O, bu vəzifədə 1922-ci ilin fevral ayına kimi işlədi.

Kommunist Partiyası və Sovet hökumətinin qayğısı nəticəsində sovetləşmənin ilk illərində Naxçıvanın iqtisadi həyatında müsbət irəliləyiş oldu. Ölkədə duz sənayesi bütünlüklə bərpa olundu və istehsalat texnikası yaxşılaşdı.

1923-cü ildə Ordubad şəhərində artıq 7 ipəksarıyan zavod işə salındı. Kəndlilər kənd təsərrüfatında böyük nailiyyətlər əldə etdilər. 1922-ci ildə respublikada 32 min desyatin olduğu halda 1923-24-cü illərdə o, müharibə illəri səviyyəsinə çatdı və 55 desyatin oldu. Bu illərdə pambıqçılıq və pambıq məhsulu 1913-cü ilə nisbətən 5 dəfə genişləndi. Naxçıvan MSSR-i Xalq Komissarlar Soveti xalq təsərrüfatının bərpası, kənd təsərrüfatının yaxşılaşdırılması, sosialist quruluşunun genişləndirilməsi ilə yanaşı əhalinin mədəni səviyyəsinin qaldırılmasına və əmin-amanlığın yaxşılaşmasına, savadsızlığın ləğv edilməsinə, habelə kəndlilərə və fəhlələrə pulsuz tibbi yardım göstərilməsini təşkil etmək məsələsinə ciddi fikir verirdi.

1913-cü ildə ölkədə cəmi 13 məktəb var idi ki, bunlarda da 2000-ə yaxın adam təhsil alırdı.

1920/21-ci təhsil illərində burada 45 məktəb olduğu halda 1923/24 tədris illərində məktəblərin sayı 63-ə, müəllimlərin sayı 80-ə, şagirdlərin sayı 4146-ya, o cümlədən qızların sayı 910-a çatmışdır.

1922-ci ildə savadsızlığı ləğv etmək üçün xüsusi qadın pedaqoji kurslar və bir çox dərnəklər açılır. Bununla belə sovetləşmənin ilk illərində əldə edilən nailiyyətlərə baxmayaraq hələ də ölkənin xalq təsərrüfatında kəskin nöqsanlar var idi.

Bu haqda Naxçıvan SSR-i Xalq Komissarlar Sovetinin sədri H.Sultanov 1927-ci ildə yazırdı ki, «Naxçıvan ölkəsində olan müəssisələrin fəaliyyətini

qənaətbəxş hesab etmək olmaz»[1].

Naxçıvan ölkəsində zəhmətkeşlərə tibbi xidməti yaxşılaşdırmaq məqsədilə 1923-cü ildə Azərbaycan SSRi M.I.K. və Xalq Komissarları Soveti qərara alır ki, feldşer məntəqələri və malyariya stansiyaları üçün avadanlıq və ləvazimat almaqdan ötrü yığılan ərzaq rüsumu hesabına 10% həcmində vəsait ayrılsın.[2]

1923-cü ildə Naxçıvan şəhərində sığortalananlar üçün ambulatoriya, malyariya ambulatoriyası, Ordubad qəzasında həkim məntəqəsi, Şərur qəzasının Başnoraşen kəndində feldşer məntəqəsi, Cəhri kəndində (Naxçıvan qəzası) feldşer məntəqəsi açılır.

Beləliklə 01.01.1924-cü ilə Respublikada 1 xəstəxana (xəstəxanaların sayının azalması ondan irəli gəlmişdir ki, Şərur qəzasında xəstəxana üçün münasib bina olmadığına görə xəstəxananın əvəzində malyariya stansiyası açılır, Naxçıvan şəhərində isə uşaq xəstəxanası şəhər xəstəxanası ilə birləşdirilərək orada uşaq şöbəsi kimi fəaliyyət göstərir), 4 ambulatoriya, 1 həkim məntəqəsi, 4 feldşer məntəqəsi, 1 malyariya stansiyası, 1 malyariya ambulatoriyası, sanitar müfəttişliyi (komitet), 2 aptek (onlardan biri şəhər xəstəxanasında) fəaliyyət göstərir. Bu müəssisələrdə 4 həkim, 1 diş həkimi, 8 feldşer, 2 feldşer-mama, 1 tibb bacısı və 3 əczaçı işləyirdi.[3]

Kənd yerlərində stasionar çarpayıları olmadığına görə kənd əhalisinə şəhər xəstəxanasında tibbi yardım göstərilirdi. Kənd yerlərində xəstəxana üçün müvafiq bina olmadığına görə orada xəstəxana açmaq mümkün olmurdu.

1924-cü ildə Ordubad həkim məntəqəsi ambulatoriyaya çevrilir. Kənd yerlərində 3 feldşer məntəqəsi, Ordubad şəhərində isə şəhər apteki açılır.

Beləliklə 1925-ci ilə respublikada aşağıdakı tibb şəbəkəsi və kadrlar var idi: 35 çarpayılıq Naxçıvan şəhər

[1] H.Sultanov «Naxçıvan ölkəsi və onun iqtisadiyyatı», Bakı, 1927-ci il, səh.60.

[2] Naxçıvan M.D.A. fond 17, siyahı 2, qovluq 1, səh.11.

[3] Naxçıvan MSSR MDA, fond 17, siyahı 1-2, qovluq 155, səh.6-7

xəstəxanası – uşaq şöbəsi ilə birlikdə, 5 ambulatoriya, 1 malyariya stansiyası, 2 çevik (uçan) malyariya dəstəsi, 1 sanitar müfəttişliyi (komitə), 7 feldşer məntəqəsi, 3 aptek (onlardan biri xəstəxananın nəzdində).

Onlarda 8 həkim, 2 diş həkimi, 13 feldşer, 2 feldşer-mama, 2 tibb bacısı və 3 əczaçı işləyirdi.

1935-ci ildən başlayaraq büdcənin genişlənməsi və kənd iqtisadiyyatında irəliləyiş imkan verdi ki, respublikada əhalinin sağlamlığı üçün geniş tədbirlər həyata keçirilsin və müalicə-profilaktika müəssisələri genişləndirilsin. Buna baxmayaraq səhiyyənin vəziyyəti əhalinin ona olan ehtiyacını kifayət qədər ödəmirdi.

Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin sədri 1926-cı ildə öz məruzəsində səhiyyənin vəziyyətinə toxunaraq qeyd edir ki: - «1925-ci ilə qədər respublikada əhalinin sağlamlığı üçün az iş görülüb. Belə vəziyyət hökumət qarşısında məsələ qoyur ki, ümumi sanitar vəziyyətin yaxşılaşdırılması, müalicə müəssisələrinin genişləndirilməsi və onun kənd yerlərinə yaxınlaşdırılması üçün tədbirlər həyata keçirilsin».[1]

Naxçıvan MSSR Xalq Səhiyyə komissarı Məmməd Ismayıl (Baba) Allahverdi oğlu Qədimov 4 oktyabr 1925-ci ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının kollegiya iclasında Naxçıvan respublikasında səhiyyənin vəziyyətini ətraflı təhlil edir. O, göstərir ki, 1923-cü ildə bütün müalicə müəssisələrinə 4000 gəliş olmuşdur, 1924-cü ildə isə malyariya stansiyaları da daxil olmaqla 130000 gəliş olmuşdur. O, qeyd edir ki, malyariya ölkə əhalisinin əsas qənimi və bəlasıdır. Şərurda əhali az qala 100%, Naxçıvan qəzasında 50-70%, Ordubadın cənub hissəsində 12% malyariya xəstəliyinə tutulmuşdur. Statistik rəqəmlərdən aydın olur ki, əhalinin 12%-i sifilis xəstəliyi ilə, 30%-i göz xəstəliyi ilə, traxoma ilə xəstələnir. Daha sonra o, qeyd edir ki, mamaların çatışmaması üzündən ara mamalarla mübarizə aparmaq çətindir. Sanitar maarif işi həkim

[1] Xalq Komissarlar Sovetinin sədri Həmid Sultanovun 1925-ci ildə Naxçıvanın fəaliyyəti haqqındakı məruzəsi. Irəvan şəhəri, 1926-cı il, səh.25.

olmadığından zəif aparılır.[1] 1925-ci il oktyabr ayının axırında Naxçıvanda səhiyyə işinin vəziyyəti ilə şəxsən tanış olmaq və ona kömək etmək məqsədilə Azərbaycan SSR Xalq Səhiyyə komissarı Mövsüm Nəcməddin oğlu Qədirli Naxçıvana gəlir. O, vəziyyətlə tanış olduqdan sonra 1 noyabr 1925-ci ildə Naxçıvan MSSR həkimlərinin birinci qurultayı çağırılır. Qurultay Naxçıvan respublikasında səhiyyənin vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında qərar qəbul edir.[2] Qurultay səhiyyə işində olan nöqsanları açıb göstərir və onların gələcəkdə aradan qaldırılması yollarını göstərir. Qurultay respublikada səhiyyə işinin yaxşılaşmasında böyük rol oynamışdır.

M.N.Qədirli Naxçıvandan gedəndən beş gün sonra (5 noyabr) L.P.Solovyev adına Azərbaycan Qırmızı Aypara Cəmiyyətinin həkim sanitar dəstəsi Naxçıvana gəlir. Dəstənin tərkibində – onun müdiri həkim Krasnovski, feldşer Boltuşkina, tibb bacısı Buxarina – Makarova və sanitarka Ilina[3] olur. Dəstə Şərur kənd əhalisinə kömək göstərir. Bundan başqa Bakıdan 1925-ci ildə respublikanın tibb müəssisələri üçün çoxlu tibb avadanlığı, çarpayılar, laboratoriya ləvazimatı və s. göndərilir.

Müalicə profilaktika müəssisələrinin binaları sanitar–gigienik tələblərə cavab vermədiyinə görə 1925-ci ildə respublikanın hökuməti tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Belə ki, Naxçıvan şəhər xəstəxanasının binası yenidən tikilərək 150 çarpayılıq üçün hazırlanır, uşaq məsləhətxanasının binası əsaslı təmir edilir. Habelə Ordubadda şəhər ambulatoriyası və xəstəxana binaları, Şərurda Başnoraşen həkim məntəqəsi, Başnoraşen malyariya stansiyasının, Ordubad qəzasının kənd həkim məntəqəsinin yerləşdiyi binalar təmir olunur. Bundan başqa yeni tikintilərə və başqa müalicə idarələrinin _____

[1] Naxçıvan M.D.A. fond 17, siyahı 1-2, qovluq 3, səh.18.

[2] Naxçıvan MSSR Səhiyyə nazirliyinin arxivi, siyahı 2, fond 17, qovluq 9, səh.33.

[3] Naxçıvan MSSR Səhiyyə nazirliyinin arxivi, siyahı 2, fond 17, qovluq 9, səh.35.

təmirinə başlanılır.[1] Bu məqsədlə Azərbaycan SSR sosial sığorta tərəfindən 40000 manat pul buraxılır və bu işlərə xərclənir.

Elə bu ildə uşaqların səhhətinin mühafizəsi və sığorta olunanlara tibbi yardım göstərilməsi işinə də diqqət artırılır.

1925-ci ildə müalicə şəbəkəsi xeyli artır. Ölkə xəstəxanası 35 çarpayıdan 50 çarpayıyadək genişləndirilir. Naxçıvan şəhərində 30 çarpayılıq zöhrəvi dispanser, diş ambulatoriyası, sığorta olunanlar üçün həkim ambulatoriyası, uşaq evi nəzdində ambulatoriya, iki feldşer ambulatoriyası, uşaq məsləhətxanası (süd mətbəxi ilə) açılır. Bundan başqa daimi həkim komissiyası və kimyəvi – bakterioloji laboratoriya təşkil olunur.

Şərur qəzasında Başnoraşen həkim məntəqəsi və Yengicə kəndində aptek açılır.

Ordubad qəzasında Ordubad şəhər xəstəxanası (10 çarpayı) və şəhər ambulatoriyası genişləndirilir, bundan başqa 2 feldşer məntəqəsi (Culfada və Çənnəbdə) həkim məntəqəsinə çevrilir.[2]

Beləliklə 1925-ci ildə respublikada tibbi şəbəkə xeyli artır: - 60 çarpayılıq 2 xəstəxana, 30 çarpayılıq zöhrəvi dispanser, ambulatoriya, malyariya stansiyası, uşaq məsləhətxanası (süd mətbəxi ilə), kimyəvi – bakterioloji laboratoriya, Respublika Xalq Səhiyyə Komissarlığında sanitar – epidemiologiya ş.bəsi, Qırmızı Ayparanın həkim sanitar dəstəsi 4 həkim və 4 feldşer məntəqəsi, 4 aptek (onlardan biri xəstəxanada) fəaliyyət göstərirdi. Bu müəssisələrdə cəmi 22 həkim (onlardan biri diş həkimi), 36 orta tibb işçiləri və 10 əczaçı işləyirdi.[3] 1920-25-ci illərdə respublikada səhiyyə müəssisələrinin və kadrlarının sayı haqqında məlumat əyani olaraq 8-ci cədvəldə göstərilib.

1923-cü ildə xəstəxanaların sayının 3-dən 1-ə enməsi

[1] Naxçıvan MSSR. M.D.A. fond 17, siyahı 1-2, qovluq 155, səh.8.

[2] Naxçıvan MSSR. M.D.A.fond 17, siyahı 1-2, qovluq 155, səh.1-10.

[3] Yenə orada, siyahı 2, qovluq 10, səh.1.

Şərurda xəstəxana üçün münasib bina olmadığına görə xəstəxana əvəzinə malyariya stansiyası açılır, Naxçıvan

şəhərində olan uşaq xəstəxanası isə şəhər xəstəxanasına uşaq şöbəsi kimi birləşdirilir.

1924-cü ildə (avqust ayı) Naxçıvan şəhər malyariya komitəsi yaradılır ki, onun da nəzdində 2 «uçan» malyariya dəstəsi: biri Şərurda, o biri Naxçıvan qəzasında fəaliyyət göstərir.

Bundan başqa malyariya xəstəliyinə qarşı mübarizəni gücləndirmək məqsədilə Azərbaycan SSR-i Qırmızı Aypara Cəmiyyəti tərəfindən həkim-sanitar dəstəsi 1925-ci ildə (1 həkim, 1 feldşer və 1 sanitarka) kənd əhalisinə kömək etmək üçün Şərura göndərilir.

Sanitar müfəttişliyi (komitə) Səhiyyə Komissarlığının aparatında təşkil edilir.

1926-cı ilin fevral ayında Naxçıvan Mərkəzi Icrayyə Komitəsinin qərarına əsasən respublikanın Xalq Səhiyyə Komissarlığında aşağıdakı tərkibdə kollegiya yaradılır: I.A.Qədimov – Xalq Səhiyyə komissarı, Mudrıx V. – Xalq Səhiyyə komissarının müavini, Marqulis Y. – X.S.K-nın nəzdində sanitar epidemioloji şöbənin müdiri, M.Məhərrəmov – yerli komitənin sədri, R.Əhmədov – Naxçıvan M.I.K. nümayəndəsi (kəndlilər tərəfindən).[1]

1926-cı ilin şəbəkəsinə əlavə olaraq Şahbuz kəndində feldşer məntəqəsi açılır və Vənənd feldşer məntəqəsi həkim məntəqəsinə çevrilir.

Naxçıvan şəhər ambulatoriyası genişlənir və mərkəzi ambulatoriyaya çevrilir. Onun nəzdində: göz, cərrahi, terapevtik, dəri-zöhrəvi, ginekoloji, diş kabinələri, diş texniki laboratoriya təşkil edilir. Bu kabinələr mütəxəssis həkimlərlə təmin edilir.

Ölkə xəstəxanasında çarpayıların sayı 100-ə çatdırılır. Burada – terapevtik, cərrahi, mama – ginekoloji, göz və burun-qulaq-boğaz şöbələri yaradılır.

1927-ci ildə respublikada səhiyyə şəbəkəsinin vəziyyəti belə idi: - 115 çarpayılıq 2 xəstəxana, 30 çarpayılıq

[1] Naxçıvan MSSR – M.D.A. fond 17, siyahı 2, qovluq 10, səh.26.

8-ci cədvəl

1920-1925-ci illərdə Naxçıvan respublikasında səhiyyə müəssisələrinin və kadrlarının sayı haqqında məlumat

Müəssisələrin adı	İllər					
	1920	1921	1922	1923	1924	1925
Şəhər xəstəxanası	1 (20ç)	1	3	1	1	2 (60ç)
Ambulatoriya	1	1	2	3	4	8
Uşaq evi	1 (20ç)	-	-	-	-	-
Dəri-zöhrəvi dispanseri	-	-	-	-	-	1 (30ç)
Malyariya ambulatoriyası	-	-	-	1	1	1
Malyariya stansiyası	-	-	-	1	1	1
Uşaq xəstəxanası	-	1	1	-	-	-
Uşaq məsləhət-xanası	-	-	-	-	-	1
Həkim məntəqəsi	-	-	-	1	1	4
Feldşer məntəqəsi	-	2	3	4	7	4
Sanitar müvəkkilliyi (komitə (1925-ci il-dən sanit. epid şöbə)	1	1	1	1	1	1
Bakterioloji laboratoriya	-	-	-	-	-	1
Aptek	1	1	2	2	3	4
Həkimlər	1	4	6	4	8	21
Diş həkimi	-	-	-	1	2	1
Orta tibb işçiləri	3	4	8	11	17	36
Əczaçılar	2	4	2	3	3	10

zöhrəvi dispanser, 10 çarpayılıq malyariya stansiyası, 7 ambulatoriya (onlardan biri mərkəzi ambulatoriya bütün ixtisaslı kabinələrlə), uşaq məsləhətxanası, bakterioloji laboratoriya, 4 həkim məntəqəsi, 2 səhiyyə məntəqəsi, 4

feldşer məntəqəsi, 4 aptek (onlardan biri xəstəxana nəzdində) əhaliyə tibbi xidmət göstərirdi.[1]

Bu müəssisələrdə 22 həkim, 2 diş həkimi, 1 diş texniki, 18 feldşer, 15 tibb bacısı, 8 mama, 9 əczaçı və 87 kiçik və texniki personal işləyirdi.

Naxçıvan MSSR Xalq Səhiyyə komissarının müavini Mudrıx Vladimirin məruzəsindən görünür ki, 01.10.1924-cü ildən 01.10.1925-ci ilə qədər olan müddətdə respublikada əhaliyə göstərilən müalicə profilaktika köməyinin həcmi artmışdır.

9-cu cədvəl

Naxçıvan MSSR-də əhalinin tibbi köməyə görə etdiyi müraciətlərin və gəlişlərin sayı

	Əhalinin sayı	Müraciətlə-rin sayı	Gəlişlərin sayı
Naxçıvan qəzası şəhərlə birlikdə	49000	23543	53766
Şərur qəzası	29500	9765	64103[x)]
Ordubad qəzası	21500	15953	34950
Respublika üzrə cəmi:	100000	49261	152819

[x)] kimyəvi-profilaktika da daxil olmaqla (10653)

Cədvəldən göründüyü kimi orta hesabla ildə əhalinin 1000 nəfərinə 492,6 müraciət və 1528,2 gəliş düşür.

1925-ci ildə müalicə-profilaktika müəssisələrində əhalinin 1000 nəfərinə düşən müraciətlərin sayı 1923-cü ilə nisbətən 3,5 dəfə artmışdır.

1926-cı ilin başlanğıcında respublikanın müalicə-profilaktika şəbəkəsi 3 rayon səhiyyə şöbəsinə tabe idi – Naxçıvan (Culfa da daxil olmaqla), Şərur və Ordubad. Bunlar da öz növbəsində Naxçıvan MSSR-i Səhiyyə Komissarlığına tabe idi. Səhiyyə şöbə müdirləri: -
Nərimanov M. (Şərur), Abramov (Ordubad) və

[1] Naxçıvan MSSR – M.D.A. fond 27, siyahı 2, qovluq 28, səh.124 və yenə orada qovluq 27, səh.100

Petrovskaya (Naxçıvan).[1]

01.01.1931-ci ildə xəstəxanaların və dispanserlərin sayı 4, onlarda çarpayıların sayı 180 olmuşdur. Tibb işçilərinin sayı: - həkimlər-35 nəfər (onlardan 3-ü diş həkimi), orta tibb işçiləri – 56 nəfər və əczaçılar 5 nəfər olmuşdur.[2]

1931-ci ilin aprel ayında Naxçıvan MSSR-nin ərazisində təbii fəlakət – zəlzələ baş verir. Nəticədə xalq təsərrüfatına böyük ziyan dəyir. Tibb müəssisələri yerləşən binaların çoxu dağılır. Zəlzələ vaxtı xeyli adam ölür və yaralanır.

Naxçıvan MSSR-i hökuməti Naxçıvan M.I.K.-də fövqəladə bərpa komissiyası təşkil edir ki, Səhiyyə Xalq komissarı da bura daxil olur. Bu vaxt bütün güc zəlzələdən zərər çəkənlərə tibbi xidmət göstərməyə səfərbər edilir. Bu işdə respublika Qırmızı Aypara Cəmiyyəti böyük kömək göstərir. Zərər çəkənlərə kömək göstərmək üçün tibb dəstələri, habelə yemək məntəqələri, uşaq yasliləri və s. təşkil olunur.

Həmin il zəlzələ fondu hesabına xəstəxanaların, yaslilərin və s. tikilməsinə başlanılır.

1932-ci ildə isə Şərur rayonunda xəstəxananın tikintisinə başlanılır.

* * *

Ana və uşaqların sağlamlığı qayğısına qalmaq başlıca vəzifələrdən biri olub.

Naxçıvanda Sovet hökumətinin yarandığı ilk aylarından Inqilab Komitəsi Naxçıvanın tarixində ilk dəfə ana və uşaqların sağlamlığının mühafizəsi üçün tibb ocaqları yaratdı. Belə ki, 1920-ci ildə Naxçıvan şəhərində uşaq evi açılır. Bir ildən sonra o, uşaq xəstəxanasına və

[1] Naxçıvan MSSR M.D.A. fond 17, siyahı 2, qovluq 10, səh.26.
[2] Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığının arxivi, fond 17, siyahı 2, qovluq 44, səh.17.

sonralar şəhər xəstəxanasının şöbəsinə çevrilir.

Ilbə-il tibb müəssisələrinin sayı artırdı, onların yeni aparatlarla təchizi yaxşılaşırdı. Tibb kadrlarının sayı da get-gedə artırdı, stasionar xidmətin xeyli artması da nəzərə çarpırdı.

Əgər 1924-25-ci illərdə respublika xəstəxanasına 642 nəfər daxil olmuşdursa, 1928-29-cu illərdə 2782 xəstə daxil olmuşdur.[1]

O illərdə səhiyyənin büdcəsi də hər il artırdı. Əgər 1924-25-ci illərdə səhiyyə xərclərinə 77883 manat buraxılmışdırsa bu rəqəm 1926-27-ci illərdə 278072 manat və ya 1924-25-ci illərə nisbətən 3,5 dəfə artıq olmuşdur.[2]

1930-cu ildə respublikada tibb müəssisələrinin tikintisi yeni inkişaf tapdı. Bunu Naxçıvan Xalq Komissarlar Sovetinin 8 may 1930-cu il qərarından görmək olar. Qərarda göstərilir: Naxçıvan Xalq Səhiyyə naziri Ordubad rayonunun Bist kəndində 4 çarpayılıq həkim məntəqəsinin, Naxçıvan respublikasının başqa dağ ətrafı hissəsində 6 çarpayılıq həkim məntəqəsinin, Naxçıvan respublikasının dağlıq hissəsində yerli əhəmiyyət kəsb edən 80 çarpayılıq istirahət evinin tikilməsi üçün Azərbaycan SSR Xalq Səhiyyə naziri ilə müqavilə bağlasın.[3]

1930-cu ildə Naxçıvan mərkəzi şəhər ambulatoriyası genişləndirilərək şəhər poliklinikasına,uşaq məsləhətxanasının nəzdində olan qadın kabinəsi – qadın məsləhətxanasına çevrilir.

Elə bu il sanitar maarif evi təşkil edilir, səhiyyə məntəqələrinin sayı 6-ya apteklərin sayı 6-ya (onlardan 3-ü müalicə müəssisəsində) çatdırılır.

1925-ci ilin əvvəlində Naxçıvan şəhərində uşaq məsləhətxanası (süd mətbəxi ilə birlikdə) təşkil edilir. 1929-cu ildə Ordubad şəhərində uşaq məsləhətxanası (süd

[1] Naxçıvan MSSR M.D.A. fond 17, siyahı 1-2, qovluq 155, səh.5.
[2] H.Sultanov «Naxçıvan ölkəsi və onun iqtisadiyyatı». Bakı, 1927, səh.54.
[3] Naxçıvan MSSR M.D.A. fond 17, siyahı 1-2, qovluq 74, səh.17-19

mətbəxi ilə birlikdə) açılır, Naxçıvan şəhər uşaq məsləhətxanasında isə qadın kabinəsi açılır ki, o 1930-cu ildə qadın məsləhətxanasına çevrilir.

* * *

Naxçıvan Inqilab Komitəsi ölkədə Sovet hakimiyyətinin qurulmasının ilk günlərindən yaşayış yerlərinin sanitar vəziyyətinə və epidemiya əleyhinə aid tədbirlərin qaydaya salınmasına böyük diqqət verirdi. Artıq özünün ikinci ayında Naxçıvan Inqilab Komitəsi «Naxçıvan şəhərində sanitar vəziyyətin qaydaya salınması haqqında» ilk qərarını verir. Qərarda göstərilir ki, qaçqınlar geri qayıdandan sonra Fövqəladə Komitə tərəfindən qaçqınlardan ibarət xüsusi fəhlə dəstələri yaradılsın. Səhiyyə şöbəsinin müdiri və milis rəisinin nəzarəti altında şəhərdə təmizlik işi aparılsın və şəhərin tələb olunan yerlərində ayaqyolları qazılsın.[1]

Naxçıvan Inqilab Komitəsinin növbəti qərarı 1921-ci ilin iyul ayında «kəskin yoluxucu xəstəliyin (vəba) baş verməməsi üçün xəbərdarlıq edici tədbirlərin həyata keçirilməsi haqqında» imzalanmışdı. Bu qərar xəstəliyin qonşu ölkələrdən gətirilməsinin qarşısını almaqla səhiyyə orqanlarına böyük kömək etdi. Qərarda həmçinin göstərilirdi ki, Naxçıvan ölkəsinə xəstəliyin gətirilməsinin qarşısını almaq üçün aşağıdakı tədbirlər görülsün: vəbaya şübhəli olan bütün xəstələr dəmir yolu xəttində stansiyada yoxlanılsın; vəbalı xəstələr izolə (təcrid) edilsin, xlorlu əhəng hazırlansın, stansiyada daimi qaynanmış su olsun, kal meyvələrin qəbulu qadağan edilsin, qaçqınların vəziyyəti yaxşılaşdırılsın.

Naxçıvan MSSR-i Xalq Səhiyyə Komissarlığının 1926-cı ilə aid hesabatında göstərilir ki, respublikanın kəndlərində həyat tərzi və məişəti sanki bilə-bilə sanitar – gigiyenik tələbata cavab verməmək üçün yaranıb.

[1] Naxçıvan MSSR M.K.A. fond 17, siyahı 3, qovluq 1, səh.8.

Hesabatda daha sonra göstərilir: bizim kəndlər ağılasığmaz dərəcədə natəmizdir ki, elə bil yeganə yolu budur ki, onları söküb yenidən tikəsən.[1]

1920-ci ildə Səhiyyə şöbəsinin nəzdində sanitar həkim müfəttişi vəzifəsi təsdiq edilir.

Bir müddət bu vəzifəni həkim olmadığına görə feldşer (Məhərrəmov M.T.) əvəz edir. Bir ildən sonra o vəzifənin yerinə sanitar müfəttişlik (komitə), 1922-ci ilin oktyabr ayından isə Səhiyyə şöbəsində həkimlərdən ibarət sanitar üçlük (Sultanov M.P., Dmitriyev I.I. və Boqdanov N.) təşkil edilir. Üçlüyə Naxçıvan şəhərində sanitar epidemioloji vəziyyətə nəzarət etmək tapşırılır. Onlara cərimə etmək ixtiyarı verilir.

1925-ci ildə Xalq Səhiyyə Komissarlığı nəzdində sanitar epidemioloji şöbə yaradılır. Burada iki sanitar müfəttiş – həkim köməkçi ilə işləyir. Həkimlərdən biri Naxçıvan qəzasında, o biri Ordubad qəzasında sanitar işlərlə məşğul olur.

1926-cı ildə Culfada karantin məntəqəsi yenidən bərpa edilir. Artıq 1927-ci ildən respublikanın bütün rayonlarında sanitar – epidemioloji şöbələrin özünün sanitar müfəttişləri (həkim və onun köməkçisi) olur.

Naxçıvan MSSR-də Sovet hakimiyyəti qurulan zaman dəqiq statistik məlumatlar olmadığından yoluxucu xəstəliklər haqqında fikir söyləmək çətin olur. Lakin bir sıra materiallardan aydın olur ki, o zamanlar əhali bir çox xəstəliklə – malyariya, vərəm, traxoma, dəri-zöhrəvi, dizenteriya, yatalaq və s. müraciət edirdi.

Naxçıvan Xalq Səhiyyə Komissarlığının əmr kitabında qeyd olunub ki, 1923-cü ilin mart ayında Naxçıvan qəzasının Əbrəqunus kəndində təbii çiçək xəstəliyi baş verib. Bununla əlaqədar olaraq Səhiyyə Komissarlığı öz gücünü xəstəliklə mübarizəyə səfərbər edir.

Malyariya Naxçıvanın əsas epidemik xəstəliyi olmuşdur. Respublikanın Xalq Səhiyyə Komissarlığı yarandığı gündən malyariya xəstəliyi ilə ciddi mübarizə

[1] Anserov N.I. Birinci Azərbaycan tibb cəmiyyətinin əsərləri, Bakı, 1936-cı il, səh.456.

aparmışdır. Onunla mübarizə planlı surətdə dövlət miqyasında aparılmağa başlanmışdır. Malyariya ilə mübarizəyə bütün

müalicə – profilaktika şəbəkəsi, xüsusi malyariya stansiyaları, ambulatoriyaları, məntəqələri, habelə təsərrüfat təşkilatları və əhalinin fəalları cəlb edilmişdir.

1923-cü ildə Naxçıvan ölkəsində ilk dəfə malyariya əleyhinə müəssisələr təşkil edilir: - Naxçıvan şəhərində malyariya ambulatoriyası (o, 1929-cu ildə malyariya stansiyasına çevrilir) və Başnoraşen kəndində malyariya stansiyası açılır.

Bütün maraqlı idarələri malyariya ilə mübarizəyə cəlb etmək üçün 1924-cü ildə Naxçıvan Xalq Səhiyyə Komissarlığının tabeliyində malyariya komitəsi, onun nəzdində iki çevik (uçan) malyariya dəstəsi (biri Başnoraşen kəndində, o biri Naxçıvan şəhərində) təşkil edilir. Komitə malyariya əleyhinə tədbirlərin həyata keçirilməsində əhalinin müayinə olunmasında böyük işlər həyata keçirir.

Azərbaycan SSR-i Xalq Səhiyyə Komissarlığı rayonlarda malyariya xəstəliyinin yayılmasını öyrənmək üçün Naxçıvan MSSR-i Xalq Səhiyyə Komissarlığına daima əməli köməklik göstərirdi. Belə ki, 1924-cü ildən 1926-cı ilə kimi Azərbaycandan mütəmadi olaraq ekspedisiya dəstələri göndərilib. Bu dəstələr Şərur rayonunun 43 kəndində 21621 nəfər əhalinin 16536 nəfərini və ya 3/4-nü yoxlamadan keçirirlər.

Sonralar malyariya xəstəliyinə qarşı mübarizə daha da gücləndirilir. Professor Ş.Həsənovun məlumatına görə 1925-1928-ci illərdə xəstələrin sayı və onların tibb müəssisələrinə müraciəti xeyli artır. Aşağıda əhalinin malyariya stansiyasına və ambulatoriyasına müraciəti göstərilib.[1]

[1] Ş.Həsənov. Azərbaycan SSR-də malyariya (statistik hesabat). Azərbaycan tibb jurnalı, 1930-cu il, №1-3.

10-cu cədvəl

Naxçıvan MSSR-i əhalisinin malyariya müəssisələrinə müraciət etməsi haqqında məlumat

Müəssisənin adı	1925		1926		1927		1928	
	Birincili müraciət	Cəmi əhali	Birincili müraciət	Cəmi əhali	Birincili müraciət	Cəmi əhali	Birincili müraciət	Cəmi əhali
Başnoraşen malyariya stansiyası	4856	25581	5542	31846	5758	25653	5055	20581
Naxçıvan malyariya ambulato-riyası	2552	14117	2348	22495	2235	22154	2850	18800
Hər iki mal-yariya mü-əssisəsində cəmi	7048	39698	7890	54341	7993	47807	7905	39381

Göründüyü kimi cədvəldə yalnız malyariya müəssisələrinə müraciət edən xəstələrin sayı göstərilib.

Professor Ş.Həsənov həmin statistik xülasədə göstərir ki, 1928-ci ildə Naxçıvan respublikasının bütün tibb müəssisələrində 16996 birincili malyariyalı xəstə qeydə alınıb (o cümlədən şəhərlərdə 4394, kəndlərdə 12602).

Hesabat materialları göstərir ki, Naxçıvan respublikasında 1926-cı ildə 23490 malyariyalı xəstə, 1927-ci ildə 18259 xəstə qeydə alınmışdır.

Gəlişlərin sayı hər bir birincili qeyd olunan malyariya hadisəsi belə olmuşdur: Naxçıvan malyariya stansiyası üzrə 1925-ci ildə – 5,2; 1926-cı ildə – 5,7; 1927-ci ildə – 4,4; 1928-ci ildə – 4,0; Başnoraşen malyariya stansiyasında həmin illərdə – 5,5, 9,5 və 9,5 və 6,5 (Azərbaycan SSR-də eyni illərdə – 5-3, 4,7, 5,2 və 4,6). 1928-ci ildə əhalinin 1000 nəfərinə 159, 1929-cu ildə isə 169 malyariyalı xəstə düşürdü. (Azərbaycan SSR-də eyni illərdə 122,4 və 135,2 xəstə düşürdü).

Naxçıvan MSSR-də malyariya xəstəliyinin yayılma dərəcəsini öyrənmək üçün 1929-cu il iyun ayında buraya dosent I.Axundovun rəhbərliyi ilə ekspedisiya gəlir və 4 ay müddətində Şərur rayonunda müayinə aparır. Ekspedisiya 44 kənddə 4875 nəfəri malyariyaya qarşı müayinədən keçirib. Nəticədə aydın olub ki, Şərur rayonunda dalaq indeksi (dalağın böyüməsi) 27,5%, parazitar indeks (parazit gəzdirən) – 6,5% olmuşdur.

Parazitlərin növünə görə bölünməsi göstərir ki, malyariyanın forması belə olmuşdur: kvartana (dörd günlük)-49,7%, tropik malyariya – 45,0%, üçgünlük malyariya – 2,2% və qarışıq malyariya – 3,1%.[1]

Naxçıvan Xalq Səhiyyə Komissarlığı yarandığı gündən vərəmə qarşı mübarizə aparmağı özünün əsas məsələsi hesab etmişdir. Çox təəssüf ki, Sovet hakimiyyətinin ilk illərində vərəmin yayılması haqqında əsaslı rəqəmli məlumat yoxdur. Lakin bəzi materiallar göstərir ki, o illərdə Naxçıvanda vərəm geniş yayılmışdır. Məsələn, həkim Y.Marqulis «Gigiyena və epidemiologiya» jurnalının 1926-cı il 8-ci №-də yazmışdır ki: «Vərəm Naxçıvanda özünə yuva salmışdır).

Naxçıvan MSSR-i Xalq Səhiyyə Komissarlığının verdiyi məlumata əsasən 1928-ci ildə respublikada 474 vərəmli xəstə (0,43%) olmuşdur. Sovetləşmənin ilk illərində xüsusi tibb müəssisəsi olmadığına görə vərəmə qarşı mübarizə tədbirləri respublikanın ümumi tibb şəbəkəsi tərəfindən aparılırdı.

Əhalinin həyat şəraitinin aşağı səviyyədə olması, əlverişsiz sanitar-gigiyenik vəziyyət sovetləşmənin ilk illərində dəri-zöhrəvi xəstəliklərinin yayılmasına şərait yaratmışdır. Keçəllik, qotur və başqa dəri xəstəlikləri daha çox yayılmışdır. Ona görə də Səhiyyə Komissarlığı bu sahəyə də xüsusi diqqət yetirmişdir.

Naxçıvan Xalq Səhiyyə Komissarının müavini V.Mudrıxın məruzəsindən görünür ki, 1924-25-ci illərdə

[1] I.Axundov və M.Şahsuvarlı. Şərurda malyariya (Naxçıvan MSSR). Azərbaycan Tropik institutunun əsərləri, Bakı, 1936-cı il, səh.19.

əhali arasında dəri və zöhrəvi xəstəliklərin yayılması 20%-ə çatmışdır. Xəstəliyin əksərini sifilis xəstələri təşkil edirdi.

Şəhər əhalisi arasında 265 belə xəstənin qeydə alınması haqda qeydiyyat var.

Zöhrəvi xəstəliklərlə mübarizə aparmaq üçün 1925-ci ildə Naxçıvan şəhərində zöhrəvi dispanser, bir az sonra isə favazori açılır. Daha sonra, 1926-cı ildə, Naxçıvan mərkəzi laboratoriya nəzdində dəri – zöhrəvi kabinə açılır.

Naxçıvanda Sovet hakimiyyətinin ilk illərində traxoma xəstəliyi əhali üçün böyük bəla idi. Traxomanın fəsadlaşması üzündən yüzlərlə əlil hadisəsi olurdu. Xəstəlik əhali arasında Arazətrafı düzənlikdə daha çox yayılmışdı.

Həkim Y.Marqulis öz məqaləsində göstərir ki, (1926) traxoma xəstəliyi haqqında əhalinin sanitar-gigiyenaya dair elementar təsəvvürü olmadığına görə tibb işçiləri qarşısında, traxoma və onun profilaktikası sahəsində ciddi iş aparmaq vəzifəsi durur.

Traxoma xəstəliyi məktəblilər arasında da geniş yayılmışdır. 1925-ci ildə Naxçıvanda şəhər məktəblərində traxomaya tutulanların faizi – qızlar arasında 47%, oğlanlar arasında 35% olmuşdur.

1926-cı ildə ölkə xəstəxanasında göz şöbəsi, Naxçıvan mərkəzi ambulatoriyada isə göz kabinəsi, bir ildən sonra Ordubadda da göz kabinəsi təşkil edilir. 1930-cu ildə ölkə xəstəxanasında göz çarpayılarının sayı 30-a çatdırılır.

Respublikada yuxarıda göstərilən xəstəliklərdən başqa dizenteriya, qurd invaziyası, qızılca, təbii çiçək və digər yoluxucu xəstəliklər də xeyli yayılmışdır.

1925-ci ilin payız ayında Naxçıvanın dağlıq hissəsində qızılca xəstəliyi daha da şiddətlənmişdi. Həmin xəstəlikdən baş verən ölüm hadisəsi isə 15-16%-ə çatmışdır.

Naxçıvan Səhiyyə Komissarlığının 1928-ci ilə aid hesabatında epidemik xəstəliklərin gedişatı haqqında belə məlumat verilir: skarlatina – 123 hadisə, qızılca – 369, dizenteriya – 422, qulaq altı vəzin xəstəliyi – 460, göy öskürək – 1402, qripp – 1446.

Başqa xəstəliklər arasında birinci yeri qurd xəstəliyi tutur. Müayinə vaxtı bu xəstəlik böyük faiz 42-dən 63,2%-ə qədər təşkil etmişdir.

Naxçıvanda Sovet hakimiyyətinin bərqərar olmasının ilk illərində əhali arasında sanitar maarif işinin aparılmasına xüsusi diqqət yetirilir. Əsas məqsəd əhalinin sağlamlığının qorunması və sanitar əmin-amanlığa nail olmaqdan ibarət olub.

Sanitar maarifi əhalinin sanitar savadsızlığının ləğv edilməsində əsaslı rol oynamışdır. Epidemik xəstəliklərlə mübarizə etmək yollarını, gigyeniya elminin əhaliyə çatdırılmasını təmin etmişdir.

Sanitar maarifinin ona xas olan forması - o vaxtlar hamının başa düşəcəyi dildə oxunan mühazirələr, söhbətlər, mitinqlərdə çıxışlar etmək və sairədən ibarət idi.

Epidemiya əleyhinə tədbirlərin təbliğ edilməsi ilə bərabər ana və uşaqların mühafizəsi, yaşayış yerlərinin əmin-amanlığı, vərəmlə, dəri-zöhrəvi və başqa xəstəliklərlə mübarizə kimi vacib məsələlər işıqlandırılırdı.

1930-cu ildə Naxçıvan şəhərində sanitar maarifi evi təşkil edilir. Tezliklə orada sərgi düzəldilir ki, əhali oraya həvəslə gəlir (7-ci şəkil).

Əhalinin çoxsaylı fəalları xalqın sağlamlığının qorunmasında tibb işçilərinin fəal köməkçisi olmuşlar. Buna misal, Qırmızı Aypara Cəmiyyətinin fəallarını, kolxoz və müəssisələrdən olan ictimai sanitar müvəkkillərini, evlər idarəsində və s. yerlərdə olan səhiyyə komissiyalarını göstərmək olar. Bundan başqa səhiyyə xətti üzrə əhalinin ictimai özfəaliyyətini təşkil etmək sahəsində xeyli iş görülmüşdür.

1924-25-ci illərdə dairələrdə sanitar şuralar, kəndlərdə isə kənd sanitar komissiyaları təşkil edilir, onların tərkibinə həkimlər və ictimai təşkilatların nümayəndələri daxil edilir.[1]

Naxçıvan MSSR-də Qırmızı Aypara Cəmiyyətinin təşkil edilməsi respublikanın səhiyyə orqanlarına sanitar müdafiəsinin və əhalinin sanitar mədəniyyətinin yüksəlməsinə böyük köməklik göstərmiş oldu.

[1] H.Sultanov «Naxçıvan hökumətinin 1925-ci ilə aid fəaliyyəti haqqında məruzə», Irəvan, 1926-cı il, səh.32.

7-ci şəkil
Yenicə təşkil edilmiş sərgiyə baxış

1928-ci ildə 4 qəza, 7 rayon komitəsi və 23 özək var idi.

Naxçıvan qadınlar klubu nəzdində 1928-ci il may ayının 16-da ilk tibbi yardım dərnəyi təşkil edilir. Dərnəkdə məşğul olan qadınların sayı 22 olur. Dərnəyə həkim E.Q.Mahmudbəyov rəhbərlik edir. Burada tibb bacıları və sanitarkalar hazırlanır.[1]

Əhalinin ictimai-sanitar özfəaliyyətinin təşkil edilməsində sanitar maarif evinin böyük köməyi olmuşdur.

[1] Naxçıvan MSSR, MDA fond 17, siyahı 1-2, qovluq 44, səh.19.

N Ə T I C Ə

1. Naxçıvan MSSR-də Sovet hakimiyyəti qurulandan sonra ilk günlərdən başlayaraq əhaliyə tibbi kömək göstərmək Naxçıvan Inqilab Komitəsinin əsas vəzifəsindən biri olmuşdur.

2. Səhiyyə şöbəsi vətəndaş müharibəsinin ağır illərində bütün gücünü səhiyyənin əsas prinsiplərinin həyata keçirilməsinə sərf edir.

3. Ölkənin iqtisadiyyatı bərpa olundu və inkişaf etdi, xalq təsərrüfatının vəziyyəti yaxşılaşdı, sosialist tikintisi genişləndi. Respublikanın mədəni səviyyəsi artdı, əhalinin güzaranı yaxşılaşdı.

4. Tibb müəssisələri bərpa edildi, yeniləri təşkil edildi, respublikanın fəhlə və kəndli əhalisinə pulsuz tibbi xidmət göstərilməyə başlandı. Daha sonra tibb müəssisələrinin şəbəkəsi planlı surətdə inkişaf etdi. Ana və uşaq müəssisələri, sanitar epidemiya əleyhinə xidməti təşkil edildi.

5. Naxçıvan MSSR hökuməti respublikada səhiyyənin vəziyyətini yaxşılaşdırmaq haqqında dəfələrlə qərarlar qəbul etdi.

6. Ictimaiyyətin səhiyyə xətti üzrə özfəaliyyəti təşkil edildi. Ictimaiyyətin fəalları və tibb işçiləri tərəfindən aparılan sanitar maarif işi genişləndirildi.

2. Xalq təsərrüfatının sosialist quruluşunun başa çatması və sosialist cəmiyyətinin möhkəmlənməsi dövründə Naxçıvan MSSR-də səhiyyə (1933-1940-cı illər)

Sosialist quruluşunun iri addımlarla inkişafı, ölkənin sürətlə sənayeləşdirilməsi, kənd təsərrüfatının sosialist rekonstruksiyası, fəhlə sinfinin, şəhər və kənd zəhmətkeşlərinin mədəni-məişət şəraitinin yaxşılaşması – bütün bunlar Naxçıvan MSSR-də əhalinin sağlamlığının yaxşılaşmasına və səhiyyənin gələcək inkişafına səbəb oldu.

Birinci beşilliyin axırında respublikada səhiyyə böyük nailiyyətlər əldə etdi. Çarpayı fondu, xəstəxanaların, dispanserlərin, həkim səhiyyə məntəqələrinin, feldşer tibb məntəqələrinin sayı xeyli artdı. Tibbi kadrların sayı çoxaldı. Əhalinin xəstələnmə halı get-gedə azaldı.

Ikinci beşillik respublikada əhalinin sağlamlığı uğrunda mübarizə etmək üçün daha geniş şərait yaratdı.

1933-34-cü illərdə Naxçıvan şəhərində traxoma dispanseri, Ordubad şəhərində malyariya dispanseri, Culfa şəhərində 15 çarpayılıq xəstəxana ambulatoriya ilə açıldı. Respublikada yenə də aptek, həkim, feldşer, traxoma və malyariya məntəqələri təşkil edildi.

Respublikada sanitar maarif evinin nəzdində ilk dəfə olaraq tibbi kitabxana fəaliyyətə başladı, Naxçıvan və Noraşen (Şərur) malyariya stansiyaları Tropik stansiyaya çevrildi.

1934-cü ildə respublikada çarpayıların sayı 1913-cü ilə nisbətən 10 dəfə artdı, həkim və orta tibb işçilərinin sayı çoxaldı. Əgər 1913-cü ildə respublika ərazisində cəmi 5 həkim, 14 orta tibb işçisi var idisə, 1936-cı ildə həkimlərin sayı 32, orta tibb işçilərin sayı 110 olmuşdur, başqa sözlə həkimlərin sayı 6 dəfə, orta tibb işçilərinin sayı 8,5 dəfə artmış oldu.

Respublikada təcili yardım poliklinika və ambulatoriyalar tərəfindən göstərilirdi. Lakin bu əhalinin bu xidmətə olan tələbatını ödəmirdi. Ona görə 1936-cı ildə Naxçıvan şəhər poliklinikasının nəzdində təcili tibbi yardım, bir qədər sonra, 1937-ci ilin may ayında o sərbəst təcili yardım stansiyasına çevrilir.

Naxçıvan Respublikasının zəhmətkeşlərini müainədən keçirmək məqsədilə 1937-ci ildə Naxçıvan, Ordubad şəhərlərinin poliklinikalarında və Noraşen (Şərur) ambulatoriyasında həkim komissiyası təşkil edilir.

1937-ci il 18 sentyabrda çağırılmış X Fövqəladə Ümumi Naxçıvan Sovetlər qurultayında Naxçıvan MSSR-in yeni Konstitusiyası qəbul edilir. Konstitusiyanın (əsas qanunu) 86-cı maddəsində yazılıb: «Naxçıvan MSSR-i vətəndaşları istirahət etməyə ixtiyarlıdırlar. Bu iş gününün 7 saata qədər qısaldılmasını təmin edir, ildə bir dəfə fəhlə və qulluqçulara, əmək haqqını saxlamaq şərtilə, məzuniyyət verilir və onlar sanatoriya şəbəkələrindən, istirahət evlərinin xidmətindən istifadə etmək ixtiyarına malikdirlər».

87-ci maddədə yazılıb: «Naxçıvan MSSR-i vətəndaşları qocaldıqda, habelə xəstələndikdə və əmək qabiliyyətini itirdikdə maddi təminata ixtiyarlıdır».[1]

Sovet hökuməti Naxçıvan MSSR-də səhiyyənin inkişafına böyük diqqət verirdi, bunun nəticəsində tibb müəssisələrinin şəbəkəsi ildən-ilə genişlənirdi. 1935-36-cı illərdə Naxçıvan şəhərində, Noraşen (Şərur) və Şahbuz rayonlarında uşaq yasliləri və doğum evlərinin tikintisinə başlanılır.

Sonralar respublikanın xalq təsərrüfatının planına əsasən tibb obyektlərinin tikintisi genişlənir. Belə ki, 1939-cu ildə Naxçıvan şəhərində respublika xəstəxanası, mama-feldşer məktəbi, süd mətbəxi; Noraşen, Şahbuz, Əbrəqunus rayon mərkəzlərində xəstəxana, Naxçıvan, Culfa, Ordubad şəhərlərində və Noraşen, Əbrəqus kənd sovetlərində uşaq yasliləri tikilir.[2]

1939-cu ilin may ayında Naxçıvan MSSR-i XKS və Azərbaycan KP(b) Naxçıvan Vilayət Partiya Komitəsi «Naxçıvan MSSR-i xalq təsərrüfatının inkişafı üçün beşillik planın təsdiq edilməsi haqqında» qərar çıxardılar. Bu

[1] Naxçıvan MSSR-i Baş sovetinin I sessiyası, 24-27 iyul 1938-ci il stenoqrafik hesabat. Naxçıvan 1939-cu il, səh.54.

[2] Naxçıvan MSSR-i M.D.A. fond 17, siyahı 1-2, qovluq 123, səh.32, 68.

qərarda respublika səhiyyəsinin inkişafı üçün 4369,9 min manat həcmində vəsait təsdiq edilir.[1]

Naxçıvan MSSR-i Xalq Komissarlar Sovetinin 28 avqust 1938-ci il qərarını yerinə yetirərək Səhiyyə komissarı Həmid Əsədov səylə çalışır və obyektlərin qərarda göstərilən vaxtda başa çatmasına nail olur.

Yalnız 1939-cu ildə respublikada tibb obyektlərinin tikintisi üçün 1525,0 manat nəzərdə tutulmuşdur ki, bu da 1939-cu ilə Aid səhiyyə büdcəçinin 20,7%-ni təşkil etmişdi. Lakin obyektlərin tikintisi ləng gedirdi, tikinti materiallarının və fəhlə qüvvəsinin çatışmaması səbəbindən buraxılış obyektləri təyin olunan vaxtda təhvil verilmirdi.

Hər il səhiyyə üçün ayrılan vəsait artırdı. Əgər 1926-27-ci illərdə Naxçıvan MSSR-i səhiyyəsinə 278,2 min manat, 1932-ci ildə 652,0 min manat, 1935-ci ildə 2068 min manat ayrılmışdırsa 1940-cı ildə bu məbləğ 7773,4 min manat olmuşdur. Beləliklə səhiyyənin büdcəsi 1926-27-ci illərə nisbətən 28 dəfə, 1932-ci ilə nisbətən 12 dəfə, 1935-ci ilə nisbətən 3,8 dəfə çox olmuşdur.

***

Respublikada sistematik olaraq uşaq və qadın məsləhətxanaları, doğum evləri və yaslilərin sayı artırdı. 1935-ci ildə respublikada 2 uşaq və qadın məsləhətxanası, 4 daimi (100 yerlik) və 46 fəsli (1410 yerlik) yaslilər var idi. 1936-cı ilin yanvar ayında Bakıdan təkər üstündə kolxoz yasliləri alınır.

1937-ci ildə Naxçıvan şəhərində yenidən 25 çarpayıdan ibarət uşaq xəstəxanası açılır, Başnoraşen kəndində isə yeni tikilmiş binada 4 çarpayılıq doğum evi təşkil edilir.

Culfa və Ordubad xəstəxanalarının doğum şöbələri açılır. 1938-ci ildə Culfa şəhərində uşaq xəstəxanası, 1940-cı ildə isə Naxçıvan şəhərində 15 çarpayılıq südəmər uşaq evi təşkil edilir.

[1] Naxçıvan MSSR-i M.D.A. fond 17, siyahı 1-2, qovluq 123, səh.32, 68.

Uşaq müəssisələrinin rəhbərlərinin hazırlanması uşaq sağlamlıq şəbəkəsinin genişlənməsinə imkan verdi.

1935-ci ildə Naxçıvan, Noraşen (Şərur) və Ordubad rayon mərkəzində uşaq meydançaları təşkil edildi.

Sovet hökuməti yorulmadan uşaqların sağlamlığının vəziyyətinin yaxşılaşmasına diqqət verirdi. 1940-cı ilin fevral ayında Naxçıvan MSSR-i X.K.S «Naxçıvan MSSR-də daimi və mövsümü yasli şəbəkəsinin genişləndirilməsi haqqında» qərar qəbul etdi.

SSRI Xalq Komissarlar Soveti (1936) abortların qadağan edilməsi ilə əlaqədar olaraq qadınların maddi və məişət şəraitinin yaxşılaşdırılması haqqında bəzi tədbirlər nəzərdə tutmuşdu. Hamilə qadınlara birdəfəlik müavinət və süd verən analara hər ay müavinətin həcmi artdı. 6 uşağı olan anaya, bundan sonra doğulan uşaqlarına, birdəfəlik müavinət verilirdi.

10 uşaq anasına, hər yeni doğulan uşağa görə birdəfəlik 5000 manat və 4 il müddətinə 3000 manat verilirdi.

1937-ci ilin yanvar ayında SSRI hökumətinin qərarına uyğun olaraq Azərbaycan SSR-i XKS «Tibbi göstərişə görə abortlara icazə verilməsi qaydaları haqqında» qərar qəbul etdi. Abortların qadağan edilməsi özünü doğrultmadı. Həkimlər hamiləliyə qarşı dərmanların qəbul edilməsi qaydalarını qadınlara daha öyrətmədilər.

1940-cı ildə respublikada aşağıdakı uşaq və qadın müəssisələri var idi: 25 çarpayılıq uşaq xəstəxanası, 27 çarpayılıq 3 doğum evi (onlardan ikisi 12 çarpayı kənd yerlərində), 3 uşaq məsləhətxanası (onlardan ikisi sərbəst), 2 süd mətbəxi, 3 mama məntəqəsi, 7 daimi (247 yerlik) və 61 mövsümü (1597 yerlik) yaslilər – xalq səhiyyə komissarlığının nəzdində 24 uşaq baxçası – 762 yerlik, uşaq həkimlərinin və mama – ginekoloqlarının sayı 1936-cı ilə nisbətən 7-dən 10-a qədər çoxalmışdır. Habelə mamaların, mama – feldşerlərin, tibb bacılarının sayı 41-dən 95-ə çatmışdır.

***

Respublikada müalicə şəbəkəsi ilə yanaşı sanitar idarələr də genişlənir. 1937-ci ildə Naxçıvan şəhərində ilk dəfə respublika sanitar stansiyası (baş həkim vəzifəsinə Əli Süleyman oğlu Xəlfə-zadə təyin edilir), onun nəzdində sanitar-bakterioloji laboratoriya təşkil edilir. Onun yaradılması epidemiya əleyhinə tədbirlərin həyata keçirilməsində böyük rol oynayır. 1937-ci ildə Naxçıvan rayonunda baş vermiş qızılca xəstəliyinə qarşı qəti tədbirlər görüldü və qısa bir vaxtda xəstəlik aradan qaldırıldı. Infeksiya baş verən vaxt onun ləğv edilməsi üçün təsirli tədbirlər görülürdü. Epidemiya ocağında təcili təcridxanalar təşkil edilir, ora həkim briqadaları, dezinfeksiyaedici məhlullar və s. göndərilirdi. Məsələn, Şahbuz rayonunun 3 kəndində və Əbrəqunus rayonunun bir kəndində skarlatina xəstəliyi baş verdiyinə görə 1937-ci ilin noyabr ayının 7-dən 23-dək hər birində 10-15 adam tutan təcridxana (izolyator) təşkil edilmişdir. Bunun nəticəsində xəstəlik tez bir vaxtda ləğv edilmişdir.

Naxçıvan MSSR-i X.K.S. 31.01.1940-cı il qərarında göstərilir ki, «respublika ərazisində baş vermiş yeni infeksiyanın tezliklə ləğv edilməsi və onun qarşısının alınması üçün Xalq Kommunal Təsərrüfat Komissarlığına və rayon icraiyyə komitələrinin sədrlərinə tapşırıq verilib ki, onlar epidemiya əleyhinə tədbirlərin həyata keçirilməsində tibb işçilərinə vaxtında hər tərəfli köməklik göstərsinlər».

Başqa sirayət edən xəstəliklərə – bruselliyoz, sibir yarasına qarşı tədbirlər də nəzərdən qaçırılmırdı.

Təbii çiçək, difteriya, qarın yatalağı, dizenteriya və s. xəstəliklərə qarşı profilaktik peyvəndlər aparılıb. Onların miqdarı aşağıdakı cədvəldə göstərilib:

11-ci cədvəl

1937-1940-cı illərdə aparılan peyvəndlərin sayı

Illər	Çiçək əleyhinə		Difteriya əleyhinə		Qarın yatalağına qarşı	Dizenteriyaya qarşı
	vaksinasiya	revaksinasiya	vaksinasiya	revaksinasiya		
1937	11376	57519	1604	-	5876	3775
1938	39193	51873	1834	352	5391	8406
1939	8925	27348	8763	1275	4697	8068
1940	6587	21024	1682	1404	7477	15609

Kompleks epidemiya tədbirlərin həyata keçirilməsi nəticəsində malyariya, traxoma, sifilis, yatalaq və başqa xəstəliklər kəskin aşağı salındı. Bunu 1937-1940-cı illərdə baş vermiş yoluxucu xəstəliklərdən görmək olar. 1940-cı ildə 1937-ci ilə nisbətən yoluxucu xəstəliklər xeyli azalmışdır: belə ki, qarın yatalağı 24-dən 4 hadisəyə, paratif 4-dən 3-ə, qızılca 612-dən 20-yə, skarlatina 712-dən 52-yə, difteriya 30-dan 10-a, dizenteriya və enterokolit 287-dən 204-ə, su çiçəyi 78-dən 59-a, uşaqlarda dispepsiya 621-dən 154-ə, malyariya 20537-dən (1936) 14345-ə. Bəzi infeksiyalar (epidemik hepatit, qızıl yel, dəri leyşmaniozu, Sibir yarası, stalbnyak) 1940-cı ildə ümumiyyətlə qeydə alınmamışdır. Bununla belə cüzi sayda qripp və səpgili yatalaq qeyd olunmuşdur.

Malyariya xəstəliyi ilə planlı surətdə ümumidövlət miqyasında mübarizə aparmaq məqsədilə Azərbaycan SSR X.K.S. yanında malyariya komitəsi tərəfindən 1932-ci ildə ikinci beşillikdə malyariya ilə mübarizə aparmaq üçün baş plan tərtib edilir.[1]

Malyariya ilə mübarizə işinə maraqlı təşkilatlar, idarələr və ictimai təşkilatlar cəlb olunurlar.

1935-ci ildə malyariyalı xəstələrin sayı 25565, 1936-cı ildə – 20537 olmuşdursa, 1940-cı ildə bu rəqəm 14345 olmuşdur. Rəqəmlər göstərir ki, respublikada 1940-cı ildə malyariyalı

[1] N.Məmmədli. Azərbaycan SSR-də ikinci beşillikdə malyariya və onunla mübarizə. Bakı, 1932-ci il.

xəstələrin sayı demək olar ki, 1935-ci ilə nisbətən 2 dəfə azalmışdır.

Naxçıvan Respublikasında malyariya əleyhinə müəssisələrin sayı artmışdır və 1940-cı ildə 2 tropik stansiya, 2 malyariya dispanseri və 3 malyariya məntəqəsi fəaliyyət göstərirdi.

Vərəm xəstəliyi ilə mübarizə davam etdirilir. 1936-cı ilin may ayında Naxçıvan şəhərində respublika xəstəxanası nəzdində 15 çarpayıdan ibarət vərəm şöbəsi təşkil edilir, şəhər poliknikasında isə vərəm kabinəsi açılır. Bir ildən sonra (1937 – fevral) Naxçıvan şəhərində vərəm əleyhinə 20 çarpayılıq dispanser təşkil olunur.

Traxoma xəstəliyinə qarşı mübarizə daha da gücləndirilir. 1933-34-cü illərdə Naxçıvan şəhərində traxoma dispanseri, 1936-cı ildə isə onun nəzdində 40 çarpayılılıq stasionar təşkil edilir. Kənd yerlərində traxoma məntəqələrinin sayı 9-a çatdırılır. 1932-33-cü illərdə respublikada traxomanın yayılma dərəcəsi seçmə yolu ilə yoxlanılan vaxt aydın olur ki, onun yayılma dərəcəsi heç də yerlərdə eyni deyil.

Culfada traxomanın yayılması 84,4%-ə çatır, elə yer var ki, orada daha çox faiz (məsələn, Yaycı kəndində 90,1%) olmuşdur. Ordubad rayonunda bu göstərici 50%-dən çox olmuşdur. Ordubad rayonunun dağ və dağətəyi sahəsində traxomanın yayılması aşağı faiz olmuşdur. Ordubadda fəhlə və qulluqçular arasında traxomalı xəstələrin sayı 25,1%, məktəblilər arasında 28,6% olmuşdur. 1932-ci ildə evlərdə aparılan müayinə vaxtı 307 ailədə 44,1% traxomalı xəstə, onlardan qadınlar – 69,9%, kişilər – 31,1% təşkil etmişdir.

Naxçıvan rayonunun düzənlik hissəsində traxomalı xəstələrin faizi 44,6%, Şərur rayonunda isə 36,6% olmuşdur.

Yaylaqlarda olanlara tibbi xidmət göstərilməsinə böyük diqqət verilirdi. Həkim, mama və sanitarkadan ibarət tibbi dəstə hər il yaylaqlara göndərilirdi. Bunlardan başqa hər yaylaqda uşaq yaslisi təşkil edilirdi.

1940-cı ildə Naxçıvan şəhər səhiyyə şöbəsi təşkil edilir ki, Naxçıvan şəhərində olan tibb obyektləri ona tabe olur.

Respublika əhalisinə göstərilən tibbi-profilaktik köməyin həcmi də böyüyür, bunu aşağıdakı cədvəldən görmək olar.

12-ci cədvəl

Naxçıvan MSSR-ində müalicə-profilaktika müəssisələrinə 1910-1938-ci illərdə edilən gəlişlərin sayı

Illər	Gəlişlərin sayı [x)]	Hər bir sakinə düşən gəliş
1910	55785	0,4
1924-25	152819	1,5
1938	413954	3,3

Cədvəldən görünür ki, gəlişlərin sayı 1938-ci ildə 1910-cu ilə nisbətən 8 dəfə, 1924-25-ci illərə nisbətən 2 dəfə artmışdır.

[x)] Həkim və feldşerlərə gələnlər bir yerdə.
(Diş həkimlərinin yanına gələnlər nəzərə alınmır).

13-cü cədvəl

Naxçıvan MSSR-də səhiyyənin əsas göstəriciləri. 1930-1940-cı illər ərzində (ilin axırına)

Tibb müəssisələrinin adı	1930 il			1940 il		
	şəhər	kənd	cəmi	şəhər	kənd	cəmi
Ambulator-poliklinika müəssisələrinin sayı	10	1	11	20	10	30
O cümlədən uşaq və qadın məsləhətxanalarının sayı	3	-	3	3	-	3
Xəstəxanalar və stasionarlı dispanserlər	3	1	4	9	5	14
Onlarda çarpayıların sayı	170	10	180	331	68	399
Feldşer məntəqələrinin sayı	-	6	6	-	60	60
Sanitar epidemioloji stansiyaların sayı	1*	-	1	1	-	1
Həkimlərin sayı (diş həkimlərsiz)	23	9	32	35	20	55
Orta tibb işçiləri-nin sayı	31	25	56	121	79	200
Büdcə			65,2 m.m. (1932-ci il)			777,3 m.m.

Yada salmaq yerinə düşərdi ki, 1913-cü ildə Naxçıvan Respublikasının indiki ərazisində 20 çarpayılıq 3 xəstəxana (onlardan biri Naxçıvan şəhərində – 8 çarpayı, ikisi kənddə – 12 çarpayı), 3 feldşer məntəqəsi, 5 həkim və 14 orta tibb işçisi olmuşdur.

[x)] Sanepidemiya şöbəsi

Yuxarıda göstərilən rəqəmlərə yekun vuraraq qeyd etmək lazımdır ki, istər 1930-cu ildə, istərsə də 1940-cı ildə tibb müəssisələrinin, tibbi kadrların sayı 1913-cü illə müqayisə edilməz dərəcədə artmışdır.

Respublikada cərrahi, uşaq, vərəm, göz, mama - ginekoloq, burun – qulaq - boğaz kimi xüsusiləşdirilmiş çarpayılar açılmışdır.

Çarpayıların çoxalması əhaliyə göstərilən stasionar yardımın yaxşılaşmasına səbəb olmuşdu. Belə ki, 1928-29-cu illərdə stasionara 3103 xəstə, 1938-ci ildə 5235 xəstə qəbul olunmuşdursa, 1940-cı ildə qəbul olunan xəstələrin sayı 7676-ya çatmışdır.

1940-cı ildə 55 dəri-zöhrəvi, 25 vərəm, 35 uşaq (onlardan 10-u infeksiyalı xəstələr üçün) carpayıları açılmışdır.

Kolxoz və sovxoz qurulmasının coşqun vaxtında kənd əhalisinə tibbi-sanitar xidmətin yeni forması təşkil edilir. Şəhər tibb müəssisələrinin hesabına tibbi dəstələr tərkibində həkim və orta tibb işçiləri təşkil edilirdi ki, onlar kənd yerlərinə gedərək tarla işləri vaxtında kolxozçulara tibbi yardım göstərirdilər (8-ci şəkil).

1935-ci ilin fevral ayında zərbəçi kolxozçuların ikinci ümumittifaq qurultayında təsdiq olunmuş «kənd təsərrüfat artelinin tipli nizamnaməsi» Naxçıvan MSSR-də öz əksini tapdı. Yüzlərlə kolxozçu-qadın doğuşdan bir ay qabaq və doğuşdan bir ay sonra məzuniyyət almağa ixtiyarlı oldular. Bundan başqa onların orta əmək gününün yarısı saxlanıldı.

1938-ci ilin aprel ayının 23-də SSRI X.K.S-i «kənd həkim sahəsinin möhkəmləndirilməsi haqqında» çıxardığı qərar kolxoz – kəndlilərinin tibb xidmətinin daha da yaxşılaşdırılmasına səbəb oldu.

Bu qərar kənd həkimlərinin maddi – məişət şəraitinin yaxşılaşmasına, onların pulsuz evlə, kommunal xidmətlə təmin olunmasına, sahədə xidmət göstərən vaxtı nəqliyyatdan istifadə etməyə yönəldilmişdir.

1931-ci ildə ilk dəfə Naxçıvan şəhərində tibb məktəbi açılmışdır. Əvvəlcə feldşer, sonralar isə əczaçılıq, tibb bacıları və mamaça şöbələri təşkil edildi.

8-ci şəkil
Tarla işləri vaxtında kolxozçulara tibbi xidmət göstərmək üçün təşkil olunan səyyar tibbi dəstə

Bu vacib və nəcib işin təşəbbüskarı o zaman Xalq Səhiyyə komissarı vəzifəsində işləyən Nadir Məmmədli olmuşdur. Həmin məktəb yerli əhalidən orta tibb işçisi kadrları hazırlamağa imkan vermişdi. Ilk buraxılış 1935-ci ildə olmuşdur.

Buraxılış ilində məktəbin direktoru Abdulla Abdullayev, məktəbin dərs hissə müdiri Əbdüləli Tahirov olmuşdur.

14-cü cədvəl

1935-40-cı illərdə Naxçıvan tibb məktəbini bitirənlərin sayı

	İ l l ə r					
	1935	1936	1937	1938	1939	1940
Feldşerlərin sayı	14	25	32	58	-	32
Mamaların sayı	-	-	-	12	13	24
C ə m i	14	25	32	70	13	56

Göstərilən rəqəmlərdən aydın olur ki, 1935-1940-cı illərdə tibb məktəbi 210 orta tibb işçisi (onlardan 161-i feldşer və 49-u mama) buraxmışdır.

Respublikada tibbi xidmətin keyfiyyətini yaxşılaşdırmaq üçün həkimlərin və orta tibb işçilərinin ixtisasının təkmilləşdirilməsi üçün cürbəcür tədbirlər keçirilirdi. Belə ki, həkimlər və orta tibb işçiləri mütəşəkkil olaraq Bakı və Sovet Ittifaqının başqa şəhərlərində olan tibb idarələrinə ezam edilirdilər.

Bundan başqa həkimlər üçün əsas ixtisaslar üzrə kurslar və seminarlar təşkil edilirdi. Həmçinin tibb bacıları və yasli işçiləri üçün cürbə-cür kurslar təşkil olunmuşdu.

* * *

Sosialist iqtisadiyyatının və mədəniyyətinin nailiyyətləri əsasında sanitar mədəniyyəti də artmağa başladı. Əhalinin əmək və məişət şəraiti, sanitar-gigiyena vəziyyəti durmadan yaxşılaşdı, şəhərlərin, fəhlə qəsəbələrinin və kəndlərin sanitar abadlığına diqqət artırıldı.

Bununla əlaqədar səhiyyə təşkilatları qarşısında yeni məsələlər dururdu - sanitar–maarif işini daha da inkişaf etdirmək və onun işini yeni tələblər əsasında qurmaq.

Tibb işçiləri bədən tərbiyəsinin kütləvi işində fəal iştirak edirdilər. Ə.M.H. nişanı normalarının verilməsini təbliğ edirdilər.

Ölkədə ildən-ilə əhalinin səhiyyə sahəsində ictimai hərəkatı daha geniş inkişaf edirdi, xüsusən sağlamlıq tədbirlərinin aparılmasında özünü göstərirdi.

Yaşayış yerlərinin qaydaya salınması və təmizlik uğrunda kütləvi hərəkat, əhalinin özfəaliyyəti sağlamlığın qorunması sahəsində yeni mərhələ oldu. Respublikada göyçay hərəkatı böyük inkişaf tapdı.

Azərbaycan SSR-in Göyçay rayonunda tibb işçilərinin təşəbbüsü ilə partiya və sovet orqanlarının rəhbərliyi altında 1940-41-ci illərdə yaşayış yerlərinin sanitar abadlaşdırılmasında kütləvi iş genişləndi.

Qeyd etmək yerinə düşərdi ki, Göyçayda bu hərəkata təşəbbüs göstərən və o illərdə orada səhiyyə şöbəsinə rəhbərlik edən Ələkbər Əhəd oğlu Ismayılov olmuşdur. O, 1944-1953-cü illərdə Naxçıvanda səhiyyə naziri vəzifəsində işləmişdi. Ə.Ismayılov Naxçıvanda işlədiyi təqribən 10 il ərzində, xüsusən Vətən müharibəsinin ağır illərində, səhiyyənin inkişaf etməsi üçün səmərəli işlər görmüşdür. Tibb müəssisələrinin möhkəmləndirilməsi, yenilərinin açılması, çarpayıların, ixtisaslı həkimlərin çoxalması sahəsində səylə işləmişdir.

Azərbaycan Xalq Səhiyyə komissarı göyçaylıların təcrübəsini Azərbaycanın bütün rayonlarına yayılması haqqında 1940-cı il iyul ayının 27-də 1022 №-li əmr verdi.

Göyçaylılar qarşılarında konkret məsələ qoydular: sadə ayaqyolu və hamam tikmək, su təchizatı məsələlərində sanitar qayda yaratmaq, sadə hidrotexniki tədbirlər aparmaq, həyət və evləri sanitar qaydaya – səhmana salmaq, mövsümi uşaq yaslilərini təşkil etmək; habelə malyariya, traxoma, qurd və dəri xəstəliklərini aşkar etmək və bu kimi xəstələri müalicə etmək, çiçəyə, difteriyaya, qarın yatalağına və dizenteriyaya qarşı kütləvi qoruyucu peyvəndlər aparmaq məqsədilə bütün əhalinin başdan-başa kütləvi müayinəsini təşkil etmək tövsiyə olunurdu.

Bu xalq hərəkatı Naxçıvan MSSR-də də yayıldı. Naxçıvan Xalq Səhiyyə komissarı bu haqda yanvar ayının 4-də 4№-li əmr verir. Əmrdən aydın olur ki, bu hərəkatın respublika ərazisində həyata keçirilməsi nə qədər böyük əhəmiyyətli iş olacaq.

Respublikanın tibb işçiləri partiya və sovet orqanlarının rəhbərliyi və köməyi sayəsində sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsinə başladılar və kəndlərdə göyçaylıların təcrübəsi, metodu üzrə tibbi kömək göstərmək təşəbbüsünə qoşuldular.

Bu məqsədlə 1941-ci ilin yanvar ayının 5-dən 30-na kimi Naxçıvan respublikasında həkim və feldşer məntəqələri vasitəsilə malyariyaya, keçəlliyə, qotura, traxomaya və başqa xəstəliklərə qarşı əhalinin başdan-başa müayinəsi aparıldı. Aşkar olunan xəstələr müalicəyə cəlb edildilər.

Sanitar – sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsində rayon və kənd zəhmətkeş deputatları sovetlərinin fəalları gündəlik iştirak edirdilər.

Çox təəssüflə qeyd etmək lazımdır ki, Böyük Vətən müharibəsi belə nəcib bir hərəkatın davam etdirilməsinə mane oldu və müvəqqəti olaraq onun tam həyata keçirilməsini geri atdı.

***

Respublikada gənclərin fiziki inkişafını və mineral su mənbələrini öyrənmək üçün Səhiyyə Komissarlığı Bakıdan ekspedisiya dəvət etdi.

1933-cü ildə professor N.I.Anserov və həkim B.A.Hüseynov tərəfindən respublikada çağırış komissiyasının materialları əsasında 4 ilə aid (1908-1911-ci illər) 4078 nəfər çağırış yaşlı gənclərin fiziki inkişafı öyrənildi.

Aşağıda fiziki müayinənin nəticəsi göstərilir:

15-ci cədvəl

Naxçıvan MSSR-i gənclərinin fiziki
inkişafı haqqında

Boyu, sm-lə	Çəkisi, kq-la	Döş qəfəsinin ölçüsü
164,92	57,60	86,02

Fəqət bu materiallar nə qədər qiymətli olsa da onlar yeganədir. Ona görə respublikanın bütün gənclərinin fiziki inkişafı məsələsinə bu materialların nəticəsinə əsasən baxmaq, qiymət vermək mümkün deyil.

Qeyd etmək lazımdır ki, Səhiyyə komissarı Nadir Məmmədlinin təşəbbüsü və xahişi ilə Azərbaycan SSR-i Xalq Səhiyyə Komissarlığı ilk dəfə olaraq Naxçıvanda mineral suları çıxarmaq və suların tərkibini öyrənmək məqsədi ilə 1933-cü ildə Naxçıvana mütəxəssislər ekspedisiyası göndərdi.

Naxçıvan respublikasının ərazisində ilk dəfə 3 rayonda, o da tam müayinə edilməyən, 48 cürbə-cür mineral su

mənbələri tapıldı. Kimyəvi maddələrin çatmaması üzündən onlardan yalnız 20-si müayinə edildi. Əsas diqqəti cəlb edən – Darıdağ mışyaqlı, Nəhəcir, Badamlı, Sirab, Dərəşəm, Qızıl-Vəng, Gömrü mineral su mənbələri oldu. Beləliklə ilk müayinələr müsbət nəticələndi.

Naxçıvan MSSR-də səhiyyə son on ildə öz inkişafında az maneələrə rast gəlməyib: kadrların çatışmaması, avadanlığın və aparatların azlığı, tibb idarələri üçün münasib binaların olmaması, yeni tikilən binaların ləng başa çatması və sairə. Bunlara baxmayaraq səhiyyə öz inkişafında böyük nailiyyətlər əldə etmişdir. Böyük Vətən müharibəsinin başlanmasına qədər respublikada keçən illərə nisbətən inkişaf etmiş tibb şəbəkəsi və çoxlu sayda tibb kadrları oldu.

N Ə T I C Ə

1. 1930-40-cı illərdə tibb müəssisələrinin şəbəkəsi, onlarda olan çarpayılar geniş inkişaf tapdı, tibb kadrlarının, xüsusən həkimlərin sayı artdı. Əhali ilk dəfə ixtisaslı tibbi kömək almağa başladı. Təcili yardım köməyi genişləndirildi.

2. Respublikada səhiyyə büdcəsinin ilbə-il artması nəticəsində tibb müəssisələrinin tibb ləvazimatı, yeni aparatlarla təchizatı yaxşılaşdı. Yeni xəstəxanalar, ambulatoriyalar, uşaq və qadın məsləhətxanaları, doğum evləri, uşaq yasliləri tikilib istifadəyə verildi.

3. SSRI X.K.S.-in «Kənd həkim sahəsinin möhkəmləndirilməsi haqqında»kı qərarı kolxoz kəndlisinə tibbi xidmətin daha da yaxşılaşdırılmasına səbəb oldu. O, kənd həkimlərinin maddi – məişət şəraitinin yaxşılaşdırılmasına da şərait yaratdı.

4. Səhiyyə sahəsində əhalinin ictimai hərəkatının genişlənməsi əhali arasında sanitar mədəniyyətin artmasına səbəb oldu. Bu vaxt göyçay hərəkatının təcrübəsindən geniş istifadə olundu.

3. Böyük Vətən müharibəsi illərində Naxçıvan MSSR-də səhiyyə (1941-1945-ci illər)

Faşist Almaniyasının Vətənimiz üzərinə xaincəsinə hücumu sovet adamlarının yaradıcı əməyini pozdu. Kommunist Partiyasının və Sovet hökumətinin çağırışı ilə bütün sovet xalqı Vətəni müdafiə etmək üçün ayağa qalxdı. Dövlətimizin bütün qüvvə və vəsaiti hiyləgər düşmənə qarşı müharibədə qələbəmizin təmin edilməsinə yönəldildi. «Hər şey cəbhə üçün! Hər şey qələbə üçün!» - partiyamızın şüarı belə idi.

Böyük Vətən müharibəsi illərində səhiyyə orqanları qarşısında çox mühüm bir vəzifə – cəbhədə və arxada yoluxucu xəstəliklərin yayılmasına yol verməmək vəzifəsi dururdu.

Müharibənin ilk illərindən Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığı respublikada sanitariya işlərini tələb olunan səviyyədə saxlamaq və yoluxucu xəstəliklərin yayılmasına yol verməmək üçün hər cür tədbir gördü. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar respublikasının Xalq Səhiyyə Komissarlığı tərəfindən verilmiş 1942-ci il 29 yanvar tarixli əmrdə deyilirdi ki, səhiyyə orqanlarının ən mühüm vəzifəsi arxanı sanitariya cəhətdən yaxşı vəziyyətdə saxlamaqdan, yoluxucu xəstəliklərin yayılmasına yol verməməkdən, ilk növbədə, səpgili yatalağın qarşısını almaq üçün hər yerdə geniş miqyasda tədbir görməkdən ibarətdir. Əmrdə respublikanın tibb işçilərinə bir vəzifə olaraq tapşırılırdı ki, səhiyyə fəallarının, evdar qadınların, sanitariya postlarının və başqalarının iştirakı ilə briqadalar təşkil edib sənaye, ticarət və iaşə müəssisələrinin, həyətlərin, kolxozların, mənzillərin və digər obyektlərin sanitariya vəziyyətini yoxlasınlar, aşkara çıxarılan nöqsanları yerində aradan qaldırsınlar, yaşayış məntəqələrinin təmizliyinə nail olsunlar və s.

Böyük dövlət əhəmiyyəti olan bu vəzifə yerinə yetirildi. Respublikanın tibb işçiləri bir nəfər kimi yoluxucu xəstəliklərə qarşı mübarizəyə başladılar. 1942-ci ilin əvvəllərində

Naxçıvan Muxtar Respublikasının Xalq Səhiyyə Komissarlığı və onun yerli orqanları yanında epidemiyaya qarşı fövqəladə komissiyalar yaradıldı. Bu komissiyalar yerlərdə epidemiyaya qarşı mübarizə təşkil edir və yaşayış məntəqələrində, iaşə, kommunal və sənaye müəssisələrində, uşaq tərbiyə ocaqlarında sanitariya qaydalarının gözlənməsinə nəzarət edirdilər. Onlar sanitar fəallarının işini əlaqələndirib birləşdirirdilər. Bu işdə Qırmızı Aypara Cəmiyyəti mühüm yer tuturdu.

Respublika fövqəladə Komissiyasının və Xalq Səhiyyə Komissarlığının əmrinə (iyun 1942-ci il) əsasən dövlət malyariya və epidemiya inspektorlarının boş qalmış vəzifələrinə tibb işçiləri seçilib götürüldü.

1942-ci il iyunun 30-da respublikanın xalq səhiyyə komissarı SSRI Xalq Səhiyyə Komissarlığının əmrinə uyğun olaraq «Şəhər poliklinika və ambulatoriyalarında epidemiyaya qarşı mübarizə və şəhər əhalisinə tibbi xidmətin sahə – ərazi sisteminin möhkəmləndirilməsi haqqında» əmr verdi. Əmrdə səhiyyə orqanlarına yoluxucu xəstəliklərə tutulanları vaxtında aşkara çıxarıb xəstəxanalara qoymaq, xəstəlik olan yerlərin vaxtında və düzgün dezinfeksiya edilməsinə nəzər yetirmək, xəstəlik müşahidə edilən yerləri və yoluxucu mədə-bağırsaq xəstəliyi keçirmiş olan adamları nəzarət altında saxlamaq vəzifəsi tapşırıldı. Bu əmr respublikanın tibb işçiləri tərəfindən diqqətlə yerinə yetirildi. Yoluxucu xəstəliyə tutulan adamları aşkara çıxarmaq üçün tibb işçiləri evləri gəzir, həmin xəstəliyə tutulmağa şübhəli adamları dərhal xəstəxanaya göndərir, xəstəliyin ocaqlarını dezinfeksiya edirdilər. Sanitar nəzarəti gücləndirilmiş, təmizlik uğrunda mübarizə genişləndirilmişdi. Profilaktika məqsədi ilə edilən peyvənd geniş miqyas almışdı.

1944-cü ildə habelə vəba xəstəliyinin diaqnozunu təyin etmək üçün laboratoriya açılır. Respublikada epidemiya əleyhinə işləri gücləndirmək məqsədilə Naxçıvan MSSR-i Xalq Komissarları Soveti nəzdində aşağıdakı tərkibdə respublika fövqəladə komissiyası yaradıldı: Naxçıvan MSSR-i XKS-in sədri, Azərbaycan KP Naxçıvan
Vilayət komitəsinin katibi, Naxçıvan MSSR-i Səhiyyə

16-cı cədvəl

1944-1945-ci illərdə qoruyucu peyvəndlər
haqqında məlumat

Illər	Çiçək əleyhinə		Difteriya əleyhinə		Qarın yatalağı əleyhinə	Dizenteriya əleyhinə
	Vaksinasiya	Revaksinasiya	Vaksinasiya	Revaksinasiya		
1944	3641	23883	8319	9563	14914	14912
1945	10970	21353	11838	4563	18035	18031

komissarı, Naxçıvan MSSR-i Daxili işlər komissarı və respublika prokuroru.

Buna görə də müharibə illərində respublikanın yalnız bəzi yerlərində ayrı-ayrı adamların səpgili yatalağa və digər yoluxucu xəstəliklərə tutulduğu müşahidə edilmişdi. Lakin tibb işçilərinin fədakarlığı sayəsində bu yoluxucu xəstəliklər də vaxtında aradan qaldırıldı.

Arxiv sənədlərinə nəzər yetirsək, görərik ki, bu və ya digər yoluxucu xəstəliyin qarşısının alınması haqqında Naxçıvan MSSR Xalq Komissarları Soveti dəfələrlə qərar çıxarmışdır.[1]

Müharibə illərində respublika səhiyyəsi qarşısında duran vəzifələrdən biri də vərəmə qarşı mübarizəni genişləndirməkdən, onun əhali arasında yayılmasına yol verməməkdən ibarət di. 1943-cü ilin may ayında Naxçıvan MSSR Xalq Komissarları Soveti «Naxçıvan MSSR-də vərəmə qarşı mübarizə haqqında» qərar çıxarmışdı.

Respublikanın tibb kollektivi bu mühüm sənəddə göstərilənlərə əməl edərək vərəmli xəstələrə müalicə – profilaktika yardımını yaxşılaşdırmaq, onları aşkara çıxarıb vaxtında müalicəyə cəlb etmək sahəsində xeli iş görmüşdür.

[1] Naxçıvan MSSR MDA (Mərkəzi dövlət arxivi), F.17, siyahı 8, qovluq 10, səh.60.

Az vaxt içərisində Naxçıvan şəhərində vərəm dispanseri açıldı (1944-cü ildə), müvafiq tibb kadrları ilə təmin edildi, çarpayıların sayı 25-dən 55-ə çatdırıldı.[1]

Xalq maarifi, ictimai təminat orqanları və başqa təşkilatlar da vərəmə qarşı mübarizəyə cəlb edilmişdilər.

«Müdafiə sənayesi müəssisələri fəhlələrinə tibbi xidmətin yaxşılaşdırılması haqqında» SSRI Xalq Səhiyyə Komissarlığının əmrinə müvafiq olaraq, 1942-ci ilin dekabr ayında Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığı eyni məzmunda əmr vermişdi. Həmin əmr əsasında Naxçıvan duz mədənində çalışan fəhlə və qulluqçulara ixtisaslı tibb yardımı göstərmək üçün üç ay müddətində xüsusi həkim briqadası yaradıldı. Bir qədərdən sonra (1943-cü ilin iyun ayında) Parağaçay mədəni geoloji – kəşfiyyat dəstəsində çalışan fəhlələr üçün tibb məntəqəsi təşkil edildi.

Müharibə illərində Naxçıvan MSSR-in bütün ərazisində özünə və başqalarına ilk tibbi yardım göstərməyin əhaliyə öyrədilməsinə böyük əhəmiyyət verilirdi. Bununla əlaqədar olaraq 1942-ci ilin oktyabr ayında Naxçıvan MSSR Xalq Komissarları Soveti xüsusi qərar qəbul etmişdi. Bu qərarda göstərilirdi ki, respublikanın ərazisində yaşayan bütün yaşlı əhali (16-60 yaşlarında) ilə istehsalatdan ayrılmadan məcburi surətdə SMH (sanitariya müdafiəsinə hazıram) normaları, 11-25 yaşlarında olan uşaqlarla isə SMHO normaları üzrə hazırlıq keçmək lazımdır. Hazırlıq Qırmızı Aypara Cəmiyyətinin proqramı həcmində keçilirdi.[2]

Böyük Vətən müharibəsi illərində kolxoz kəndlərində kolxoz tibb bacıları işləyən tibb məntəqələri yarandı. Sanitar fəalları işinin bu forması kənddə əhalinin can sağlığının yaxşılaşdırılmasına xeyli kömək etdi, kolxozçuların sanitariya mədəniyyətini yüksəltdi.

1944-cü ilin aprelində Naxçıvan MSSR Xalq Komissarları Soveti «Kolxoz tibb bacılarının hazırlanması

[1] Naxçıvan MSSR MDA (Mərkəzi dövlət arxivi), F.17, siyahı 2, qovluq 109, səh.63.

[2] Naxçıvan MSSR MDA. F.17, siyahı 8, qovluq 5, səh.29.

haqqında» qərar qəbul etmişdi. Həmin qərarda göstərilirdi: vilayət Qırmızı Aypara Cəmiyyətinə tapşırılsın ki, kənddə kolxoz əhalisinə tibbi yardımı yaxşılaşdırmaq və kolxozçular arasında sanitariya mədəniyyətini yüksəltmək məqsədi ilə kolxoz tibb bacıları kursu təşkil etsin. Bununla əlaqədar olaraq respublika Qırmızı Aypara Cəmiyyəti yanında təşkil edilən kursdan 127 kolxoz tibb bacısı buraxıldı.[1]

Müharibə illərində respublikada vətən müharibəsi əlillərinə geniş miqyasda tibbi yardım təşkil edilmişdi. Onlara dövlət pensiyası, pulsuz protez verilir, yüksək dərəcədə ixtisaslı tibbi yardım göstərilirdi, xüsusi əlillər evi yaradılmışdı. Sanatoriya, istirahət evləri və sağlamlıq ocaqlarının geniş şəbəkəsi onlara xidmət göstərirdi.[2]

Naxçıvan MSSR-in səhiyyə orqanları tərəfindən Vətən müharibəsi əlillərinə əlillik dərəcələrinə görə göstərilən tibbi xidməti təsvir etmək üçün bəzi rəqəmləri nəzərdən keçirək.

[1] Naxçıvan MSSR MDA. F.17, siyahı 8, qovluq 5, səh.29.
[2] Yenə orada, qovluq 110, səh.5.

17-ci cədvəl

Əlillərin əlillik dərəcələrinə görə qruplara bölünməsi haqqında məlumat

1944-cü il				1945-ci il			
I qr.	II qr.	III qr.	cəmi	I qr.	II qr.	III qr.	cəmi
18	557	1097	1672	15	502	1254	1771

1942-ci ilin dekabr ayında respublikanın bütün şəhər və rayon poliklinikalarında həkim əmək eksport komissiyaları (HƏEK) təşkil olundu.

Müharibənin ən ağır illərində belə Kommunist Partiyası və Sovet hökuməti ana və uşaqların sağlamlığının qorunmasına xüsusi qayğı göstərirdilər. 1942-ci il noyabrın 23-də SSRI Xalq Komissarları Soveti «Valideynsiz qalmış uşaqların təmin edilməsi haqqında» qərar qəbul etmişdi. 9 aydan sonra isə «Uşaqlara tibbi xidmət göstərilməsi sahəsində səhiyyə orqanlarının və uşaq tərbiyə ocaqlarının işini və ehtiyacı olan uşaqların yeməyini yaxşılaşdırmaq tədbirləri haqqında» qərar çıxarılmışdı.

1944-cü il iyunun 8-də SSRI Ali Sovetinin Rəyasət Heyəti «Hamilə qadınlara, çoxuşaqlı və tək analara dövlət köməyinin artırılması, ana və uşaqların mühafizəsinin gücləndirilməsi, «Qəhrəman ana» fəxri adının, «Analıq şərəfi» ordeni və «Analıq medalı»nın təsis edilməsi haqqında» fərman qəbul etdi. Bununla əlaqədar olaraq Azərbaycan SSR Xalq Komissarları Soveti 3.12.1944-cü ildə uşaq tərbiyə ocaqlarının genişləndirilməsi, qadınlara və uşaqlara tibbi xidmətin yaxşılaşdırılması haqqında qərar çıxardı.

SSRI Xalq Komissarları Sovetinin 1944-cü il 10 noyabr tarixli qərarına uyğun olaraq 1945-ci ildə Naxçıvan MSSR Xalq Komissarları Soveti «Naxçıvan MSSR-də uşaqlara müalicə – profilaktika yardımı, doğum evləri və qadın məsləhətxanaları üzrə inspektorlar haqqında» qərar qəbul etdi. Bu qərar əsasında uşaq və qadınlara müalicə – profilaktika yardımını daha da yaxşılaşdırmaq məqsədilə 1945-ci ilin sentyabr ayında Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığı

yanında uşaqlara müalicə – profilaktika yardımı üzrə baş inspektor, habelə doğum evləri və qadın məsləhətxanaları üzrə inspektor vəzifələri təsis edilmişdir. Eyni zamanda bütün rayon səhiyyə şöbələrinə uşaqlara müalicə – profilaktika yardımı üzrə inspektorlar verilmişdir.[1]

Yuxarıda göstərilən qərarlarda nəzərdə tutulan tədbirləri yerinə yetirərək respublika Xalq Səhiyyə Komissarlığı uşaqlara və qadınlara tibbi xidməti daha da yaxşılaşdırmaq üçün bir çox işlər gördü. Uşaq xəstəxanalarında çarpayıların sayı artırıldı, körpə evlərinin, yay sağlamlıq meydançalarının şəbəkəsi genişləndirildi.

1943-cü ildə Naxçıvan şəhərində 40 çarpayılıq məktəb uşaq sanatoriyası açıldı.

Doğum çarpayılarının sayı 1940-cı ildəki 32-dən 1945-ci ildə 51-ə çatdırıldı, yaslilərin sayı müvafiq olaraq 7-dən 9-a, uşaq baxçalarının sayı 24-dən 38-ə çatdırıldı. Bunlar o vaxtlar səhiyyə şöbələrinin nəzdində olmuşlar.

Müharibə illərində Naxçıvan MSSR-də sanitariya maarifinin yaxşılaşdırılması üçün də tədbirlər görülürdü. Hələ 1941-ci ildə respublika Xalq Səhiyyə Komissarlığı sanitariya maarifi şurası yaratmışdı. Bu şuraya 15 həkim daxil edilmişdi. Həmin ilin avqust ayında Naxçıvan MSSR Xalq Komissarları Soveti əhali arasında sanitariya maarifi işini yaxşılaşdırmaq üçün xüsusi qərar qəbul etdi. Bu qərar əsasında respublika sanitariya maarifi evi yanında sanitariya maarifinə dair filmlərin nümayiş etdirilməsi üçün yay kino – teatrı açıldı. Respublika tibb işçilərinin ixtisasının artırılmasına kömək etmək üçün 1945-ci ilin mart ayında sanitariya maarifi evi yanında olan tibb kitabxanası respublika elmi-tibb kitabxanası kimi yenidən təşkil edildi.

Müharibənin törətdiyi çətinliklərə baxmayaraq, respublika tibb ocaqlarının şəbəkəsi ildən-ilə artırdı.

Respublikanın rayonlarında 5 ambulatoriya, 10 həkim sahəsi, 33 feldşer məntəqəsi, 22 traxoma məntəqəsi, 7

[1] Naxçıvan MSSR MDA. F.17, siyahı 8, qovluq 22, səh.23.

malyariya məntəqəsi, 11 kənd doğum evi əhaliyə tibbi xidmət göstərmişdir. Xəstəxanalarda çarpayıların miqdarı çoxalırdı. Belə ki, 1941-ci ildə 14 xəstəxana (9-u şəhərlərdə, 5-i kəndlərdə) və bu xəstəxanalarda 435 çarpayı (350-si şəhərlərdə, 85-i kəndlərdə) olduğu halda, 1945-ci ildə xəstəxanaların sayı 16-ya (9-u şəhərlərdə, 7-si kəndlərdə) və çarpayıların sayı 510-a (420-si şəhərlərdə, 90-ı kəndlərdə)[1] çatmışdı. Xəstə uşaqlar, yoluxucu xəstəliklər xəstəxanalarında, vərəmə tutulanlar üçün, cərrahiyə və doğum çarpayılarının miqdarı xüsusilə artmışdı. Bunu aşağıdakı 18-ci cədvəldən görmək olar.

18-ci cədvəl

1941-1945-ci illərdə Naxçıvan MSSR-də
çarpayıların sayı

Illər	Şəhərdə	Kənddə	Cəmi
1941	350	85	435
1942	406	83	489
1943	380	83	463
1944	405	83	488
1945	420	90	510

Cədvəldən göründüyü kimi 1941-ci ilə nisbətən 1945-ci ildə çarpayıların sayı 14,7% (şəhər yerlərində 16,7%, kənd yerlərində 5,6%) artmışdır.

Böyük Vətən müharibəsinin ilk günlərində Muxtar respublikanın həkim və orta tibb işçilərinin xeyli hissəsi Vətənin çağırışına cavab olaraq Sovet Ordusu və Hərbi Dəniz Donanması sıralarına səfərbərliyə alındılar.

Həkimlərdən Tofiq Sultanovu, Mehdi Bağırovu, Abbas Əliyevi, Əbdüləli Tahirovu, Əkbər Ismayılovu, Camal Ibrahimovu, Əkbər Fəttahovu, Valentina Suxovanı, Abdulla Abdullayevi, Əzim Kazımovu, Hacı Mehdiyevi, Cabbar Cəfəirovu, orta tibb işçilərindən Dilbər Təhməzbə-

[1] Azərbaycan SSR Səhiyyə nazirliyinin arxivi, F.1, siyahı 1, qovluq K-71.

yovanı, Zərifə Camalbəyovanı, Xeyrənsə Abdullayevanı, Səffiyyə Sultanovanı və başqalarını göstərmək olar ki, onların da müharibənin başa çatmasında, düşmən üzərində qələbədə xidmətləri olmuşdur.

Müharibə illərində səhiyyə orqanları qarşısında çox mühüm vəzifələr dururdu. Indi yerdə qalan kadrlarla gərgin işləmək tələb olunurdu. Belə ki, orduya səfərbər olunanları əvəz etmək lazım idi.

Arxiv materiallarından göründüyü kimi müharibə illərində tibb işçilərinin sayı artmamışdır. Aşağıda onlar haqqında məlumat qeyd edilir.

19-cu cədvəl

1940-1945-ci illərdə Naxçıvan MSSR-də
həkim və orta tibb işçilərinin sayı

Illər	Həkimlər	Orta tibb işçiləri
1940	55	200
1941	40	149
1942	50	201
1943	49	212
1944	59	206
1945	54	202

Cədvəldən göründüyü kimi, 1941-ci ildə həkimlərin sayı 1940-cı ildəkinə nisbətən 27,3%, orta tibb işçilərinin sayı isə 25,5% azalmışdı. Bu, bir çox tibb işçilərinin Sovet Ordusu sıralarına səfərbərliyə alınması ilə əlaqədar idi. Yalnız 1945-ci ildə həkimlərin sayı 54 nəfərə, orta tibb işçilərinin sayı isə 202 nəfərə, yəni 1940-cı il səviyyəsinə çatdı.[1]

Müharibə illərində Naxçıvan tibb məktəbi orta tibb işçiləri hazırlamaqda idi. Onların bir çoxu məktəbi qurtaran kimi könüllü olaraq cəbhəyə getdilər. Məktəbi 1941-45-ci illərdə bitirənlər haqqında aşağıdakı cədvəldə _____

[1] Naxçıvan MSSR Səhiyyə Nazirliyinin arxivi. F.17, siyahı 3, qovluq 53, səh.40.

20-ci cədvəl

1941-1945-ci illərdə Naxçıvan tibb məktəbində orta tibb
kadrlarının hazırlanması haqqında məlumat

	İllər					
	1941	1942	1943	1944	1945	cəmi
Feldşerlər	68	60	25	-	-	153
Mamalar	-	20	-	-	-	20
Tibb bacıları	23	15	-	36	16	90
Əczaçı	22	17	-	-	-	39
Cəmi	113	112	25	36	16	302

məlumat verilib.

Cədvəldən göründüyü kimi müharibə davam etdiyi müddətdə bu məktəb 153 feldşer, 20 mama, 90 tibb bacısı və 39 əczaçı hazırlamışdır[1].

1943-cü il avqustun 22-də SSRI Xalq Komissarları Soveti ilə Kommunist Partiyasının Mərkəzi Komitəsi «Alman faşist işğalçılarından azad edilmiş rayonlarda təsərrüfatı bərpa etməyin mühüm tədbirləri haqqında» qərar qəbul etdilər. Bu qərar səhiyyə orqanlarından müharibənin sanitariya işinə vurduğu yaraları ardıcıl surətdə sağaltmağı və müharibə əlliillərinə geniş surətdə yardım göstərməyi tələb edirdi.

Arxiv sənədlərindən görünür ki, Naxçıvan MSSR səhiyyə orqanları partiya və hökumətin qərarına əməli işlərlə cavab vermişlər. 1943-cü ilin sentyabrında müalicə – sanitariya ocaqlarını bərpa etməkdə və zəhmətkeşlərə tibbi – sanitariya xidmətini genişləndirməkdə Ukrayna Çerkassı vilayətinin səhiyyə orqanlarına kömək etmək üçün Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığı və onun yerli orqanları yanında xüsusi komissiyalar təşkil edilmişdi. Bu komissiyalar Çerkassı vilayəti səhiyyə orqanlarına hazırladıqları müəyyən plan əsasında yardım göstərirdilər[2].

[1] Naxçıvan MSSR Səhiyyə Nazirliyinin arxivi. F.17, siyahı 3, qovluq 53, səh.40.

[2] Naxçıvan MSSR Səhiyyə Nazirliyinin arxivi. F.17, siyahı 2, qovluq 109, səh.75.

Müharibə dövrünün çətinliklərinə baxmayaraq, respublikada səhiyyə işlərinə ayrılan vəsait artdı. Bunu aşağıdakı cədvəldən görmək olar.

21-ci cədvəl

Naxçıvan MSSR-in səhiyyəsinin 1941-1945-ci illərə aid büdcəsi

Illər	Ilə təyin olunan vəsait (min manatla)
1941	6985,3
1942	5363,4
1943	5232,0
1944	5917,8
1945	7434,6
O vaxtkı valyuta məzənnəsi ilə	

Cədvəldən göründüyü kimi yalnız 1942-1943-cü illərdə büdcə bir qədər azalmışdır. Lakin artıq 1945-ci ildə 1941-ci ilə nisbətən büdcə vəsaiti 6,4% artmışdır.

Beləliklə, Böyük Vətən müharibəsi illərində ölkənin bütün səhiyyə işçiləri kimi Naxçıvan MSRR-nin tibb işçiləri də əmək cəbhəsində qəhrəmancasına çalışmış və sovet vətənpərvərliyinin timsalı olmuş, eyni zamanda, sovet xalqının alman faşizminə və yapon militaristlərinə çaldığı qələbə işində böyük xidmət göstərmişlər.

N Ə T I C Ə

1. Böyük Vətən müharibəsi Naxçıvan MSSR-in səhiyyə işçiləri üçün də böyük sınaq oldu. O illərdə qəhrəmancasına çalışaraq özlərini vətənpərvərlik nümunəsi kimi göstərdilər.

2. Müharibə illərində səhiyyə işçilərinin gərgin əməyi nəticəsində onlar bütün çətinlikləri aradan qaldırmaq üçün səylə çalışdılar. Tibb müəssisələrinin və çarpayıların sayı artdı.

3. Müharibənin ilk illərində Naxçıvan MSSR-i Xalq Səhiyyə Komissarlığı və onun yerli orqanları yanında yaradılan epidemiyaya qarşı fövqəladə komissiyalar respublikada sanitar – epidemiya əminamanlığına böyük kömək etdi. Kompleks tədbirlərin vaxtında həyata keçirilməsi nəticəsində müharibənin çox sərt illərində respublikanın əhalisi kütləvi epidemiyanı görmədi.

4. Müharibə illərində Naxçıvan MSSR-i Xalq Komissarlar Sovetinin çıxardığı qərarlar vərəmə qarşı mübarizənin müvəffəqiyyətlə aparılması işinə kömək etdi. Sənaye müəssisələrində işləyənlərə, Vətən müharibəsi əlillərinə, kolxozçulara göstərilən tibb xidmətin yaxşılaşdırılmasına, ana və uşaqların mühafizəsinə, kolxoz tibb bacılarının hazırlanmasına, sanitar maarifinin geniş yayılmasına şərait yaratdı.

4. Müharibə illərindən sonra bərpa və sosialist təsərrüfatının inkişafı dövründə Naxçıvan MSSR-də səhiyyə (1946 – 1953-cü illər)

Böyük Vətən müharibəsindən sonra sovet xalqının bütün gücü xalq təsərrüfatının bərpasına, onun gələcək inkişafına, sosializs quruluşunun başa çatmasına və tədriclə kommunizmə keçməyə yönəldi.

Naxçıvan respublikasının zəhmətkeşləri bütün sovet xalqları ilə birlikdə dinc quruculuq əməyə başladılar.

1946-cı ilin mart ayında SSRI Ali Soveti dördüncü beşillikdə 1946-1950-ci illərə aid bərpa və xalq təsərrüfatının inkişaf planını qəbul etdi. Naxçıvan MSSR-i üzrə səhiyyə planında nəzərdə tutulmuşdur ki, 1950-ci ildə çarpayıların sayı 1940-cı ildəki 399-dan 735-ə, daimi uşaq yaslilərində yerlərin sayı 247-dən 351-ə, feldşer – ambulator məntəqələrinin sayı 60-dan 107-yə, sanitar – epidemioloji stansiyaların sayı 1-dən 4-ə, qadın və uşaq məsləhətxanalarının sayı 3-dən 7-yə və s. çatdırılsın.[1]

Müharibə illərindən sonra respublikanın səhiyyə orqanlarının əsas vəzifəsi nəinki, səhiyyənin şəbəkəsini artırmaq, habelə tibbi xidmətin keyfiyyətini ixtisaslaşdırılmış növ xidmətini inkişaf etdirməklə təmin etməkdən ibarət idi.

Bu ərəfədə Naxçıvan şəhər poliklinikası respublika xəstəxanası ilə, Ordubad şəhər poliklinikası Ordubad şəhər xəstəxanası ilə, Culfa şəhər poliklinikası Culfa şəhər xəstəxanası ilə, Naxçıvan şəhər uşaq poliklinikası Naxçıvan şəhər uşaq xəstəxanası ilə birləşdirildi.[2]

Birləşmiş xəstəxanalarda xəstələrin müalicəsini yaxşılaşdırmaq və diaqnozun keyfiyyətini qaldırmaq məqsədilə diaqnostik laboratoriya, fizioterapevtik və rentgen kabinələri təşkil olundu.

[1] Naxçıvan MSSR-i MDA. F.17, siyahı 3, qovluq 101, səh.54.
[2] Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin arxivi, fond 27, siyahı 2, qovluq 152, səh.125.

Birləşmə müalicə işinin keyfiyyətini yaxşılaşdırdı, həkimlərin ixtisasını yüksəltdi, hansı ki, əvvəllər onlar yalnız ambulator şəraitində işləyirdilər.

Xəstəxanada işləyən həkimlər isə poliklinikalarda xəstə qəbul etməklə evlərdə də yardım edirdilər. Belə xidmətin göstərilməsi həkimlərə imkan verirdi ki, onlar xəstəliyin poliklinika şəraitində və sahədə erkən stadiyası ilə daha dərindən tanış olsunlar. Bu xəstəxanadan kənarda köməyin keyfiyyətini yüksəldirdi.

1949-cu ilin fevralında Naxçıvan vərəm xəstəxanası vərəm dispanseri ilə birləşdirildi. Doğum evləri rayon xəstəxanaları ilə onun şöbəsi kimi (rayon mərkəzlərində), onkoloji və zöhrəvi məntəqələr ambulatoriyalar (poliklinikalar) ilə kabinet kimi, süd mətbəxləri uşaq-qadın məsləhətxanaları ilə, qanköçürmə məntəqəsi Naxçıvan respublika xəstəxanası ilə birləşdirildi.[1]

1946-cı ilin mart ayında Xalq Səhiyyə Komissarlığı nazirliyə çevrildi.

1946-cı ilin martında əhaliyə onkoloji xidmət göstərmək üçün Naxçıvan şəhər poliklinikasının nəzdində onkoloji kabinet açılır. Respublika xəstəxanasının ümumi çarpayılarının hesabına 20 çarpayı onkoloji xəstələr üçün ayrılır.[2]

Bir vaxtdan sonra (may 1947) Ordubad şəhər, Şərur rayon xəstəxanalarında hər birində 5 çarpayı olmaqla onkoprofilaktik çarpayı ayrılır, bu rayonların poliklinikalarında isə onkoprofilaktik kabinetlər təşkil edilir.

Onkoloji xəstəliklərlə mübarizə və müalicə 1951-ci ildən (sentyabr) Naxçıvan şəhərində təşkil edilmiş respublika onkoloji dispanserində aparılır.

Respublikada onkoloji dispanserin rəhbərliyi altında respublikanın rayon və kənd xəstəxanaları xənçəng

[1] Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin arxivi, fond 27, siyahı 2, qovluq 173, səh.11.
[2] Yenə orada, qovluq 128, səh.25.

xəstəliyinin erkən formasını aşkara çıxartmaq məqsədilə əhalinin kütləvi profilaktik müayinəsini aparmağa başladılar.

Respublikada vərəm xəstəliyinə qarşı mübarizə tədbirlərini genişləndirmək məqsədilə Ordubad, Culfa və Şərur rayonlarına hərəsinə 5 vərəm çarpayısı ayrıldı.

Naxçıvan şəhər doğum evində, rayon xəstəxanalarının doğum şöbələrində yeni doğulanlara vərəm əleyhinə məcburi vaksinasiya aparılması, habelə uşaq kontingentinin kütləvi vaksinasiya edilməsi həyata keçirildi.

Vərəmin erkən diaqnozunu təyin etmək məqsədilə uşaq bağçalarında və məktəblərdə uşaqların, uşaq müalicə – profilaktika idarələrində, habelə ictimai yeməkxanalarda işləyənlərin hər il müayinəsinə başlanıldı.

Müharibə illərindən sonra zöhrəvi xəstəliklərlə mübarizəyə böyük diqqət yetirildi. Culfa rayonunda zöhrəvi dispanser, Şərur, Əbrəqunus və Şahbuz rayonlarında isə zöhrəvi məntəqələr təşkil edildi. Göbələk xəstəliyinə görə kütləvi müayinəyə başlanıldı.

1947-ci ildə respublikanın əhalisinin 40%-i, 1952-ci ildə isə 70%-i göbələk xəstəliyinə görə müayinə edildi. Aşkar olunan xəstələr müalicəyə cəlb edildilər.

Zöhrəvi xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi nəticəsində 1952-ci ildə sifilisin aktiv forması kəskin aşağı düşdü. 1946-cı ilə nisbətən xəstəlik demək olar ki, 4 dəfə azaldı.

1946-53-cü illərdə bədən tərbiyəsi idarələrinin inkişafına da xüsusi diqqət yetirilirdi.

1949-cu ilin dekabrında respublika birləşmiş xəstəxananın poliklinika şöbəsində bədən tərbiyəsi kabineti açıldı, bir qədər sonra (avqust 1950-ci il) bu kabinet bədən tərbiyəsi dispanserinə çevrildi.

Müharibə illərindən sonra respublikada tibb müəssisələrinin şəbəkəsi inkişaf etdi və böyüdü. Xəstəxanalar və onlarda çarpayıların sayı artdı. Bunu aşağıdakı cədvəldən görmək olar.

22-ci cədvəl

Naxçıvan MSSR-də 1945-1953-cü illərdə xəstəxana müəssisələrinin və onlarda çarpayıların sayı

Illər	Xəstəxana müəssisələri			Xəstəxana çarpayılarının sayı		
	Şəhər	Kənd	Cəmi	Şəhər	Kənd	Cəmi
1945	9	7	16	420	90	510
1946	9	10	19	420	119	539
1947	9	10	19	420	122	542
1948	9	12	21	420	137	557
1949	10	13	23	450	148	598
1950	10	16	26	450	187	637
1951	12	19	31	480	205	685
1952	14	19	33	495	210	705
1953	14	20	34	495	225	720

Göründüyü kimi 1953-cü ildə xəstəxana müəssisələrinin sayı 1945-ci ilə nisbətən iki dəfə, çarpayıların sayı isə 41,3% artmışdır.

Çarpayı fondundan istifadə olunması da yaxşılaşdı. 1945-ci ildə çarpayılar 132,4 gün işlədiyi halda 1953-cü ildə bu göstərici 225,7 gün olmuşdur. Şəhər xəstəxanalarına qəbul edilən kənd sakinlərinin sayı müqayisə edilən illərdə 2 dəfə artmışdır.

1945-53-cü illərdə xəstəxanaların və onlarda olan çarpayıların sayı, xüsusilə kənd yerlərində artmışdır. Belə ki, kənd xəstəxanalarının sayı 1945-ci ildəki 7-dən 1953-cü ildə 20-yə, çarpayıların sayı eynilə 90-dan 225-ə çatmışdır. Başqa sözlə müqayisəli illərdə xəstəxanaların sayı demək olar ki, 3 dəfə, çarpayıların sayı isə 2,5 dəfə artmışdır.

Çarpayıların artması ilə bərabər ixtisaslı tibbi yardım da artmışdır. Bu ondan irəli gəlir ki, xəstəxanalarda ixtisaslaşdırılmış müxtəlif şöbələr fəaliyyət göstərmişdir. Terapevtik və uşaq çarpayıları 65,9%, cərrahi – 54,0%, göz – 37,5%, doğuş və ginekoloji – 18,0%, vərəm – 10,0% artmışdır.

Həmçinin onkoloji çarpayılar respublika dispanserində açılmışdır.

Müharibə illərindən sonra səhiyyə kənd yerlərində intensiv inkişaf etdi. Müalicə – profilaktika şəbəkəsi ilbə-il artdı, kənddə həkimlərin sayı çoxaldı, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti yaxşılaşdı, rayon xəstəxanaları möhkəmləndi, kənd əhalisinə tibbi xidmətin ixtisaslaşdırılmış növü təkmilləşdi.

Rayon xəstəxanaları təşkilatı mərkəz kimi əhaliyə ixtisaslaşdırılmış tibbi xidmətin geniş surətdə göstərilməsini təmin etməklə kənd sahə xəstəxanalarının müalicə – profilaktika işlərinə, həm də rəhbərlik edirdi.

Respublika xəstəxanası təşkilatı – metodik mərkəz kimi bir tərəfdən rayon xəstəxanalarının işinin keyfiyyətinin qaldırılmasına, o biri tərəfdən kənd əhalisinə yüksək ixtisaslı müalicə göstərilməsinə yaxından köməklik edirdi.

Tarla işlərinin vaxtında kənd əhalisinə tibbi köməyi yaxınlaşdırmaq və yaxşılaşdırmaq üçün respublikanın şəhərlərindən vaxtaşırı ixtisaslaşdırılmış briqadalar kəndlərə göndərilirdi. Briqadaların tərkibində terapevt, cərrah, ftiziatr, veneroloq, sanitar həkim, ginekoloq, göz həkimi və başqaları olurdu.

Naxçıvan MSSR-də müharibə illərindən sonra tibbi şəbəkənin artması ilə bərabər tibbi kadrların sayı da çoxalmışdır.[1]

[1] Azərbaycan SSR-i Səhiyyə nazirliyinin arxivi, F.1, siyahı 1, qovluq 66-79, səh.17-105.

23-cü cədvəl

Naxçıvan MSSR-də 1945-1952-ci illərdə
tibbi kadrların artması haqqında

Illər	Həkimlərin sayı (diş həkimlərsiz)			Orta tibb işçilərinin sayı		
	Şəhər	Kənd	Cəmi	Şəhər	Kənd	Cəmi
1945	38	16	54	64	138	202
1946	52	16	68	119	158	277
1947	67	30	97	123	178	301
1948	81	35	116	160	224	384
1949	95	22	117	203	207	410
1950	107	24	131	235	223	458
1951	102	21	123	211	217	428
1952	109	19	128	281	227	508

Göstərilən rəqəmlərdən aydın olur ki, 1952-ci ildə həkimlərin sayı 1945-ci ilə nisbətən 2,4 dəfə, orta tibb işçilərinin sayı 2,5 dəfə artmışdır.

Tibb işçilərinin ixtisaslaşması və təkmilləşməsinə də daim diqqət verilirdi.

Təkcə 1947-ci ildə 23,0%-dən çox həkim cürbə-cür ixtisaslaşma və təkmilləşmə kurslarında olmuşlar.

Orta tibb işçilərini hazırlamaq üçün və dezinfektorları, banifikatorları və xinizatorları təkrar hazırlamaq üçün qısa müddətli kurslar təşkil edilirdi.[1]

Naxçıvan MSSR-i səhiyyə orqanları müharibə illərindən sonra ana və uşaqların mühafizəsinin yaxşılaşması üçün geniş tədbirlər həyata keçirdilər. 1948-ci ilin oktyabr ayında kolxozçu hamilə qadınların səhhətinin qorunması məqsədilə kolxoz doğum evləri təşkil edildi.[2]

Uşaq çarpayılarının sayı 1953-cü ildə 1945-ci ilə nisbətən 1,7 dəfə, doğum çarpayılarının sayı 1,3 dəfə, o

[1] Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin arxivi, f.17, siyahı 2, qovluq 153, səh.65.
[2] Yenə orada.

cümlədən kənd yerlərində – 2,4 dəfə artmışdır. 1953-cü ildə daimi yaslilərin sayı 1945-ci ilə nisbətən 9-dan 14-ə, onlarda olan yerlərin sayı eyni ilə 1,3 dəfə çox olmuşdur.

1947-1949-cu illərdə Naxçıvan şəhərində yeni qadın məsləhətxanası, Ordubad, Culfa və Şahbuz rayonlarında isə uşaq və qadın məsləhətxanaları təşkil olundu. Bu illərdə fəaliyyət göstərən feldşer və mama məntəqələri birləşdirilərək feldşer-mama məntəqəsi adlandırıldı.

Belə dəyişiklik tibbi yardımın, xüsusən uşaqlara və qadınlara göstərilən köməyin yaxşılaşdırılmasına səbəb oldu. Bundan başqa feldşer-mama məntəqələrinin sayı artdı. 1953-cü ildə artıq respublikada belə məntəqələrin sayı 54-ə çatdı.

1953-cü ildə uşaq və qadın müəssisələrinin sayı 1945-ci ilə nisbətən 2 dəfə artdı. 1953-cü ildə artıq hər rayonda uşaq və qadın məsləhətxanaları var idi. Bundan başqa Naxçıvan uşaq xəstəxanasında ixtisaslaşdırılmış kabinələr: - burun-qulaq-boğaz, nevroloji, dəri və göz xəstəlikləri – təşkil edilir.

Uşaqlara göstərilən müalicə – profilaktika xidmətini daha da yaxşılaşdırmaq məqsədilə rayon uşaq məsləhətxanalarında çalışan həkim – pediatrlar ambulatoriyada böyük yaşlı uşaqları qəbul etməyə başladılar və bütün yaşlardan olan uşaqlara stasionarda xidmət etdilər. Həkim ginekoloqlar hamilə və xəstə qadınlara qadın məsləhətxanalarında qəbul təşkil etdilər, həmçinin doğum şöbələrində işləyərək ginekoloji xəstələrə stasionarda kömək göstərdilər.

1948-50-ci illərdə səhiyyə büdcəsinin artması əsasən o illərdə respublikada tikilən səhiyyə obyektlərinin hesabına olmuşdur. Bu illərdə Ordubad şəhərində uşaq yaslisi, Noraşen rayonunun (indiki Şərur) Qarabağlar kəndində kənd xəstəxanası, Naxçıvan şəhərində həkimlər üçün yaşayış binası tikildi. Habelə Batabat yaylağında yerli sağlamlaşdırıcı «meydança» – istirahət evi tikilib istifadəyə verildi.[1]

[1] Naxçıvan MSSR-i səhiyyə nazirliyinin arxivi, F.17, siyahı 3, qovluq 135, səh.80.

Müharibə illərindən sonra sanitar – epidemioloji stansiyalar qarşısında çox vacib məsələlər dururdu: - yoluxucu xəstəlikləri kəskin aşağı salmaq, yoluxucu xəstələrin hamısını xəstəxanaya cəlb etmək, yeyinti və kommunal və uşaq müəssisələri üzərində ciddi sanitar nəzarəti aparmaq və profilaktik tədbirlərin geniş miqyasda aparılmasına nail olmaq.

Bu illər ərzində Naxçıvan MSSR-də sanitar – epidnmioloji stansiyalar şəbəkəsi böyüdü və möhkəmləndi. Sanitar -–epidemioloji stansiyaların sayı 2-dən 6-ya çatdı. Beləliklə 1953-cü ildə respublikanın bütün rayonlarında sanitar – epidemioloji stansiyalar, onların nəzdində sanitar – bakterioloji laboratoriyalar fəaliyyət göstərirdi. Rayon sanitar – epidemioloji stansiyalar kompleks tədbirlər həyata keçirməyə başladılar.

Naxçıvan MSSR-i Xalq Səhiyyə Komissarlığı sanitar idarələrinə rəhbərliyi gücləndirmək, epidemiya əleyhinə və profilaktik tədbirlərin vaxtında həyata keçirilməsinə nəzarət etmək məqsədilə 1946-cı ilin mart ayının 8-də 27№-li əmr verdi. Bu əmrə əsasən respublikada bütün sanitar – epidemiya əleyhinə aparılan işin ümumi rəhbərliyi Baş Dövlət Sanitar müfəttişinə – Naxçıvan MSSR-i Xalq Səhiyyə komissarının müavininə həvalə edilir.[1]

1946-cı ildə səhiyyə nazirliyinin apparatına 2 vahid ştat – kommunal və qida sanitariyaları üzrə Böyük Dövlət Sanitar müfəttişi və bir Böyük Dövlət Sanitar müfəttişinin köməkçisi ştatı verilir.

1947-ci il mart ayında deratizasiya (gəmiricilərə qarşı) tədbirləri həyata keçirmək və əhali arasında yoluxucu xəstəliklərin qarşısını almaq məqsədilə respublika sanitar -–epidemioloji stansiyasında deratizasiya dəstəsi təşkil olundu.

1948-ci ildə sanitar – epidemioloji stansiyalarda yeni nomenklatura təsdiq olundu. Şəhər və kəndlərin abadlaşdırılması üçün geniş sağlamlaşdırma tədbirləri

[1] Naxçıvan MSSR-i səhiyyə nazirliyinin arxivi, F.17, siyahı 2, qovluq 128, səh.26.

aparıldı. Bir çox kəndlərdə kəhrizlər təmir olundu, rayon mərkəzlərində yeni su kəmərləri çəkildi.

1953-cü ildə sanitar – epidemioloji stansiyalarda işləyən həkimlərin sayı 1945-ci ilə nisbətən demək olar ki, 4 dəfə artdı. Onlarda yüksək ixtisaslı mütəxəssislər - sanitar həkimlər, epidemioloqlar, bakterioloqlar, parazitoloqlar və başqaları işləməyə başladılar. Habelə burada işləyən orta tibb işçilərinin də sayı artdı.

Əhali arasında geniş profilaktik peyvəndlər aparıldı.

24-cü cədvəl

1946-1953-cü illərdə əhali arasında aparılan profilaktik peyvəndlər haqqında məlumat[1]

İllər	Çiçək əleyhinə		Qarın yatalağına qarşı	Dizenteriya-ya qarşı	Difteriyaya qarşı		Vəbaya qarşı
	Vaksi-nasiya	Revak-sinasiya			Vaksi-nasiya	Revak-sinasiya	
1945	10970	22353	18035	18031	11838	4563	Məlu-mat yoxdur
1946	20866	13892	26707	35227	7263	7675	3803
1947	5454	23739	22813	34255	8041	10286	5548
1948	4568	17034	24002	26785	10140	8174	6040
1949	7270	82607	29734	29734	7716	9109	8191
1950	3448	14776	8006	30241	3263	3638	19641
1951	7054	19669	28524	30826	5759	2734	597
1952	7379	17417	21462	24817	9947	3954	-
1953	7034	9697	5389	15389	10450	4801	1492

Naxçıvan MSSR-də əhalinin maddi və mədəni həyat tərzinin yüksəlməsi, yoluxucu xəstəliyin müalicə və profilaktikası üçün yeni dərman preparatlarının təcrübədə tətbiqi nəticəsində yoluxucu xəstəliklərin -–paratif, səpgili və qayıdan yatalaq, difteriya, qara yara, malyariya, sifilis və başqa xəstəliklərin azalmasına səbəb oldu.

[1] Naxçıvan MSSR-i səhiyyə nazirliyinin 1945-53-cü illərə aid illik hesabat materialları.

Profilaktik işin həyata keçirilməsi əhalinin, xüsusən kənd əhalisinin dispanserizasiyası ilə səciyyələnir. Tibbi

yardımın dispanser metodu əhalinin sağlamlıq vəziyyətini müntəzəm olaraq müşahidə etməyə imkan verir.

Tibb müəssisələri əhalinin kütləvi müayinəsini aparırdılar, aşkar olunan xroniki qrip xəstələri hesaba götürüb, onları vaxtaşırı nəzarətdə saxlamaqla səhhətləri ilə maraqlanır, lazım gəldikdə onlara tibbi yardım göstərməklə işə düzəlmələrinə də köməklik göstərirdilər.

1947-ci ildə respublika əhalisinin 83,0%-i malyariyaya, 45,0%-i göbələk xəstəliyinə, 27,0%-i traxomaya qarşı müayinə edilmişdir.

Aşkar olunan xəstələrə müvafiq müalicə aparılması qeyd olunub. Lakin bu işdə bir çox çətinliyə və nöqsanlara rast gəlinib. Bir neçə rayonda (Naxçıvan və Noraşen) epidemik xəstəliklərə qarşı mübarizə zəif aparılıb, bəzi yerlərdə yoluxucu xəstələrin 100%-i xəstəxanaya cəlb edilməsi təmin olunmayıb, hələ də xəstəlik ocaqlarında sanitar təmizləmə işi qaneedici olmayıb. Bunun nəticəsində müharibədən sonrakı illərdə Naxçıvan və Noraşen (Şərur) rayonlarında bir sıra yoluxucu xəstəliklərin baş verib yayılması olmuşdur. Buna misal, qarın yatalağını, qızılcanı, skarlatinanı, dizenteriyanı, epidemik hepatiti, göy öskürəyi və başqalarını göstərmək olar.

Əhali arasında sanitar maarifi geniş inkişafını tapır. Sanitar maarifinin şurası təsdiq olunur.

Respublika sanitar maarif evində mühazirə bürosu və mühazirəçilər qruppası təşkil edilir. Səhiyyənin yenidən qurulması və əhalinin müalicə – profilaktika xidmətinin keyfiyyəti uğrunda mübarizədə sanitar, maarif işinin əhəmiyyətini daha da yüksəltdi. Işin məzmunu dəyişdi, tematikalar çox sahəli oldu. Sahələrdə, poliklinika şöbələrində və stasionarda sanitar maarifini geniş yaymaq üçün kompleks plan tərtib edildi və həyata keçirildi.

Ambulatoriya və poliklinikaların uyğun xəstəxanalarla birləşdirilməsindən (1948-49) sonra birləşmiş xəstəxanalarda sanitar maarifi kabinələri təşkil edildi, balaca sanitar maarif punktları isə ləğv edildi.

Qırmızı Aypara Cəmiyyətinin fəaliyyəti başlıca olaraq əhaliyə tibbi xidmətin yaxşılaşdırılması işində, xəstəliyin və travmatizmin aşağı salınması ilə mübarizədə, kütləvi

profilaktik tədbirlərin həyata keçirilməsində səhiyyə orqanlarına kömək göstərməyə yönəldilir. Tibbi kadrların və sanitar fəallarının hazırlanmasında da kömək göstərir.

1949-cu ildə Naxçıvan MSSR-i Qırmızı Aypara Cəmiyyəti xətti ilə 25 tibb bacısı, 55 nəfərdən ibarət sanitar dəstələri, 225 sanitar gözətçilərinin rəhbərləri, 625 sanitar fəalları, 8500 SMH nişançı və 524 SMHO nişançı hazırlandı.

Naxçıvan respublikasında Bakıdan vaxtaşırı gələn Azərbaycan elmi-tədqiqat institutuları elmi konfranslar keçirirdilər. Gələnlər arasında olan professorlar və yüksək ixtisaslı mütəxəssislər yerli həkimlərə məsləhətlər verirdilər, lazım gələndə isə xəstələrə ixtisaslı tibbi yardım göstərirdilər.

N Ə T I C Ə

1. Müharibə illərindən (1946-1953) sonra Naxçıvan MSSR-də müalicə – profilaktika şəbəkəsi tibbi kadrlar və səhiyyənin büdcəsi durmadan artdı. 1953-cü ildə 1946-cı ilə nisbətən xəstəxanaların sayı 2,1 dəfə, onlarda olan çarpayıların sayı 1,4 dəfə, xüsusən ixtisaslaşdırılmış çarpayıların sayı artmışdır. 1953-cü ildə həkimlərin sayı 1946-cı ildəkinə nisbətən 2,4 dəfə, orta tibb işçilərinin sayı 2,5 dəfə artmışdır. Səhiyyənin material texniki bazası möhkəmlənmişdir. Tibb obyektləri (xəstəxanalar, uşaq yasliləri və s.) tikildi, səhiyyə büdcəsi 1953-cü ildə 1946-cı ilə nisbətən 2 dəfə artdı.

2. 1953-1946-cı illərdə respublikanın bütün rayonlarında uşaq-qadın məsləhətxanaları, rayon sanitar epidemioloji stansiyalar – onların nəzdində bakterioloji laboratoriyalar təşkil olundu. Bir çox birləşmiş xəstəxanalarda ixtisaslaşdırılmış şöbələr, poliklinikalarda (ambulatoriyalarda) isə ixtisaslaşdırılmış kabinələr təşkil edildi.

3. Respublika əhalisinə tibbi yardımın keyfiyyəti yaxşılaşdı: - çarpayı fondunun istifadəsi, ixtisaslaşdırılmış tibbi xidmətin, xüsusi ilə kənd əhalisinə göstərilməsi genişləndi.

4. Naxçıvan MSSR-i hökumətinin vərəmə, traxomaya, malyariyaya, zöhrəvi və başqa yoluxucu

xəstəliklərə qarşı mübarizə aparmaq haqqında çıxardığı qərarlar xəstəliklərlə mübarizəni gücləndirdi.

5. SIKP XIX qurultayından sonra profilaktika tədbirləri əsaslı sürətdə genişləndirildi. Sanitar maarifinin tədbirləri, onların məzmunu dəyişildi. Respublikada Qırmızı Aypara Cəmiyyəti zəhmətkeşlərin sağlamlığı uğrunda apardığı mübarizədə əhalinin sanitar mədəniyyətinin yüksəlməsi sahəsində böyük işlər gördü.

5. Xalq təsərrüfatının daha da inkişafı və kommunizm cəmiyyətinin quruculuğunun genişlənməsi dövründə Naxçıvan MSSR-də səhiyyə (1953-1965-ci illər)

1953-1965-ci illərdə ölkədə bütün iqtisadi və ictimai – siyasi həyatda nailiyyətlər əldə edildi.

Sovet xalqlarının həyata keçirdiyi tədbirlər sovet cəmiyyətinin və dövlət quruluşunun gələcək inkişafına, güclü sənayenin, hər şeydən əvvəl ağır sənayenin inkişafına, kənd təsərrüfatının kəskin yüksəlməsinə, zəhmətkeşlərin rifah halının yaxşılaşmasına səbəb oldu.

Bütün əldə edilən nailiyyətlər SSRI xalq təsərrüfatının beşinci, altıncı beşillik və yeddiillik inkişaf planının müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində olmuşdur. Bu illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının, iqtisadiyyatın və mədəniyyətin ümumi inkişafı ilə yanaşı xalq səhiyyəsi də inkişaf etmişdir. Yüksək templə tibb idarələrinin və həkim kadrlarının sayı artdı. Əhalinin tibb xidmətinin yaxşılaşdırılması üçün xeyli iş görüldü. Kənd yerlərində səhiyyənin inkişafına diqqət daha çox artdı. Xəstəxanaların, poliklinikaların (ambulatoriyaların), dispanserlərin texniki təchizatı və onların dərman preparatları ilə təmin edilməsi işində böyük irəliləyiş oldu. Şəhər və rayon xəstəxanaları rentgen, fizioterapiya aparatları ilə, müasir alətlərlə (cihazlarla) və başqa əmlaklarla təchiz edilməsi üçün böyük iş görüldü.

1959-cu ildə Sovetlər ölkəsində yeni inkişaf dövrü – kommunizm cəmiyyətinin quruculuğunun genişlənməsi dövrü başlandı.

SIKP-nın növbədən kənar XIX qurultayı 1959-1969-cu illər üçün SSRI xalq təsərrüfatının yeddiillik planını təsdiq etdi. Planda iqtisadiyyatın gələcəkdə daha da qaldırılması, mədəni və maddi rifah halının yaxşılaşdırılması məsələləri nəzərdə tutulmuşdur.

Naxçıvan MSSR-i Səhiyyə naziri T.Sultanovun qeyd etdiyi kimi Naxçıvan MSSR-də xalq təsərrüfatının yeddiillik planına uyğun olaraq respublikada 1959-1965-ci illərdə səhiyyənin inkişafına aid yeddiillik plan tərtib olundu. Planda gələcəkdə tibb müəssisələrinin, xəstəxana çarpayılarının sayını

artırmaq, uşaq və qadın məsləhətxanalarının, uşaq xəstəxanalarının şəbəkəsini genişləndirmək, xəstəxanaların tikintisi üçün vəsaiti artırmaq və s. nəzərdə tutulurdu. Planda habelə, respublikada gələcəkdə xəstələrin, ümumi və uşaq ölümünün aşağı salınması da nəzərdə tutulmuşdur.

Yeddiillik ərzində müalicə – sağlamlaşdırma müəssisələrinin tikilməsi üçün 1.100.000 manat sərf olunması nəzərdə tutulmuşdur.

Perspektiv plana əsasən Naxçıvan şəhərində 75 çarpayılıq vərəm xəstəxanası, 100 çarpayılıq doğum evi, 50 çarpayılıq psixonevroloji xəstəxana, 20 çarpayılıq radioloji şöbə, 180 yerlik körpələr evi və uşaq baxçası, II dərəcəli təcili tibbi yardım stansiyası, Ordubad şəhərində 50 çarpayılıq vərəm dispanseri, Noraşen rayonunda 100 çarpayılıq rayon xəstəxanası tikiləcəkdir; Badamlı (Şahbuz rayonu) və Sirab (Naxçıvan rayonu) kəndlərində hərəsi 100 çarpayılıq sanatoriyalar və 100 yerlik pansionlar tikilməsi nəzərdə tutulmuşdur.

1953-1965-ci illərdə Naxçıvan MSSR-də əhaliyə ambulator – profilaktika köməyi göstərən müəssisələrin sayı artdı. Əgər 1953-cü ildə tibb müəssisələrinin sayı 36 (onlardan 16 şəhərdə, 20 kənd yerlərində) olmuşdursa, 1965-ci ildə onların sayı 50-yə (21 və 29) qədər artmışdır.

Ambulator – poliklinika müəssisələrinin artması ilə yanaşı ambulator tibbi yardımın həcmi şəhərlərdə olduğu kimi kənd yerlərində də nəzərə çarpacaq dərəcədə artdı.

25-ci cədvəl

Naxçıvan MSSR-də 1953-65-ci illərdə həkimlərə gəlişlərin sayı, profilaktik gəlişlər də daxil olmaqla (diş həkimlərinə gələnlərsiz)

	1953			1965		
	şəhər	kənd	cəmi	şəhər	kənd	cəmi
Həkimlərə gəlişin sayı (1 nəfər sakinə)	7,7	0,4	2,4	10,0	1,1	3,3
Həkim müəssisələrində, feldşer, feldşer-mama və başqa məntəqələrdə orta tibb işçilərinə gəlişlərin sayı (1 nəfər sakinə)	-	3,8	3,8	-	4,1	4,1
Gəlişlərin ümumi sayı (həkim və orta tibb işçilərinə)	7,7	4,2	5,2	10,0	5,2	6,4

Cədvəldən göründüyü kimi respublikada həkimlərə gəlişlərin orta sayı (bir nəfər sakinə) 1953-cü ildəki 2,4 gəlişdən 1965-ci ildə 3,3 gəlişə qədər çoxalmışdır. O cümlədən şəhər əhalisinə eyni ilə 7,7-dən 10-a gəliş, kənd əhalisinə 0,4-dən 1,1-ə gəliş olmuşdur.

1953-cü ildən respublikada xəstəxana müəssisələrinin sayı və xəstəxana çarpayılarının sayı xeyli artmışdır. Xəstəxana çarpayıları ilə təmin 1953-cü ildə 1000 nəfərə 6,7 çarpayıdan (o cümlədən şəhər yerlərində 17,0-dan və kənd yerlərində 2,8-ə) 1965-ci ildə 8,2-yə (o cümlədən şəhər yerlərində 21,1-ə, kənd yerlərində 3,8-ə) qədər artmışdır.

Aşağıda xəstəxana müəssisələrinin və çarpayıların artımı illərlə göstərilib.

26-cı cədvəl

Naxçıvan MSSR-də xəstəxana müəssisələrinin
və onlarda çarpayıların sayı

Illər	Xəstəxana müəssisələri			Xəstəxana çarpayılarının sayı		
	Şəhər-lərdə	Kənd-lərdə	cəmi	Şəhər-lərdə	Kənd-lərdə	cəmi
1953	14	20	34	495	225	720
1954	15	21	36	515	235	750
1955	15	22	37	515	235	750
1956	15	23	38	515	250	765
1957	15	23	38	580	265	845
1958	14	24	38	575	280	855
1959	15	24	39	585	285	870
1960	15	25	40	585	315	900
1961	15	25	40	730	335	1065
1962	15	25	40	770	370	1140
1963	16	27	43	820	450	1270
1964	19	28	47	905	475	1380
1965	21	30	51	970	525	1495

Cədvəldən göründüyü kimi 1965-ci ildə xəstəxana müəssisələrinin sayı 1,5 dəfə, onlarda olan çarpayıların sayı isə eyni illərdə 2 dəfədən çox artmışdır.

1953-cü ilə nisbətən 1965-ci ildə ixtisaslaşdırılmış çarpayıların sayı da artmışdır. Məsələn, terapevtik çarpayıların sayı 4 dəfədən çox, ginekoloji – 2 dəfə, yoluxucu – 2,5 dəfə, vərəm – 2,5 dəfə, doğum – 2,0 dəfə, cərrahi – 1,3 dəfə onkoloji – 2,5 dəfə, göz – 1,5 dəfə artmışdır.

Çarpayı fondunun istifadə göstəricisi respublika üzrə 1953-cü ildəki 225,7 gündən 1965-ci ildə 251,4 günə qədər böyümüşdür.

1953-cü ilə nisbətən xəstəxanalara daxil olan xəstələrin sayı 1965-ci illə müqayisədə 2 dəfə artmışdır. Belə ki, əgər 1953-cü ildə respublikanın stasionarlarına 13230 xəstə (o cümlədən şəhər stasionarlarına 8590, kənd stasionarlarına 4640 xəstə) daxil olmuşdursa, 1965-ci ildə 27015 xəstə (o cümlədən şəhərlərdə 16869, kəndlərdə 10146 xəstə) daxil olmuşdur.

Sovet hökuməti tibb işçilərinin güzəranının yaxşılaşması üçün daima diqqət yetirirdi.

1955-ci ildə SSRI nazirlər soveti tibb işçilərinin əmək haqqlarının artırılması haqqında qərar verdi. Bu qərar tibb işçilərinin maraqla işləmələrinə, əhaliyə daha əzmlə xidmət etməyə ruhlandırdı.

1953-1965-ci illərdə respublikada tibb işçilərinin sayı xeyli artdı və onların hazırlığının keyfiyyəti yüksəldi.

27-ci cədvəl

Naxçıvan MSSR-də 1953-1965-ci illərdə
tibbi kadrları haqqında məlumat

Illər	Həkimlərin sayı (diş həkimlərsiz)			Orta tibb işçilərinin sayı		
	şəhərdə	kənddə	cəmi	şəhərdə	kənddə	cəmi
1953	100	15	115	285	256	541
1954	101	23	124	255	297	552
1955	100	21	121	336	290	626
1956	108	24	132	425	373	798
1957	124	21	145	454	409	863
1958	131	24	155	499	413	912
1959	130	29	159	500	391	891
1960	128	32	160	488	445	933
1961	135	34	169	475	467	942
1962	137	31	168	494	460	954
1963	139	31	170	498	451	949
1964	144	33	177	481	481	962
1965	156	35	191	539	437	976

Cədvəldən göründüyü kimi 1965-ci ildə 1953-cü ilə nisbətən həkimlərin sayı 1,6 dəfə, orta tibb işçilərinin sayı isə 1,8 dəfə artmışdır.

Respublikada habelə mütəxəssis həkimlərin sayı da çoxaldı. Bu müddətdə stomatoloqların sayı – 7 dəfə, ftiziatorların – 3 dəfə, cərrahların (xüsusən, onkoloqları və travmatoloqları əlavə etməklə) -–2 dəfə, pediatrların – 1,7 dəfə, göz həkimlərinin – 1,2 dəfə, terapevtlərin (fizioterapevtləri, infeksionistləri əlavə etməklə) – 1,5 dəfə,

həkim – gigiyenistlərin (sanitar həkimlərin, epidemioloqların, bakterioloqların və s.) – 1,2 dəfə artdı

Respublikada tibb müəssisələrinin həkim və orta tibb işçiləri ilə təmin olunması dərəcəsi göstərdi ki, 1965-ci ildə həkim kadrlarla təminat 82,2%, orta tibb işçiləri ilə təminat 90,1% olmuşdur.

Respublikada tibb işçilərinin təkmilləşməsi və ixtisaslaşması sahəsində xeyli iş görülmüşdür. Hər il həkimlərin 8-10%-i, orta tibb işçilərinin 5-6%-i müxtəlif təkmilləşdirmə institutlarında və orta tibb məktəblərində öz ixtisasını artırır. Onlardan çoxu Moskvanın, Leninqradın, Kiyevin, Bakının, Xarkovun şəhərlərində institutlarda təkmilləşmə və ixtisaslaşma kurslarını keçmişdir. Bundan başqa həkim və orta tibb işçiləri hər il öz ixtisaslarını cürbə-cür seminarlarda, iş yerlərində və s. artırmışlar. Məsələn, Naxçıvan şəhərində şəhər doğum evinin bazasında kənd mamalarının ixtisasını artırmaq üçün ay yarımlıq kurslar, respublika traxoma dispanseri bazasında həkimlər üçün traxomanın profilaktikası və müalicəsi məsələsinə aid seminar məşğələsi təşkil edilmişdir.

1953-1965-ci illər ərzində Naxçıvan tibb məktəbi 400-dən çox orta tibb təhsilli ixtisasçı hazırlamışdır ki, onlar da respublikanın şəhər və kənd tibb müəssisələrində işə düzəlmişlər.

Kənd əhalisinə tibbi xidməti yaxşılaşdırmaq məqsədilə Naxçıvan MSSR-i şəhərlərindən həkim və mamalar kənd yerlərinə göndərilirdi.[1]

Respublikanın rayon və kənd xəstəxanalarına, feldşer-mama məntəqələrinə və başqa müalicə – profilaktika müəssisələrinə metodiki və praktiki kömək göstərmək üçün Naxçıvan şəhər müalicə – profilaktika müəssisələri tərəfindən şef köməyi təşkil olunmuşdur.

Köçəri heyvandarlara və maldarlara tibbi yardım göstərmək üçün səhiyyə orqanları demək olar ki, hər bir yaylaqda və qışlaqda həkim və feldşer səhiyyə məntəqəsi

[1] Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin arxivi, F.17, siyahı 2, qovluq 221, səh.19, 80.

təşkil edirlər. Bundan başqa qışlaqlarda mümkün olan yerlərdə artezian quyusu vururlar, evlər tikirlər. Kənd təsərrüfatının tarla işləri vaxtında kənd əhalisinə tibbi kömək göstərmək məqsədilə hər il respublikanın şəhərlərindən ixtisaslı həkim briqadaları, onların tərkibində təcrübəli mütəxəssislər göndərilib.

Kənd əhalisinin dispanserizasiyası davam etdirilib. Kolxoz kəndlisinin kütləvi profilaktik müayinəsi geniş həyata keçirilib.

Naxçıvan MSSR-i Səhiyyə naziri Hüseyn Abbasov 1954-cü ildə noyabr ayının 29-da 202№-li «Naxçıvan MSSR-i kənd əhalisinin dispanserizasiyasının tədbirləri haqqında» əmr verib.[1]

Bu əmr respublikada kənd əhalisinin dispanserizasiyasının daha da geniş miqyasda aparılmasına və onun keyfiyyətinin yaxşılaşmasına səbəb oldu. Əmrə əsasən dispanserizasiyaya birinci növbədə kombaynçılar, traktorçular, yüksək məhsul əldə edənlər, qabaqcıl maldarlar, süd sağanlar, briqadirlər, 15-18 yaşında olan yeniyetmələr, kolxoz, MTS və sovxoz rəhbərləri, ürək və damar sistemi xəstələri, mədə – bağırsaq, qripp xəstələri cəlb edilib.

1953-1965-ci illərdə kənd tibb müəssisələrinin tibbi kadrların sayının artması davam etdi və kənd əhalisinin ambulator və stasionar xidməti yaxşılaşdı. Kənd tibb müəssisələrinin diaqnostik müalicə aparatları və avadanlıqları ilə təchizatı bir qədər yüksəldi.

1965-ci ildə kənddə xəstəxana və ambulator müəssisələrinin sayı 1953-cü ilə nisbətən 1,5 dəfə, xəstəxana çarpayılarının sayı 2,3 dəfə, feldşer, feldşer-mama və başqa məntəqələrin sayı 2,7 dəfə artmışdır. Kənd rayonu xəstəxanalarında həkim mütəxəssislər – nevropatoloq, göz həkimi, sanitar həkim, stomatoloq və s. işləməyə başladılar.

Ayrı ixtisaslar üzrə çarpayıların sayı artdı: terapiya üzrə – 2,3 dəfə, doğum üzrə – 2 dəfə. Bundan başqa uşaq və vərəm çarpayıları açıldı.

[1] Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin arxivi, F.17, siyahı 2, qovluq 221, səh.301.

1965-ci ildə kənd əhalisinin ambulator müəssisələrində həkimlərə gəlişlərin sayı 297,5 min olmuşdur. Kənd əhalisinin bir nəfərinə 1,1 gəliş düşürdü, 1953-cü ildə bu göstərici 0,4-ə bərabər olmuşdur.

Feldşer ambulator xidmət köməyi də genişləndi. 1965-ci ildə həkim müəssisələrində feldşer, feldşer-mama və başqa məntəqələrdə orta tibb işçilərinə gəlişlərin sayı 561,4 min olmuşdur ki, bu da kənd əhalisinin bir nəfərinə 4,1 gəliş düşmüşdür, 1953-cü ildə isə bu göstərici 3,0 olmuşdur.

1965-ci ildə kənd xəstəxanalarına 20748 xəstə daxil olmuşdur ki, bu da çarpayı fondundan istifadə göstəricisinin 1953-cü ilə nisbətən 2 dəfə artmasını göstərir (1953-cü ildə bu göstərici 138,7 gün olmuşdursa, 1965-ci ildə 246,4 gün olmuşdur).

1965-ci ildə uşaqlara və qadınlara göstərilən tibb xidməti xeyli yaxşılaşmışdır. Pediatr sahələri kiçildi. Sahələrin sayı artdı, sahədə bütün yaşdan olan uşaqların sayı 1000 nəfərə endirildi[1].

Bu sahə həkimi pediatra imkan verdi ki, uşaqlara ixtisaslaşmış müalicə – rpofilaktika köməyi göstərilməsini təmin etsin, müalicə – profilaktika tədbirlərini geniş həyata keçirsin; uşaqlar arasında yoluxucu xəstəliklərin və onlar arasında ölüm səviyyəsini aşağı salsın; sahədə uşaqların bir yaşına çatana qədər olan vaxtda fəal patronajının təşkilini yaxşılaşdırsın.

Qadınlara göstərilən müalicə profilaktika köməyinin keyfiyyəti daha da yaxşılaşmışdı. Hamilə qadınlara hamiləliyin ilk günlərində və doğuşdan sonra tibbi xidmətin təmin olunması işində irəliləyiş olmuşdur. Ana ölümü və xəstəlikləri ilə mübarizədə müalicə – profilaktiki tədbirlərinin həyata keçirilməsi gücləndirildi, əhali arasında bu sahəyə aid sanitar – maarifi işi genişləndi.

Respublikanın dövlət büdcəsindən çoxuşaqlı analara və tək analara verilən müavinətin həcmi artdı. Aylıq müavinət alanların sayı 13131 (o cümlədən şəhərlərdə 2010

[1] Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin arxivi.F.17, siyahı 2, qovluq 168, səh.109.

və kənd yerlərində 11121) olmuşdur.[1]

«Qəhrəman ana» fəxri adını alan analaların sayı 110, «Analıq şərəfi» ordeni ilə təltifolunanların sayı 3524, «Analıq medalı» medalı ilə 12391 olmuşdur; hamilə və doğuş məzuniyyətinin vaxtının 77 təqvim günündən 112 günə qədər artırılması qadınlara göstərilən müalicə – profilaktika köməyinin yaxşılaşmasına səbəb olmuşdur.

1953-1965-ci illərdə respublikanın rayonlarında (Norașen rayonunun Ibadulla, Püsyan, Qarxunkəndləri; Culfa rayonunun Dizə kəndi) kolxozlar tərəfindən birtipli kolxoz doğum evləri tikilmişdir. Artıq qadınların əksər hissəsi uşaqları bu doğum evlərində doğmağa başladılar.

Rayonda doğulan uşaqlar xidməti məsləhətxanada, doğum evindən çıxandan sonra, birinci üç gündə həkim potranajı ilə əhatə olunurlar.

Bununla belə 1965-ci ildə kənd yerlərində ümumi çarpayı fondundan və doğum çarpayılarından qeyri-qənaətbəxş istifadə olunmuşdur.

1953-1965-ci illərdə Naxçıvan MSSR-i səhiyyə büdcəsi ilbə-il artmışdır. 1965-ci ildə səhiyyə büdcəsi 1953-cü ilə nisbətən demək olar ki, 2 dəfə çox olmuşdur. Hər il sərmayənin artırılması tib müəssisələrini yeni aparatlarla, alətlərlə, avtomaşınlarla təchiz etməyə imkan vermiş, mövcud tibb müəssisələrinin əsaslı təmir edilməsinə və yeni xəstəxanaların tikilməsinə şərait yaratmışdır.

Naxçıvan şəhərində 30 yerlik yasli – baxça, 100 çarpayılıq vərəm əleyhinə dispanser tikilib istifadəyə verilmiş, 100 çarpayılıq doğum evinin tikintisi qurtarmaq ərəfəsində olmuşdur.

1953-1965-ci illərdə sanitar – epidemioloji stansiyalar malyariya stansiyaları ilə birləşdirilərək iriləşdi. Bundan sonra sanitar – epidemioloji stansiyalar daha da kompleks şəkildə tədbirləri müvəffəqiyyətlə həyata keçirməyə başladılar.

Illər keçdikcə aydın oldu ki, Dövlət sanitar müfəttişliyi və sanitar – epidemioloji stansiyalar arasında

[1] Naxçıvan MSSR-i xalq təsərrüfatının inkişafı statistik məcmuə, Bakı, 1964-cü il, səh.134-135.

əlaqə və razılıq mövcud olmadığına görə xəbərdar edici və cari sanitar nəzarətinin arasında uyğunsuzluq əmələ gəlir, bu isə sanitar – epidemiya əleyhinə tədbirlərin kompleks şəkildə, tələb olunan qaydada həyata keçirilməsini təmin etmirdi. Ona görə təcrübə göstərdi ki, sanitar nəzarətin ayrı-ayrı hissələri arasında uyğunsuzluğu aradan qaldırmaq üçün bəzi təşkilati tədbirlərin həyata keçirilməsi məqsədə uyğun hesab edildi.

Bunu nəzərə alaraq SSRI Səhiyyə nazirliyi 1955-ci ildə nazirliyin Baş sanitar müfəttişliyini Baş sanitar – epidemioloji idarəsi ilə birləşdirib vahid sanitar – epidemioloji stansiya idarəsini yaratdı.

Belə birləşmə Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin aparatında 1955-ci ilin iyul ayında aparıldı.

Nazirlikdə Dövlət sanitar müfəttişliyi vəzifəsi Səhiyyə nazirinin müavini səlahiyyəti hüququnda saxlanıldı, respublika sanitar – epidemioloji stansiyada isə xəbərdarlıq edici sanitar nəzarət Dövlət sanitar müfəttişliyinin bazasında təşkil edildi.[1]

1958-ci ildə Respublika sanitar – epidemioloji stansiyanın tikilməkdə olan binası istifadəyə verildi.

Bir qədər sonra – 1956-cı ildə kənd səhiyyəsi də yenidən quruldu: - rayon səhiyyə şöbəsi ləğv olundu, rayon xəstəxanası isə rayon sanitar – epidemioloji stansiya ilə birləşdirildi.

Qeyd etmək lazımdır ki, Azərbaycanda birləşmə SSRI-nin başqa respublikalarından fərqli olaraq kənddə səhiyyənin təşkili özünə uyğun quruluşda strukturası işlənib hazırlandı.

Naxçıvan MSSR-də 1958-1959-cu illərdə kənd tibb müəssisələri yenidən qurulmuşdur. Yeni kompleks müəssisəyə SXB (sanitariya xəstəxana birləşməsi) adı verilmişdir; həmin müəssisə rayon səhiyyə şöbəsinin funksiyasını daşıyır. SXB-yə rayonun baş həkimi rəhbərlik edir. O, habelə dövlət sanitariya inspektorudur, beləliklə həmin şəxs rayon səhiyyə işlərinin təşkilatçısı sayılır.

Belə quruluş kənd tibb müəssisələrinin işində

[1] Naxçıvan MSSR-i MDA. F.17, siyahı 9, qovluq 49, səh.10

profilaktik istiqaməti təmin edir. Səhiyyə işlərinə rəhbərlik yenidən təşkil olunduqdan sonra o, bir qayda olaraq müəyyən məqsədə doğru yönəldilmiş və işgüzar olmuşdur. Rayonda mövcud kadrlardan və maddi vəsaitlərdən daha səmərəli istifadə etmək üçün şərait yaranmışdır. Burada müalicə sanitariya – epidemioloji xidmət arasındakı təşkilati rabitəsizlik aradan qaldırılmışdır. Işlərin yenidən qurulması ilə əlaqədar olaraq müalicə və sanitariya – epidemioloji xidmətin birgə gündəlik işi təmin edilmiş və xəstəliklərə qarşı bütün cəbhə boyu mübarizə başlandı.

Səhiyyənin gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük əhəmiyyət kəsb edən qərarlardan biri də SIKP Mərkəzi Komitəsinin və SSRI Nazirlər Sovetinin 14 yanvar 1960-cı il 58№-li «SSRI-də əhaliyə tibbi xidmət göstərilməsini və əhalinin can sağlığının qorunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında»kıqərarı oldu. Bu qərara əsasən Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR-i Nazirlər Soveti 6 iyul 1960-cı il 75/110№-li eyni qərar qəbul etdi. Bu qərara əsasən Naxçıvan MSSR-də tədbirlər işlənib hazırlandı. Bunlara tibb müəssisələrinin genişləndirilməsi, müalicə – profilaktika müəssisələrinin tikilməsi tempinin sürətləndirilməsi və keyfiyyətinin yüksəldilməsi və həmin müəssisələrin avadanlıqla təchiz olunması, bir sıra yoluxucu xəstəliklərin (difteriya, poliomielit, traxoma) ləğv edilməsi, qarın yatalağı, bağırsaq infeksiyaları, brusselloz və digər xəstəliklərlə xəstələnmə hallarının kəskin sürətdə azaldılması və s. tədbirlər aiddir.

Bu qərar habelə, zəhmətkeşlərin can sağlığının qorunması işində əhalinin özfəaliyyətinin yeni inkişafı üçün zəmin yaratdı.

Naxçıvan şəhərində 1961-ci ildə respublika səhiyyə maarif evində iki illik sağlamlıq universiteti təşkil edildi. Universitetin işində böyük təcrübəyə malik olan ixtisaslı həkimlər, partiya və ictimai təşkilatların nümayəndələri iştirak edirdilər. Dərslər mühazirə və təcrübi məşğələ şəklində aparılırdı. Bəzi hallarda müalicə – profilaktika və uşaq müəssisələrində ekskursiyalar təşkil edilirdi. Demək olar ki, hər yerdə mühazirələr tematikaya uyğun olaraq sanitar-maarifi,

elmi populyar və sənədli filmlərin nümayişi ilə müşahidə olunurdu.

Dərslərdə dinləyicilər insan anatomiyasının, fiziologiyasının əsası, şəxsi və ictimai gigiyena, istirahət və əmək rejimi, xəstəyə qulluq, həkimə qədər ilk yardım göstərilməsi, xəstəliklərin bəzilərinin profilaktikası və s. ilə tanış olurdular.

1965-ci ildə respublikada 5 sağlamlıq universiteti fəaliyyət göstərirdi.

Respublikada yaradılmış sağlamlıq universitetləri sanitariya – maarifi sisteminin mühüm hissəsini təşkil edir ki, o da fəal ictimaiyyətçi kadrlar hazırlayır.

Qırmızı Aypara Cəmiyyəti Naxçıvan MSSR-də səhiyyənin ictimai fəallarının ən böyük dəstəsi hesab olunur. Cəmiyyətin üzvlərinin sayı ildən-ilə artır. Əgər 1954-cü ildə respublika üzrə Qırmızı Aypara Cəmiyyətinin üzvləri 37000 idisə, 1965-ci ildə bu say 446 ilk təşkilatda 56000-ə çatmışdır. Sanitar postlarının sayı müvafiq illərdə 240-dan 474-ə, sanitar dəstələrin 20-dən 61-ə, donorların sayı 6000-dək artmışdır. Habelə ictimai sanitar müfəttişlərinin hazırlanması 700-ə qədər, komitet sədrlərinin və ilk təşkilatların hazırlanması 370-ə qədər olmuşdur.

Səhiyyə orqanları bütün profilaktika və sanitar sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsində daima ictimai fəallardan lazımi kömək almışlar.

Cəmiyyətin üzvləri kənd və şəhərlərin abadlaşdırılması məsələsinin həllində, fəhlə və kolxozçuların sağlamlığının qorunmasında, uşaqların və yeniyetmələrin sağlamlığının möhkəmlənməsində, əhali arasında sanitar – gigiyenik biliyin yayılmasında, əhalinin tibb xidmətinin yaxşılaşdırılmasında və s. fəal iştirak etmişlər.

Cəmiyyətin təşkilatları və üzvləri şəhər və kəndlərin təmizliyi uğrunda ümumxalq hərəkatında yaxından iştirak etmişlər.

1953-1965-ci illərdə partiya və sovet orqanlarının rəhbərliyi altında təmizlik, sanitar mədəniyyəti uğrunda geniş xalq hərəkatı inkişaf etdi.

1954-cü ildə Azərbaycan SSR Göyçay rayonunun zəhmətkeşləri təmizlik uğrunda istehsalatda və məişətdə sanitar mədəniyyətinin qaldırılması uğrunda yenidən təşəbbüs göstərərək xalq hərəkatını qaldırdılar.

Faktiki olaraq bu göyçaylıların 1940-cı ildə başladığı sanitar mədəniyyəti uğrunda xalq hərəkatının davamı idi.

Azərbaycan partiya və sovet orqanları bu təşəbbüsü bəyəndilər, belə hərəkətin Azərbaycanın bütün rayonlarında və Naxçıvan MSSR-də genişləndirilməsini tövsiyə etdilər.

Sanitar mədəniyyəti uğrunda hərəkət respublikada tezliklə yayıldı. Hərəkətin canlanmasının əsas səbəbi, bu işin nə qədər kütləvi sağlamlaşdırma tədbir olduğu, xalq arasında geniş izahat işinin aparılması nəticəsində olmuşdur.

Belə izahat işini tibb işçilərinin nəzarəti və yaxından köməkliyi ilə rayon və şəhər sovet deputatları, partiya fəalları, Qırmızı Aypara Cəmiyyətinin üzvləri, komsomollar, pionerlər, müəllimlər, aqronomlar və s. sistematik olaraq aparırdılar.

1956-1965-ci illərdə Naxçıvan respublikasının partiya və sovet orqanları bütün rayon və şəhər zəhmətkeşlərinin fəal iştirakı ilə şəhər və kəndlərin daha da abadlaşdırılması və yaşıllaşdırılması sahəsində xeyli iş gördülər.

Respublikada aptek şəbəkəsi də çox inkişaf etmişdir. Burada Azərbaycan SSR Baş Apteklər Idarəsinin Naxçıvan rayonlararası şöbəsi təşkil edilmişdir. Hazırda (1962-ci il) respublikada 14 aptek, 50-yə yaxın aptek məntəqəsi, analitik laboratoriya, sanitariya – gigiyena mağazaları və başqaları fəaliyyət göstərir.

Naxçıvan MSSR özünün müxtəlif kimyəvi tərkibli, yüksək müalicə xassəsinə malik çoxlu mineral su mənbələri ilə şöhrət qazanmışdır.Belə mineral su mənbələrinə Badamlı (Narzan tipli), Sirab (Borjomi tipli), Nəhəcir (Yessentuki tipli), Qızılvəng (Batalinsk tipli), Darıdağ arsenli su mənbələri və başqaları aiddir. Uzun illər aparılan tədqiqatlar nəticəsində alimlər Naxçıvan MSSR-də 135 mineral su mənbəi kəşf etmiş və bu haqda məlumat vermişlər. Çoxlu balneoloji və kurort yerlərinin olması burada kurortların, sanatoriyaların və istirahət evlərinin təşkil edilməsi üçün yaxşı şərait yaradır.

Səhiyyə işlərinə ayrılan vəsait ilbə-il artmışdır. Belə ki, 1940-cı ildə 777,3 min manat, 1950-ci ildə 1428,0 min man., 1960-cı ildə 2320,0 min man. və 1965-ci ildə 3862,0 min man. vəsait ayrılmışdır. Buradan aydın olur ki, 1965-ci ildə 1940-cı ilə nisbətən 5 dəfə, 1950-ci ilə nisbətən 2,7 dəfə, 1960-cı ilə nisbətən təqribən 1,7 dəfə çox vəsait ayrılmışdır.

N Ə T I C Ə

1. Naxçıvan MSSR-də səhiyyənin inkişaf etdirilməsi haqqında beşillik (beşinci və altıncı) və yeddiillik planlarda nəzərdə tutulan tədbirlər müvəffəqiyyətlə yerinə yetirilirdi.

2. Xəstəxanaların, onlarda olan çarpayıların, ambulator müəssisələrin sayı artdı, əhaliyə göstərilən ixtisaslaşdırılmış tibbi xidmət genişləndi.

3. SSRI Nazirlər Sovetinin, tibb işçilərinin əmək haqqının artırılması haqqında olan qərarı (1955) respublikanın tibb işçilərinin maddi vəziyyətini yaxşılaşdırdı.

1965-ci ildə həkimlərin sayı 1953-cü ilə nisbətən 1,6 dəfə, orta tibb işçilərinin sayı 1,8 dəfə artdı. Habelə, həkim – mütəxəssislərin: stomatoloqların, ftiziatorların, nevropatoloqların, cərrahların, pediatrların, mama – ginekoloqların sayı çoxaldı.

1953-1965-ci illərdə təkmilləşdirmə və ixtisaslaşdırma kurslarından keçən həkimlərin sayı 5,3%-lə 16,1%, orta tibb işçilərinin sayı isə 3,4%-lə 7% arasında olmuşdur.

4. Qadın və uşaq əhalisinə göstərilən tibbi xidmət xeyli yaxşılaşmışdı. Feldşer – mama məntəqələrinin, kolxoz doğum evlərinin, ginekoloji və uşaq çarpayılarının, uşaq yasli – baxçalarının və onlardakı yerlərin sayı artdı.

Pediatr sahələri kiçildi, tək və çox uşaqlı analara müavinətin həcmi genişləndi.

Naxçıvan MSSR-i hökuməti uşaq və anaların mühafizəsinin yaxşılaşdırılması üçün dəfələrlə müvafiq tədbirlər planı qəbul etmişdir.

5. Səhiyyə büdcəsi artmaqda davam etdi. Ona görə respublikanın tibb müəssisələrinin yeni aparatlarla və tibb

alətlərilə, avtomaşınla, yumşaq və bərk avadanlıqla təchizatı yaxşılaşdı. Xəstəxanaların tikintisi genişləndi.

6. Sanitar – epidemiya əleyhinə stansiyalar daha da iriləşdi, kənd səhiyyəsi yenidən quruldu: - səhiyyə şöbələri ləğv edildi, rayon xəstəxanaları və sanepid stansiyalar birləşdirildi. Birləşmənin başında baş həkim durdu. O, eyni zamanda Dövlət Sanitar müfəttişi oldu. Belə birləşmə kənd tibb müəssisələrinin işində profilaktik istiqaməti təmin etdi.

7. Sanitar mədəniyyətinin qaldırılması uğrunda «göyçay» xalq hərəkatı genişləndi. Kənd və şəhərlərin daha da abadlaşdırılması və yaşıllaşdırılması üçün xeyli iş görüldü.

Qırmızı Aypara Cəmiyyəti tərəfindən profilaktik və sanitar sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsində səhiyyə orqanlarına yaxından köməklik göstərildi.

6. 1966-cı ildə Naxçıvan MSSR-də səhiyyənin vəziyyəti.

1967-ci il vəziyyətinə Naxçıvan MSSR-də çoxşaxəli, böyük müalicə – profilaktika və sanitar – epidemiya əleyhinə uğurlu fəaliyyət göstərən aşağıdakı tibb müəssisələrinin şəbəkəsi var.

Naxçıvan şəhəri üzrə

1. Respublika birləşmiş xəstəxanası – 200 çarpayılıq.
2. Respublika traxoma dispanseri – 50 çarpayılıq.
3. Respublika vərəm əleyhinə dispanseri – 100 çarpayılıq.
4. Respublika dəri-zöhrəvi dispanseri – 35 çarpayılıq.
5. Respublika onkoloji dispanseri – 25 çarpayılıq.
6. Respublika ruhi-əsəb dispanseri – 50 çarpayılıq.
7. Şəhər uşaq xəstəxanası – 50 çarpayılıq.
8. Şəhər doğum evi – 100 çarpayılıq.
9. Məktəb uşaq sanatoriyası – 50 çarpayılıq.
10. Südəmər uşaqlar evi – 30 çarpayılıq.
11. Stomatoloji poliklinika.
12. Respublika bədən tərbiyəsi dispanseri.
13. Respublika sanitar-epidemioloji stansiya.
14. Respublika sanitar maarif evi.
15. Şəhər təcili yardım stansiyası.
16. Tibb məktəbi.
17. Şəhər uşaq yaslisi – 3, - 135 yerlik.

Naxçıvan rayonu üzrə

1. Mərkəzi rayon xəstəxanası Naxçıvan şəhərində – 75 çarpayılıq.
2. Kənd sahə xəstəxanaları – 6, - 120 çarpayı (onlardan 4-ü 25 çarpayılıq və 2-si 10 çarpayılıq).
3. Kolxoz doğum evi – 2, - 4 çarpayı (hər birində 2 çarpayı).
4. Rayon sanitar-epidemioloji stansiya.

5. Feldşer səhiyyə məntəqəsi – 6.
6. Feldşer – mama məntəqəsi – 21.
7. Feldşer traxoma məntəqəsi – 16.
8. Uşaq yaslisi – 2, - 60 çarpayılıq.

Iliç (Şərur) rayonu üzrə

1. Mərkəzi rayon xəstəxanası (şəhər tipli qəsəbədə) – 75 çarpayılıq.
2. Rayon vərəm əleyhinə dispanseri (Dizə kəndində)– 25 çarpayılıq.
3. Rayon traxoma dispanseri – 25 çarpayılıq.
4. Rayon uşaq xəstəxanası – 50 çarpayılıq.
5. Doğum evi (Başnoraşen kəndində) – 10 çarpayılıq.
6. Kənd sahə xəstəxanaları – 12, - 205 çarpayı (onlardan 5-i 25 çarpayılıq, 2-si 15 çarpayılıq, 5-i 10 çarpayılıq).
7. Kolxoz doğum evləri – 2, - 4 çarpayı (hər birində 2 çarpayı).
8. Rayon sanitar – epidemioloji stansiya.
9. Feldşer səhiyyə məntəqəsi – 2.
10. Feldşer – mama məntəqəsi – 24
11. Feldşer traxoma məntəqəsi – 18.
12. Uşaq yaslisi – 5, - 125 yerlik.

Ordubad rayonu üzrə

1. Mərkəzi rayon xəstəxanası – 50 çarpayılıq.
2. Rayon vərəm əleyhinə dispanseri – 25 çarpayılıq.
3. Rayon traxoma dispanseri – 25 çarpayılıq.
4. Rayon uşaq xəstəxanası – 25 çarpayılıq.
5. Qəsəbə xəstəxanası – 15 çarpayılıq (Parağaçay qəsəbəsi).
6. Kənd sahə xəstəxanası – 5, - 70 çarpayı (onlardan 1-i 25 çarpayılıq, 1-i 15 çarpayılıq və 3-ü 10 çarpayılıq).
7. Rayon sanitar epidemioloji stansiya.
8. Feldşer – mama məntəqəsi – 20.
9. Feldşer səhiyyə məntəqəsi – 3.

10.Uşaq yaslisi – 2, - 60 yerlik.

Culfa rayonu üzrə

1. Mərkəzi rayon xəstəxanası – 35 çarpayılıq.
2. Rayon traxoma dispanseri – 15 çarpayılıq.
3. Rayon uşaq xəstəxanası – 25 çarpayılıq.
4. Kənd sahə xəstəxanaları – 3, - 60 çarpayı (onlardan 2-si 25 çarpayılıq, 1-i 10 çarpayılıq).
5. Kolxoz doğum evləri – 2 – 4 çarpayılıq (hər birində 2 çarpayı).
6. Rayon sanitar epidemioloji stansiya.
7. Feldşer – mama məntəqəsi – 16.
8. Feldşer traxoma məntəqəsi – 3.

Şahbuz rayonu üzrə

1. Mərkəzi rayon xəstəxanası – 35 çarpayılıq.
2. Kənd sahə xəstəxanası – 2, - 35 çarpayı (1-i 25 çarpayılıq, 1-i 10 çarpayılıq).
3. Kolxoz doğum evləri –1 , - 2 çarpayılıq.
4. Rayon sanitar epidemioloji stansiya.
5. Feldşer səhiyyə məntəqəsi – 1.
6. Feldşer – mama məntəqəsi – 14.
7. Feldşer traxoma məntəqəsi – 5.

Beləliklə, 1 yanvar 1967-ci ilə respublikanın ərazisində aşağıda göstərilən tibb müəssisələri olub: - 735 çarpayıdan ibarət 12 şəhər xəstəxanası, 500 çarpayıdan ibarət 29 kənd xəstəxanası, 375 çarpayıdan ibarət 9 dispanser (onlardan 1-i 25 çarpayılıq kənd yerində), 14 çarpayıdan ibarət 7 kolxoz doğum evləri, 165 yerlik şəhərlərdə 4 daimi uşaq yaslisi, 215 yerlik kənd yerlərində 8 daimi uşaq yaslisi, 12 feldşer səhiyyə məntəqəsi, 138 feldşer – mama və traxoma məntəqəsi.

Tibb müəssisələrinin və tibb kadrlarının fəaliyyətini əks etdirən qısa təhlili təqdim edirik.

Görülən işlərin təhlilinin nəticəsi göstərdi ki, Naxçıvan MSSR-də əhaliyə göstərilən müalicə – profilaktika xidməti

son illərdə xeyli genişlənmiş və onun keyfiyyəti yüksəlmişdir. Bu respublikada tibb müəssisələrinin şəbəkəsinin artması, əhaliyə ixtisaslaşdırılmış yardımın inkişafı, tibbi kadrların çoxalması və onların vaxtaşırı ixtisaslarının artırılması nəticəsində olmuşdur.

Ambulator – poliklinika xidməti.

Ambulator – poliklinika xidməti əhaliyə göstərilən tibbi xidmətin təşkilində daha səmərəli, kütləvi formasıdır və səhiyyə sistemində əsas yeri tutur.

Ixtisaslaşdırılmış tibbi xidmətin əhaliyə yaxınlaşdırılması, xəstəliyin erkən formasının aşkara çıxarılması, xəstələrin stasionara vaxtında göndərilməsi, əhalinin sanitar – mədəni səviyyəsinin qaldırılması – bunların hamısı əsasən ambulator – poliklinika xidmətinin metodudur.

Əhalinin böyük əksəriyyətinin həkim köməyinə müraciəti ambulator – poliklinikaya olur ki, xəstənin müalicəsi burada başlanır və burada qurtarır.

1966-cı ildə ambulator – poliklinika köməyini göstərən müəssisələrin sayı – 50 (onlardan 21-i şəhərlərdə, 29-u kənd yerlərində), 1940-cı ildə isə 30 olmuşdur (1-ci diaqram).

Poliklinikaların (ambulatoriyaların), dispanserlərin, qadın və uşaq məsləhətxanalarının səmərəli fəaliyyətinin əsasını sahə prinsipi xidməti təşkil edir, hansı ki, bu prinsip əhaliyə keyfiyyətli müalicə profilaktika xidmətinin göstərilməsi işində xüsusi əhəmiyyət kəsb edir.

Həyatın təsdiq etdiyi sahə – ərazi prinsipi xidməti müalicə həkiminə imkan verir ki, o, öz sahəsində xəstəlikləri, onun sanitar vəziyyətini, əhalinin tərkibini, onun əmək və məişətini yaxşı öyrənsin.

Naxçıvan MSSR-də 1913-1966-cı illərdə ambulator-poliklinika müəssisələrinin sayı (ilin axırına).



1-ci diaqram

Naxçıvan respublikasında 01.01.1967-ci ildə şəhər həkim sahələrinin sayı – 39-a, onlardan 11-i terapiya, 20-si pediatriya və 8-i mama-ginekologiya sahəsi olmuşdur.

Respublikada əhalinin artması və həkim kadrlarının çatışmaması nəticəsində həkim sahələrində əhalinin sayı çox olaraq qalır.

Şəhər və kənd müalicə – profilaktika müəssisə-lərində dispanser üsulu ilə tibbi xidmət göstərmək əsas yeri tutur.

Dispanser üsulu vasitəsilə tibbi xidmət respublikanın tibb müəssisələrinin fəaliyyətində profilaktik istiqamətdə

həyata keçirilir. Demək olar ki, respublikanın kənd təsərrüfatının bütün mexanizatorları, istehsalat qabaqcılları, kolxoz rəhbərləri, başqa kateqoriyadan olan sənaye və müəssisələrin işçiləri vaxtaşırı dispanser müayinəsindən keçirilirlər. Insanlarda müəyyən formada aşkar olunan xəstəliklər qeydiyyata götürülür, onlara aktiv nəzarət edilir. Tibb yardımının dispanser üsulu ilə göstərilməsi əhalinin sağlamlıq vəziyyətini müntəzəm olaraq müşahidə etməyə imkan verir. Dispanserizasiyanın aparılmasında bütün ixtisaslı həkimlər fəal iştirak edirlər. Əhaliyə dispanser xidməti təkcə müalicə – profilaktika müəssisələri tərəfindən deyil, həm də respublikanın bütün dispanserləri tərəfindən göstərilir.

14-18 yaşlı yeniyetmələrin dispanserizasiyasına xüsusi fikir verilir. Hər il onlar tibbi müayinədən keçirilir, müayinə vaxtı bütün ixtisasdan olan həkimlər iştirak edirlər.

Gələcəkdə əhaliyə ixtisaslı yardımı planlı surətdə inkişaf etdirmək üçün müalicə – profilaktika müəssisələrinin xidmət təcrübələrinin müsbət tərəfini istifadə etmək qarşıda durur. Bu məqsədlə müalicə – profilaktika müəssisələrinin 1965-ci ilə aid fəaliyyətini 1958-ci illə müqayisədə öyrəndik.

Bu, bizə imkan verdi ki, tibbi xidmətin və onun keyfiyyətinin qanunauyğunluğunu aşkara çıxaraq.

Əgər 1958-ci ildə respublikanın əhalisinin ambulator – poliklinika müəssisələrində həkimə 455,1 min gəlişi olmuşdursa, 1965-ci ildə həkimə gəlişlərin sayı 610,3 min olmuşdur. 1958-ci ildə respublikada gəlişlərin sayı əhalinin bir nəfərinə 3,0 olmuşdursa, 1965-ci ildə bu göstərici 3,3 olmuşdur və ya 10% artmışdır.

Hər il respublikanın ambulator–poliklinika müəssisələrində əhaliyə göstərilən ixtisaslaşdırılmış tibbi xidmət genişlənir. Bunu aşağıda cədvəldə göstərildiyi kimi həkimlərə ayrı-ayrı ixtisaslar üzrə edilən gəlişlərin məlumatından görmək olar.

28-ci cədvəl

Naxçıvan respublikası üzrə 1958-1965-ci illərdə həkimlərə ayrı-ayrı ixtisaslar üzrə gəlişlərin orta sayı (minlə).

	Şəhərlərdə		Kəndlərdə	
	1958	1965	1958	1965
Ftiziatrda	7,8	11,6	1,7	4,2
Onkoloqda	2,4	2,6	-	-
Dəri-zöhrəvidə	40,0	36,8	-	1,9
Göz həkimində	40,1	46,6	0,7	14,2
Terapevtdə	91,5	93,4	2,3	38,6
Cərrahda	35,3	41,5	3,4	5,1
Mama-ginekoloqda	22,2	29,2	0,8	6,2
Pediatrda	62,9	73,7	2,9	8,3
Burun-qulaq-boğaz həkimində	15,9	22,6	0,1	0,1
Cəmi	318,1	358,0	11,9	78,6

Cədvəldən göründüyü kimi şəhər əhalisinə göstərilən ixtisaslaşdırılmış yardım kənd əhalisinə nisbətən xeyli yüksəkdir. 1958-ci ilə nisbətən 1965-ci ildə şəhərlərdə, eləcə də kənd yerlərində həkim-terapevtlərə, cərrahlara, pediatrlara, ftiziatrlara, göz həkimlərinə və başqa mütəxəssislərə gəlişlərin sayı artmışdır.

Kənd əhalisi həkim köməyindən başqa feldşer məntəqələrinin köməyindən də geniş istifadə edir.

1965-ci ildə feldşer, feldşer – mama məntəqələrində orta tibb işçilərinə gəlişlərin sayı 565,2 min, kənd əhalisinin bir nəfərinə orta hesabla gəlişin sayı 4,4 olmuşdur.

Buradan belə nəticəyə gəlmək olar ki, Naxçıvan respublikasında kənd əhalisi hələlik əsasən feldşer köməyindən, çox az hissəsi isə həkim köməyindən istifadə edir. Belə vəziyyət göstərir ki, kənd əhalisinin həkimlə təminatı hələ ki, qaneedici deyil.

Evdə yardım

Poliklinikaların fəaliyyətində əsas yeri xəstələrə evdə yardım göstərmək tutur. Bu cür növ yardım respublikada hər bir şəhər poliklinikasının (ambulatoriyanın) vacib funksiyasıdır və bütün həkimlərin, poliklinika (ambulatoriya) mütəxəssislərinin işinin mühüm hissəsidir.

1965-ci ildə evdə yardıma 68,6 min gəliş olmuşdur ki, bu respublika əhalisinin ambulator poliklinika müəssisələrində həkimlərə etdiyi ümumi gəlişlərin 11,5%-ni təşkil edir. Orta hesabla 1965-ci ildə respublika əhalisinin bir nəfərinə – 0,8 evdə həkim yardımı, o cümlədən bir şəhər sakininə 0,9 və bir kənd sakininə – 0,1 gəliş düşür.

Təcili tibbi yardım

Təcili tibbi yardım respublika əhalisinə tibbi xidmətin təşkili sistemində ən ümdə yeri tutur.

Respublikada 01.01.1966-cı ildə bir müstəqil və 3 rayon birləşmiş xəstəxanalarının tərkibində təcili tibbi yardım stansiyaları olub. 1965-ci ildə onlar tərəfindən 18,1 min şəxsə ambulator və çağırış vaxtı tibbi yardım göstərilmişdir, o cümlədən müstəqil təcili tibbi yardım stansiyalarında 11,4 min, rayon birləşmiş xəstəxanalarının tərkibində olan təcili tibbi yardım stansiyalarına 6,7 min şəxsə kömək göstərilmişdir.

1958-ci ilə nisbətən 1965-ci ildə təcili tibbi yardım xidməti artmışdır. 1960-cı ildə Naxçıvan şəhər təcili tibbi yardım stansiyası V kateqoriyadan IV kateqoriyaya keçib. Bununla əlaqədar olaraq həkimlərin və orta tibb işçilərinin ştat vahidi artıb. Lakin təcili tibbi yardım xidmətində ciddi çətinliklər və nöqsanlar olub ki, bunun nəticəsində stansiyaların işinin səviyyəsi aşağı olub. Məsələn, onların radius xidməti 40-45 km, yolların yararsız halda olması, stansiyaların gücünün zəif olması, klimat şəraiti və s. – bunların hamısı çağırışların vaxtında yerinə yetirilməsini çətinləşdirmişdir.

Xəstəxana yardımı

Respublikanın səhiyyə orqanları çarpayı fondunun genişləndirilməsi və onların ixtisaslaşdırılması, tibb işçilərinin ixtisasının artırılması, xəstəxana müəssisələrinin texniki təchizatının təmin edilməsi, xəstələrə keyfiyyətli və mədəni tibbi xidmət göstərilməsinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər həyata keçirmişlər. Xəstəxana müəssisələrinin artımı 2-ci diaqramda göstərilib.

NAXÇIVAN MSSR-də 1913-1966-cı ILLƏRDƏ XƏSTƏXANA MÜƏSSISƏLƏRININ SAYI (ilin axırına)



2-ci diaqram

Buradan göründüyü kimi respublikada xəstəxana şəbəkəsi mütəmadi olaraq ilbə-il artır. Əgər 1913-cü ildən

1930-cu ilə qədər cəmi bir xəstəxana olmuşdursa, 1930-cu ildən 1940-cı ilə qədər bu rəqəm 4 dəfə artmışdır.

1950-ci ildə bu say 26-ya çatmış, sonrakı illərdə isə xəstəxanaların sayı daha da artmışdır; 1960-cı ildə onların sayı 40, 1966-cı ildə isə 51 olmuşdur.

Son illərdə kənd əhalisinə ixtisaslaşdırılmış tibb xidmətini daha yaxşılaşdırmaq məqsədilə kənd sahə xəstəxanalarının iriləşməsinə diqqət artırılmışdır. Bunu aşağıdakı cədvəldən görmək olar.

29-cu cədvəl

1958-1965-ci illərdə kənd sahə xəstəxanalarının gücünün artması

Kənd sahə xəstəxanalarında çarpayıların sayı	01.01.1959-cu ilə	01.01.1967-ci ilə
	xəstəxanaların sayı	xəstəxanaların sayı
10	16	12
15	5	3
25	1	13
cəmi	22	28

Kənd sahə xəstəxanalarının iriləşdirilməsi ilə əlaqədar olaraq tibb müəssisələrinin fəaliyyətində keyfiyyət göstəriciləri də yaxşılaşdı. Xəstəxanaların böyüməsi ilə yanaşı çarpayıların və xüsusən ixtisaslaşdırılmış çarpayıların sayı da artdı.

Respublikada çarpayıların sayının ilbə-il artması əhalinin stasionar xidmətindən geniş istifadə etməsinə əlverişli şərait yaratdı.

1965-ci ilin axırında respublikada 1415 çarpayı olmuşdur ki, bu da 1958-ci ilə nisbətən 1,7 dəfə çox olmuşdur.

Bu səhiyyə orqanlarının SIKP MK-nin və SSRI nazirlər sovetinin 14 yanvar 1960-cı il «SSRI-də əhaliyə tibbi xidmət göstərilməsini və əhalinin can sağlığının daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərarının yerinə yetirilməsi üçün gördüyü böyük işin nəticəsi kimi qiymətləndirilir.

Bir çox xəstəxanalar yerli sovetlər və kolxozlar tərəfindən ayrılan binalarda açılıb ki, bunun nəticəsində də kənd yerlərində çarpayıların sayı 1958-ci ildəki 280-dən 1965-ci ildə 525-ə çatmışdır. 3-cü diaqramda 1913-cü ildən 1966-cı ilə qədər xəstəxana çarpayılarının sayının artması göstərilmişdir.

NAXÇIVAN MSSR-də 1913-1966-cı ILLƏRDƏ XƏSTƏXANA ÇARPAYILARININ ÜMUMI SAYI (ilin axırına)



3- cü diaqram

1965-ci ildə xəstəxana çarpayıları ilə təminat belə olmuşdur: əhalinin 10000 nəfərinə 82,1 çarpayı düşmüşdür. Hər il respublikada şəhər xəstəxanalarının çarpayı fondunun müəyyən hissəsi kənd əhalisinin hospitallaşması üçün istifadə olunur. 1965-ci ildə 67,5% kənd yerlərindən gələn xəstələr

şəhər xəstəxanalarında müalicə olmuşlar. Ona görə çarpayıları bölüşdürəndə bu xüsusiyyəti nəzərə alsaq aydın olar ki, şəhər və kəndlərdə faktiki olaraq çarpayı ilə təminat bir-birindən o qədər də fərqlənmir.

Qeyd etmək yerinə düşər ki, Naxçıvan MSSR-də əhalinin çarpayı ilə təminatı ilbə-il artdığı halda onunla həmsərhəd olan xarici ölkələrdə bu, çox aşağı səviyyədə olmuşdur.[1]

30-cu cədvəl

Əhalinin 10000 nəfərinə düşən xəstəxana çarpayıları ilə təminat

	Illər	Əhalinin 10000 nəfərinə görə
Naxçıvan MSSR-i	1965	82,1
Türkiyə	1964	17,0
Iran	1964	10,6

Məlumatların analizi göstərir ki, Naxçıvan respublikasında stasionarlar əhalinin böyük hissəsinə xidmət edir. Belə ki, 1958-ci ildə respublikanın xəstəxanalarında 17,0 min nəfər müalicə olmuşdur ki, bu da əhalinin ümumi sayının 12,1%-ni təşkil edir. 1965-ci ildə xəstəxanalarda müalicə olunanların sayı 27,0 minə çatmışdır ki, bu da əhalinin ümumi sayının 14,8%-ni təşkil edir.

Əhalinin xəstəxanaya qəbulunun həcmi böyümüşdür. Əgər 1958-ci ildə 100 nəfər sakindən 12,1%-i xəstəxanaya qəbul olunmuşdursa, 1965-ci ildə bu göstərici 14,8-ə çatmışdır.

Səhiyyənin nailiyyətlərindən biri də əhaliyə ixtisaslaşdırılmış növ tibb xidmətinin təmin edilməsi və onun inkişaf etdirilməsidir.

[1] Beynəlxalq səhiyyə təşkilatının illik məlumatı, 1965-ci il.

Respublikada bu vacib məsələyə böyük diqqət yetirilib. Son illərdə ayrı-ayrı ixtisaslaşdırılmış xəstəxana çarpayılarının sayı artmışdır.

1965-ci ildə 1958-ci ilə nisbətən çarpayı fondu terapiya, cərrahiyyə, onkologiya, doğum, uşaq, göz, vərəm və infeksionist ixtisasları üzrə artmışdır.

Ixtisaslaşdırılmış xəstəxana çarpayıları kəndlərə nisbətən şəhərlərdə daha səmərəli sürətlə artmışdır.

Əhalinin stasionar köməyinə olan ehtiyacını təmin etmək üçün çarpayı fondundan səmərəli istifadə etmək əsas şərtdir.

Respublikada 1965 – ci ildə çarpayılardan istifadə – şəhər xəstəxanalarında 264,4 gün, kənd xəstəxanalarında isə 246,4 gün olmuşdur. Göründüyü kimi kənd xəstəxanasında çarpayılardan bir qayda olaraq aşağı səviyyədə istifadə olunmuşdur.

Çarpayı fondundan istifadə olunmasının əsas şərtlərindən biri də xəstənin, orta hesabla, neçə gün çarpayıda yatmasıdır. 1965-ci ildə bir xəstə orta hesabla 13,5 gün xəstəxanada yatmışdır (şəhər xəstəxanalarında 14,1 gün, kənd xəstəxanalarında 12,4 gün).

1965-ci ildə 1958-ci ilə nisbətən şəhər xəstəxanalarında ayrı-ayrı ixtisaslar üzrə xəstələrin çarpayıda qalma müddəti bir qədər artmışdır. Buna misal olaraq terapevtik (1958-ci ildə 14,1 gündən 1965-ci ildə 14,2 günədək), onkoloji (18,3 gündən 28,6 günədək), göz (21,3 gündən 54,1 günədək), dəri-zöhrəvi (20,6 gündən 37,5 günədək), vərəmli (43,2 gündən 54,1 günədək) xəstələri göstərmək olar.

Kənd yerlərində xəstələrin çarpayıda qalma müddəti vərəmli xəstələrdə (1958-ci ildə 30,6 gündən 1965-ci ildə 56,3 günədək) və ümumi şöbələrdə (9,6 gündən 12,4 günədək) artmışdır.

Xəstələrə tibbi xidmət göstərilməsinin ən vacib göstəricilərindən biri də «xəstəxanada ölüm hadisəsi» göstəricisidir. 1965-ci ildə respublikanın bütün stasionarlarında yatan və oradan çıxarılan 27653 xəstədən bütün xəstəliklər üzrə 138-i ölmüşdür. Başqa sözlə xəstəxanaların ölüm göstəricisi 1958-ci ildə 0,9%-dən 1965-ci ildə 0,5%-ə enmişdir.

Kadrlar

Son illərdə Naxçıvan respublikasında tibb müəssisələrinin şəbəkəsinin genişlənməsi ilə əlaqədar olaraq tibbi kadrların da sayı artmışdır. 1958-ci ildə respublikada 155 həkim, onlardan 131-i şəhərlərdə, 24-ü kənd yerlərində olmuşdur. 1965-ci ildə isə onların sayı artaraq 191-ə, onlardan 156-sı şəhərlərdə, 35-i kəndlərdə olmuşdur.

4-cü diaqramda həkimlərin artması müqayisəli dinamikada göstərilib.

NAXÇIVAN MSSR-də 1913-1966-cı ILLƏRDƏ HƏKIMLƏRIN ÜMUMI SAYI (ilin axırına)



4- cü diaqram

Bununla bərabər qeyd etmək lazımdır ki, həkimlər şəhər və kəndlərdə qeyri-bərabər bölünmüşlər. 1965-ci ildə ümumi işləyən həkimlərin sayından 81,7%-i şəhər həkimləri, 18,3%-i isə kənd həkimləridir. Həkimlərin əksəri Naxçıvan şəhərində işləyirlər. Bu, onunla izah olunur ki, respublika və başqa müalicə – profilaktika müəssisələri Naxçıvan şəhərində yerləşir.

1965-ci ildə respublikada əhalinin 10000 nəfərinə 10 həkim düşür. Qeyd etmək lazımdır ki, Naxçıvan MSSR-i

hələlik həkim kadrları ilə kifayət qədər təmin edilməmişdir. Əyani olaraq aşağıdakı cədvəldə respublikada 1965-ci ildə əhalinin 10000 nəfərinə düşən həkimlərin sayı müqayisəli şəkildə göstərilmişdir.

31-ci cədvəl

Naxçıvan MSSR-nin həkim kadrları ilə təmin olunması (10000 nəfərə görə)

	1965-ci il
Naxçıvan MSSR-i	10,4
Azərbaycan SSR-i	23,7
SSRI	23,9

Naxçıvan MSSR-də həkimlərin sayı həkim ştat vəzifələrinə uyğun gəlmir. 1965-ci ildə həkim kadrlarla komplektləşdirmə 83,2%, bu da yalnız əvəzçilik hesabına olmuşdur.

1965-ci ildə tutulan həkim vəzifələrindən bir həkimə 1,5 vəzifə düşür.

Respublikada həkimlərin ayrı-ayrı ixtisaslar üzrə sayı artmışdır. 1965-ci ildə həkimlərin ümumi sayından[x] terapevtlər - 48 , cərrahlar – 17, mama – ginekoloqlar – 13, pediatrlar – 28, göz həkimləri – 10, burun-qulaq-boğaz həkimləri – 4, ftiziatrlar – 9, dəri-zöhrəvi həkimlər – 4, rentgenoloqlar – 5, nevropatoloqlar – 3, sanitar-epidemioloji qruplar – 21, stomatoloqlar – 15 və s.

Naxçıvan Respublikasında mütəxəssislərin təcrübi və elmi-nəzəri hazırlanmasına böyük diqqət yetirilir. Hər il həkimlərin bir qismi ölkənin müxtəlif şəhərlərində – Bakıda, Moskvada, Leninqradda, Kiyevdə, Xarkovda və başqa şəhərlərdə təkmilləşmə və ixtisaslaşma kurslarında olurlar.

[x] Terapevtlərin sayına birləşdirilib: terapevtlər, fizioterapevtlər, infeksionistlər; cərrahların sayına – cərrahlar, travmatoloqlar, onkoloqlar və uroloqlar; sanitar-epidemioloji qruplara – sanitar həkimlər (bütün profildən olanlar – epidemioloqlar, parazitoloqlar, bakterioloqlar və virusoloqlar).

Son 10 il ərzində (1956-1965-ci illər) 184 həkim və 389 orta tibb işçisi öz ixtisasını artırmışdır. Azərbaycan SSR-i Səhiyyə nazirliyinin planına əsasən hər il həkimlərin 7 faizdən 10 faizə qədəri öz ixtisasını artırır.

Respublikada ixtisaslı həkimlərin sayı ilbə-il artır. Onlardan bir neçəsi alim, Azərbaycan SSR-nin və Naxçıvan MSSR-in əməkdar həkimi, səhiyyə təşkilatçısı, yüksək ixtisaslı həkim olmuşlar.

Respublikada bir çox həkimlər öz fədakar əməyi ilə xalqın rəğbətini və hörmətini qazanmışlar.

Naxçıvan zəhmətkeşləri böyük məhəbbət və səmimi minnətdarlıq hissilə görkəmli səhiyyə işinin təşkilatçılarını – Əli Abbasovu, Məmməd Ismayıl (Baba) Qədimovu, Nadir Məmmədlini, Həmid Əsədovu, Ələkbər Ismayılovu, Hüseyn Abbasovu, Süleyman Süleyman-zadəni, Tofiq Sultanovu, Abbas Əliyevi, Fikrət Qədimovu və s. xatırlayırlar ki, Naxçıvan MSSR-də əhaliyə tibbi xidmət göstərilməsində və xalq səhiyyəsinin inkişaf etdirilməsində əldə edilən böyük nailiyyətlər onların adı ilə bağlıdır.

Respublikanın zəhmətkeşləri Azərbaycan SSR-nin əməkdar həkimi, Naxçıvan MSSR-i Ali Sovetinin deputatı olmuş Anna Suslovanı yaxşı tanıyırlar. O, ömrünün 45 ilini Naxçıvanda uşaqların sağlamlığının qorunmasına sərf edib.

25 ildən artıq respublikada qadınlara yüksək ixtisaslı tibbi xidmət göstərmiş Naxçıvan MSSR-in əməkdar həkimi, Naxçıvan MSSR-i Ali Sovetinin deputatı seçilmiş Valentina Qnedkovanı bütün qadınlar və tibb kollektivi hörmətlə xatırlayırlar. Bir çox həkimləri gösitərmək olar ki, (Mehdi Bağırovu, Ruxsara Bayramovanı, Mehdi Sultanovu, Sultan Sultanovu, Əkbər Nağıyevi, Arif Hacıyevi, Əqil Mehdiyevi, Əli Xəlfə-zadəni, Əliheydər Qənbərovu, Yəmən Cəfərlini, Şəfiqə Məmmədəliyevanı, Məmmədtağı Sultanovu, Yaqub Budaqovu, Valentina Suxovanı, Aleksandra Kulakovanı, Qurban Qasımovu, səimə Əliyevanı, Hacı Mehdiyevi, Hacı Tahirovu, Nəsib Nəbiyevi, Rəhim Bağırovu, Sona Qədimovanı, Hüseynqulu Hüseynovu, Cabbar Əliyevi, Tələt Musayevi, Klavdiya Simoninanı və s.) onlar öz fədakar əməyi nəticəsində əhali arasında hörmət qazanmışlar.

Partiya və hökumət tibb işçilərinin əməyini yüksək qiymətləndirərək səhiyyə işlərində səylə və səmərəli çalışdıqlarına görə 8 həkimə Azərbaycan SSR-nin, 24 həkimə isə Naxçıvan MSSR-nin əməkdar həkimi adı verilmişdir. 60 tibb işçisi Sovet Ittifaqının orden və medalları ilə 57 nəfəri isə «Səhiyyə əlaçısına» nişanı ilə təltif olunmuşdur. 50 nəfərə yaxın tibb işçisi SSRI-nin, Azərbaycan SSR-nin, Naxçıvan MSSR-nin Ali Sovetlərinə, şəhər, rayon və kənd sovetlərinə deputat seçilmişlər.

Tibb müəssisələri şəbəkəsinin artması respublikada orta tibb işçilərinin çoxalmasına səbəb olmuşdur. Respublikada orta tibb işçiləri kadrlarını əsasən Naxçıvan tibb məktəbi tərəfindən hazırlanır. Tibb məktəbi 30 il ərzində (1931-1961) 1300 nəfərdən çox orta tibb işçisi buraxmışdır.

5-ci diaqramda respublikada 1913-1960-cı illərdə orta tibb işçilərinin artması göstərilib.

Buradan görünür ki, 1913-1930-cu illərdə orta tibb işçilərinin sayı 56 nəfərə qədər artmışdır, bu artım sonrakı illərdə də qeyd olunmuşdur. Məsələn 1940-cı ildə bu say 200, 1950-ci ildə 458, 1960-cı ildə 933 və 1966-cı ildə 1031 nəfər olmuşdur.

NAXÇIVAN MSSR-də 1913-1966-cı ILLƏRDƏ ORTA TIBB IŞÇILƏRININ ÜMUMI SAYI (MÜTLƏQ RƏQƏMLƏ) (ilin axırına)



5- ci diaqram

Bir çox fədakar tibb bacıları, feldşerlər və mamalar var ki, onlar göstərdikləri layiqli tibb xidmətinə görə əhalinin səmimi hörmətini qazanmışlar. Onlardan – Məmmədəli Həsənovu, Xavər Ismayılovanı, Səfiyyə Sultanovanı, Dilbər Təhməzbəyovanı, Şəmil Şəfiyevi, Məşdi Muradovu, Ilyas Qasımovu, Əbülfəz Vəliyevi, Idris Quliyevi, Tofiq Tahirovu, Novruz Rzayevi, Ruqiyə Atakişiyevanı göstərmək olar.

Səhiyyə işinin inkişafını öyrənərkən aydın oldu ki, sosialist istehsal üslubu əhaliyə tibbin və sanitar profilaktika xidmətinin dolğun və düzgün inkişafının əsasını təşkil edir.

Şəbəkələrin və kadrların fəaliyyətinin analizi imkan verdi ki, səhiyyə orqanlarının işinin qanunauyğun dinamik inkişafı ortaya çıxsın və Naxçıvanın spesifik xüsusiyyəti

əsasında gələcəkdə səhiyyə işinin təkmilləşməsi, əhalinin müalicə - profilaktika və sanitar – epidemioloji xidmətin keyfiyyətini qaldırmaq, kadrların və ixtisaslaşdırılmış müalicə müəssisələrinin şəbəkəsini inkişaf etdirmək yollarını müəyyən etsin.

Naxçıvan MSSR-in səhiyyəsində əldə edilən nailiyyətlərlə bərabər xeyli çatışmayan nöqsanlar da vardır. Onların aradan qaldırılması gələcəkdə səhiyyə işinin daha da yaxşılaşmasına zəmin yaradacaqdır. Onlara aşağıdakılar aiddir:
- ixtisaslaşdırılmış tibb xidmətinin əhaliyə, xüsusən kənd əhalisinə lazımi səviyyədə yaxınlaşdırılmaması, çarpayı şəbəkəsinin inkişafının əhalinin tələbatına uyğunlaşdırılmaması, müalicə-profilaktika müəssisələrinin avadanlıqla və tibb ləvazimatlar ilə kifayət qədər təchiz edilməməsi, bəzi həkim vəzifələrinin, mütəxəssislərin çatışmaması üzündən, boş qalması, əhali arasında xəstəliklərin kəskin surətdə aşağı salınmasına yönəldilmiş geniş sanitar tədbirlərin istənilən səviyyədə aparılmaması və s. Bu göstərilən nöqsanların yaxın illərdə aradan qaldırılması Naxçıvan MSSR-in səhiyyə orqanları qarşısında mühüm vəzifə kimi durur. Bunların həll edilməsinə nail olmaq üçün səhiyyənin gələcək inkişaf planlarında tədbirlərin hazırlanıb həyata keçirilməsi zəruridir.

Gələcəkdə habelə sanitar – epidemioloji stansiyaların möhkəmlənməsinə, onların sanitar kadrlarla komplektləşdirilməsinə kənd xəstəxanalarının və rayon sanitar epidemioloji stansiyalarının maşınlarla təchiz edilməsinə, hər bir rayonda onkoloji kabinələrin açılmasına da diqqət artırılmalıdır.

Qeyd etmək yerinə düşər ki, tərəfimizdən göstərilən nöqsanların aradan qaldırılmasına nail olmaq üçün Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin 1965-1970-ci illərə aid inkişaf planında onlar qismən də olsa nəzərə alınmışdır. Məsələn, çarpayıların sayı 1965-ci ildəki 1495-dən 1970-ci ildə 2415-ə çatdırılması, həkim vəzifələrinin göstərilən illərə uyğun olaraq 299-dan 396-ya çatdırılması, bütün xəstəxanaların kliniki laboratoriyalarla təchiz olunması, milyonçu kolxozlar hesabına iri kənd xəstəxanalarının (Naxçıvan rayonunda Nehrəm və

Didivar kəndlərində, Iliç rayonunda Mahmudkənd və Xanlıqlar kəndlərində) tikilməsi, 100 çarpayılıq doğum evinin tikintisinin sürətləndirilməsi, Iliç (Şərur) rayonunda 100, Culfa şəhərində 50 çarpayılıq xəstəxana binalarının tikilməsi də nəzərdə tutulmuşdur.

III FƏSIL

NAXÇIVAN MSSR-də KƏND ƏHALISININ ÜMUMI XƏSTƏLIK HALININ ÖYRƏNILMƏSI

Səhiyyə orqanlarının ən vacib göstəricilərindən biri xəstəliklərin aşağı salınması ilə mübarizə aparmaqdan ibarətdir.

1962-ci ilə qədər Naxçıvan MSSR-də əhalinin xəstələnmə vəziyyəti öyrənilməmişdir. Məlumdur ki, xəstəliyin öyrənilməsi ayrı-ayrı yollarla aparılır.

Xəstəliyin vəziyyətinə qiymət vermək üçün bizim tərəfimizdən 1962-ci ildə respublikanın kənd əhalisinin xəstəliyi kənd sahə xəstəxanalarının materialları əsasında öyrənilib.

Apardığımız tədqiqat kənd əhalisinin xəstəxanaya müraciəti materiallarına əsaslanmışdır, hansı ki, bu bizə imkan verdi ki, respublikada kənd əhalisinin xəstəliyini ətraflı öyrənək. Xəstəliyin formasını təyin etmək üçün dəqiq həkim diaqnozu əsas götürüldü, feldşer diaqnozu nəzərə alınmadı.

Öyrənilən əhalinin sayını, yaş-cinsinin tərkibi kənd deputatları sovetində olan 9№-li «kənd» formasından əldə olunub. Xəstəliyi öyrənmək üçün bizim tərəfimizdən xüsusi metodika tərtib edilmişdir. Bunun üçün statistik kart işlənib hazırlanmışdır. Belə kart kənd xəstəxanasına və ona təhkim olunmuş 2 kilometr radiusunda olan kəndlərdən müraciət edən xəstələrin, habelə rayon və respublika müalicə müəssisələrinə müraciət edən xəstələrin hər birinə doldurulub.

Məlumatların karta köçürülməsi bilavasitə bizim nəzarətimiz altında və kənd xəstəxanasının baş həkiminin (şöbə müdirinin), xəstəxananın baş feldşerinin iştirakı ilə aparılmışdır.

Əsas hesabat sənədləri, hansılardan ki, materiallar köçürülüb, bunlardır: - ambulator xəstənin tibbi və ya fərdi kartası (f.№25), xəstəlik tarixi (f.№3), yeni doğulmuşun inkişaf tarixi (f.№97), uşağın inkişaf tarixi (f.№112), hamilə və zahı qadının fərdi kartası (f.№110), yoluxucu xəstəliklərin qeydi jurnalı (f.№60). Bundan başqa müraciət edənlərin bəzi

məsələlərini aydınlaşdırmaq üçün: - xəstələrin qəbulu və hospitalizədən imtina jurnalından (f.№1), hamilə və zahı qadınların qəbulu jurnalından (f.№2), dispanser müşahidəsinin kartından (f.№30), həkimin evdə yardım və təxirə salınmaz köməyə çağırış qeydiyyat kitabından (f.№31), əmək qabiliyyətini itirmək vərəqinin qeydiyyatı kitabından (f.36), HƏEK göndərmə vərəqindən (f. №88), poliklinikanın xidmət zonasında yaşayıb evdə ölənlərin qeydiyyat jurnalından (f.№279), kolxozçulara (kolxozçu qadınlara) əmək qabiliyyətini itirmə və doğuşdan sonra verilən arayışların qeydiyyat jurnalından (f.№289), tələbələrə və şagirdlərə müvəqqəti əmək qabiliyyətini itirmə arayışlarının qeydiyyat kitabından (f.№295) və habelə tibbi və profilaktik yoxlama materiallarından da istifadə edilmişdir.

Materialların mükəmməl yığılmasını və köçürülməsini düzgün aparmaq məqsədilə bu işlə bilavasitə məşğul olan tibb işçiləri ilə seminar keçirildi. Bundan başqa köçürülən materialların asanlaşması üçün «Kənd xəstəxanalarında ilkin – hesabat sənədlərindən köçürmə haqqında metodik göstəriş» də işlənib hazırlandı.

Beləliklə kənd əhalisinin xəstəlik halının öyrənilməsi 9 kənd sahə xəstəxanasında və bir kənd rayon xəstəxanasında aparıldı. Aşağıda onların adları göstərilib.

Əhalinin sayına görə kənd xəstəxanalarını kiçik kəndlərə aid etmək olar, ona görə ki, 6 kənddə əhalinin sayı 500-lə 1000 nəfər arasında, 3 kənddə 1500-lə 2000 arasında, bir kənddə isə 2000-dən çoxdur. Bunu nəzərə alaraq məqsədə uyğun saydıq ki, əhalinin kənd xəstəxanalarına olan müraciətini birləşdirərək və bütün kəndlər üzrə bir yerdə verək.

Rayonla-rın adı	Xəstəxanaların adı	Onlarda çar-payıların sayı	Həkimlə-rin sayı
Şahbuz	Şahbuz kənd rayon xəstəxanası	35	6
Naxçıvan	1. Cəhri kənd sahə xəstəxanası	25	1
	2. Qahab kənd sahə xəstəxanası	10	1
Noraşen (Şərur)	1. Sədərək kənd sahə xəstəxanası	10	1
	2. Mahmudkənd kənd sahə xəstəxanası	10	1
	3. Çərçiboğan kənd sahə xəstəxanası	15	1
	4. Aralıq kənd sahə xəstəxanası	15	1
	5. Tumaslı kənd sahə xəstəxanası	10	1
Ordubad	1. Aza kənd sahə xəstəxanası	10	1
Culfa	1. Əbrəqunus kənd sahə xəstəxanası	25	1

1962-ci ildə Naxçıvan MSSR-in kənd sahə xəstəxanalarında əhalinin ümumi xəstəlik halı

Kənd əhalisinin öyrənilən xəstəlik strukturunu təsvir etmək üçün əhalinin qısa yaş tərkibini və cinsini nəzərdən keçirək.

Öyrənilən yaşayış məntəqələrinin əhalisinin cəmi sayı 11703 nəfər, onlardan kişilər – 5789, qadınlar – 5914 nəfər olmuşdur. Uşaq əhalisinin sayı – 0-14 yaş 5758 nəfər (49,2%), təqribən böyük əhalinin sayına – 5945 nəfər (50,8%) bərabərdir.

Öyrənilən kənd əhalisinin yaş tərkibi imkan verdi ki, 1962-ci il ərzində əhalinin ayrı-ayrı yaş qruplarında müraciətlərin bölünməsi işıqlandırılsın. Bundan başqa tibbi köməyə müraciət etməyən əhalinin sayı da təyin edildi.

Aşağıdakı cədvəldə tibbi köməyə görə göstərilən müraciətlərin bölünməsi təhlil edilir.

32-ci cədvəl

Ilkin müraciətlərin sayının kənd əhalisinin ayrı-ayrı yaş qruplarına bölünməsi (%-lə)

Uşaq qrupları illərlə / Müraciətlərin bölünməsi	Müraciət etməyib	Cəmi müraciət edənlər	O cümlədən				
			1 dəfə	2 dəfə	3 dəfə	4 və daha çox	Cəmi
1 yaşa qədər	7,6	92,4	44,8	37,6	9,1	0,9	100,0
1-2	32,0	68,0	34,7	29,4	3,8	0,1	100,0
3-4	43,5	56,5	29,2	24,3	2,5	0,5	100,0
5-9	65,3	34,7	18,7	14,3	1,6	0,1	100,0
10-14	57,4	42,6	24,3	17,0	1,2	0,1	100,0
15-19	51,7	48,3	27,5	18,0	2,8	-	100,0
20-29	47,2	52,8	30,7	19,2	2,5	0,4	100,0
30-39	46,1	53,9	28,7	21,8	3,3	0,1	100,0
40-49	46,9	53,1	29,8	28,2	2,5	0,6	100,0
50-59	41,4	58,6	30,0	24,4	4,0	0,2	100,0
60 və daha böyük	57,5	42,5	22,3	16,3	3,2	0,7	100,0
Cəmi	48,6	51,4	27,6	20,6	2,9	0,3	100,0

Göstərilən məlumatlardan aydın olur ki, öyrənilən kəndlərdə 1962-ci ildə tibbi kömək üçün müraciət edənlərin sayı – 51,4%, müraciət etməyənlərin sayı – 48,6% olmuşdur.

Öyrənilən məlumatlar göstərdi ki, 1962-ci ildə xəstəliyə görə sahə xəstəxanalarına 6015 nəfər, o cümlədən kişilər – 3172 nəfər, qadınlar – 2843 nəfər müraciət etmişdir.

9221 xəstəlik hadisəsi qeydə alınmışdır, o cümlədən kişilərdə – 4835 və qadınlarda – 4386 hadisə.

Ümumi müraciətlərin sayının tibbi kömək üçün müraciət edilən müalicə müəssisələrinin növünə görə bölünməsi xüsusi maraq doğurur. Aşağıdakı cədvəldə bu göstərilib.

33-cü cədvəl

Müraciətlərin müalicə müəssisələrinin növünə görə bölünməsi (cəminə görə %-lə)

Müalicə müəssisələrinin növü	Kişilər	Qadınlar	Hər iki cins
Respublika müalicə-profilaktika müəssisələrinə	7,1	5,5	6,4
Rayon müalicə-profilaktika müəssisələrinə	12,2	14,1	13,1
Sahə kənd xəstəxanalarına	80,7	80,4	80,5
Cəmi	100,0	100,0	100,0

Cədvəldən göründüyü kimi əhalinin böyük hissəsi – 80,5%-i (o cümlədən kişilər – 80,7%, qadınlar – 80,4%) kənd sahə xəstəxanalarına, 13,1% (12,2% kişilər, 14,1% qadınlar) rayon müalicə-profilaktika müəssisələrinə, 6,4% (7,1% kişilər, 5,5% qadınlar) respublika müalicə-profilaktika müəssisələrinə müraciət etmişlər.

Əhalinin 1000 nəfərinin cinsinə və yaşına görə müraciət göstəricisi aşağıdakı cədvəldə göstərilib:

34-cü cədvəl

Əhalinin 1000 nəfərinin həmin yaş-cins qrupuna düşən xəstələrin sayı

Yaş qrupları illərlə	Kişilər	Qadınlar	Hər iki cins
1 yaşa qədər	1567,2	1452,3	1508,2
1-2	1210,2	893,4	1061,3
3-4	1014,8	732,9	876,7
5-9	548,0	502,7	527,1
10-14	663,5	573,5	622,3
15-19	726,0	736,0	730,8
20-29	838,6	727,6	779,5
30-39	848,3	793,5	818,8
40-49	873,0	793,6	829,4
50-59	996,4	893,4	941,3
60 və daha böyük	643,4	680,6	664,8
Cəmi	835,2	741,6	787,9

Cədvəldən göründüyü kimi əhalinin ümumi xəstəlik halı 1000 nəfərə 787,9 müraciət olmuşdur, kişilər (1000 nəfərə 835,2 müraciət) qadınlara nisbətən (741,6 müraciət) tez-tez xəstələnir. Xəstəlik 1 yaşına qədər uşaqlarla daha yüksəkdir (1000 nəfər) 1 yaşına qədər uşağa 1508,2 müraciət düşür. Ən aşağı xəstəlik səviyyəsi 10-14 yaşlı uşaqlarda (622,3 müraciət), 5-9 yaşlarda (527,1 müraciət) və 60 və daha yüksək yaşlarda (664,8 müraciət) qeyd olundu.

Tədqiq olunan əhalinin xəstəliyinin səviyyəsi və strukturası xüsusi əhəmiyyət kəsb edir. Bu aşağıdakı 35-ci cədvəldə göstərilib

Qeyd etmək lazımdır ki, cədvəldə siniflər və bəzi xəstəliklər qrafasında «o cümlədən» sözündən sonra yalnız yüksək faizli xəstəliklər göstərilib.

35-ci cədvəl

Xəstəliklərin sinifinə və bəzi nozoloji formasına görə Naxçıvan MSSR-də 1962-ci ildə kənd əhalisinin ümumi xəstəlik halının səviyyəsi və strukturası

Siniflər və bəzi xəstəliklərin forması	1000 nəfər əhaliyə müraciətlərin sayı			Cəmi %-lə		
	kişi	qadın	hər iki cins	kişi	qadın	hər iki cins
1	2	3	4	5	6	7
Infeksion xəstə-liklər	168,2	137,6	152,8	29,1	18,6	19,4
O cümlədən: qarın yatalağı	7,6	8,4	8,0	0,9	1,1	1,0
qızılca	9,1	5,2	7,2	1,1	0,7	0,9
angina	79,3	59,7	69,4	9,5	8,1	9,8
viruslu qripp	29,5	22,6	26,1	3,5	3,1	3,3
Parazitar xəstəliklər	29,7	37,7	33,7	3,5	5,1	4,3
O cümlədən: askaridoz	22,1	28,4	24,8	2,6	3,7	3,1
Travmalar	80,8	40,7	63,7	9,7	6,4	8,1
O cümlədən: kənd təsərrüfat travması	23,0	11,5	16,6	2,7	1,4	2,1
Sənaye travması	34,5	22,1	28,3	4,1	2,3	3,6
Zəhərlənmə	1,7	0,8	1,3	0,2	0,1	0,2
Vitamin çatışmazlığı xəstəlikləri	3,3	3,0	3,1	0,4	0,4	0,4
O cümlədən: raxit	3,3	3,0	3,1	0,4	0,4	0,4
Revmatizs	5,5	7,4	6,5	0,7	1,0	0,8
Maddələr mübadiləsi və allergik pozulmalar	9,3	6,7	8,0	1,1	0,9	1,0
Yeni törəmələr	1,4	1,8	1,6	0,2	0,2	0,2
Endokrin sistemi xəstəlikləri	1,0	0,8	0,9	0,1	0,1	0,1

Qan yaradıcı xəstəliklər sistemi	1,7	9,7	5,8	0,2	1,3	0,7
Psixi pozulmalar	-	0,3	0,2	-	-	0,02
Əsəb sistemi xəstəlikləri	13,8	15,0	14,4	1,6	2,0	1,8
O cümlədən: beloma radikuliti, nevrit və oturaq nervin nevrozu	5,5	5,9	5,7	0,7	0,8	0,7
Göz orqanlarının xəstəlikləri	34,2	29,9	32,0	4,1	4,0	4,1
O cümlədən: konyuktivit	21,7	19,3	20,5	2,6	2,6	2,6
Burun, qulaq, boğaz xəstəlikləri	144,2	106,7	125,2	17,3	14,4	15,9
O cümlədən: otitlər	25,7	22,6	24,2	3,1	3,0	3,1
Yuxarı tənəffüs yollarının iltihabı	94,3	62,5	78,3	11,3	8,5	9,9
Tənəffüs orqanlarının xəstəlikləri	88,4	72,9	80,6	10,6	9,9	10,2
O cümlədən: bronxitlər	35,4	35,5	35,5	4,2	4,8	4,5
Ocaqlı pnevmaniya	43,7	29,4	36,5	5,2	4,0	4,6
Qan dövranı orqanlarının xəstəlikləri	22,4	32,1	27,3	2,7	4,3	3,5
O cümlədən: miokardin distrofiyası	3,3	8,3	5,8	0,4	1,1	0,7
Həzm orqanlarının xəstəlikləri (diş və ağız boşluğunun xəstəliklərindən başqa)	135,4	116,5	125,8	16,2	15,8	16,0

O cümlədən: qastritlər	22,8	26,5	23,2	2,7	3,6	4,2
Dispepsiya	27,4	13,5	20,4	3,3	1,8	2,6
Enteritlər və kolitlər	47,8	39,2	43,5	5,7	5,3	5,5
Sümük, əzələ və toxuma xəstəlikləri	10,9	10,8	10,8	1,3	1,5	1,4
O cümlədən: ostiomielit	1,5	0,5	1,0	0,2	0,07	0,1
Dəri xəstəlikləri	50,4	42,8	46,5	6,0	5,8	5,9
O cümlədən: piodermiya	36,4	30,4	32,1	4,4	4,1	4,1
Ekzema (allergikdən başqa)	6,6	8,9	7,8	0,8	1,2	1,0
Böyrək və sidik orqanlarının xəstəlikləri	9,5	10,3	9,9	1,1	1,4	1,2
O cümlədən: nefritlər	2,7	3,0	2,9	0,3	0,4	0,3
Kişi cinsiyyət orqanlarının xəstəlikləri (zöhrəvi xəstə-liklərdən başqa)	3,8	-	1,9	0,4	-	0,2
Qadın cinsiyyət orqanlarının xəstəlikləri	-	20,8	10,5	-	2,8	1,3
O cümlədən: endometrit	-	5,7	2,9	-	0,8	0,3
Hamiləlik xəstəlikləri, doğuşların və doğuşdan sonrakı patalogiyası	-	10,8	5,5	-	1,5	0,7
O cümlədən: hamiləlik toksikozları	-	4,0	2,0	-	0,5	0,2
Nomenklatura-ya düşməyən və düzgün işarələnməyən	7,8	8,9	8,4	0,9	1,2	1,1

xəstəliklər						
Ağız boşluğu və dişlərin xəstəlikləri	11,4	10,6	11,0	1,4	1,4	1,4
Cəmi bütün siniflər üzrə	835,2	741,6	787,9	100,0	100,0	100,0

Cədvəldən göründüyü kimi strukturada və xəstəliyin yüksək səviyyəsində birinci yeri infeksion xəstəliklər tutur ki, onların da xüsusi çəkisi bütün xəstəliklərin 19,4%-ni təşkil edir (1000 nəfər əhaliyə 152,8 müraciət). Infeksion xəstəliklər arasında angina bu sinifin yarısını təşkil edir – 9,8% (1000 nəfərə 69,4 müraciət), viruslu qripp – 3,3% (1000 nəfərə 26,1 müraciət), qarın yatalağı – 1,0% (1000 nəfərə 8 müraciət), qızılca – 0,9% (1000 nəfərə 7,2 müraciət) və sair.

Ikinci yerdə həzm orqanları xəstəlikləri durur – 16,0% (1000 nəfərə 125,8 müraciət), onların da demək olar ki, 3 hissəsini enteritlər və kolitlər tutur – 5,5% (1000 nəfərə 43,5 müraciət), qastritlər – 4,2% (1000 nəfərə 23,2 müraciət), dispensiya – 2,6% (1000 nəfərə 20,4 müraciət)

Üçüncü yeri burun qulaq və boğaz xəstəlikləri tutur – 15,9% (1000 nəfərə 125,2 müraciət), onlardan da yuxarı tənəffüs yollarının iltihabı xəstəliyinin 3 hissəsini təşkil edir – 9,9% (1000 nəfərə 78,3 müraciət), otitlər – 3,1% (1000 nəfərə 24,2 müraciət).

Dördüncü yerdə tənəffüs yollarının xəstəliyi durur – 10,2% (1000 nəfərə 80,6 müraciət), o cümlədən ocaqlı pnevmaniya 4,6% (1000 nəfərə 36,5 müraciət), bronxitlər – 4,5% (1000 nəfərə 35,5 müraciət).

Beşinci yerdə travmalar durur – 8,1% (1000 nəfərə 63,7 müraciət), o cümlədən sənaye travması – 3,6% (1000 nəfərə 28,3 müraciət), kənd təsərrüfat travması – 2,1% (1000 nəfərə 16,6 müraciət).

Altıncı yerdə dəri xəstəlikləri durur – 5,9% (1000 nəfərə 46,5 müraciət), o cümlədən piodermiya – 4,1% (1000 nəfərə 32,1 müraciət).

Yeddinci yeri parazitar xəstəliklər tutur – 4,3% (1000 nəfərə 33,7 müraciət), o cümlədən askaridoz – 3,1% (1000 nəfərə 24,8 müraciət).

Səkkizinci yerdə göz orqanları xəstəliyi durur – 4,1% (1000 nəfərə 32,0 müraciət), o cümlədən konyuktivit – 2,6% (1000 nəfərə 20,5 müraciət).

Doqquzuncu yerdə qan dövranı orqanlarının xəstəlikləri durur – 3,5% (1000 nəfərə 27,3 müraciət). O cümlədən miokardin distrofiyası – 0,7% (1000 nəfərə 5,8 müraciət).

Onuncu yerdə əsəb sistemi xəstəlikləri durur – 1,8% (1000 nəfərə 14,4 müraciət), o cümlədən bel-oma radikuliti, nevrit və oturaq nervin nevrozu – 0,7% (1000 nəfərə 5,7 müraciət).

On birinci yeri sümük, əzələ və toxuma xəstəlikləri tutur – 1,4% 1000 nəfərə 10,8 müraciət).

On ikinci yeri ağız boşluğu və dişlərin xəstəlikləri tutur – 1,4% (1000 nəfərə 11,0 müraciət).

Bunlardan sonra xüsusi çəkisi 1,3-dən 0,02-yə qədər olan xəstəliklər qrupu gəlir: qadın cinsiyyət orqanlarının xəstəlikləri – 1,3% (1000 nəfərə 10,5 müraciət), böyrək və sidik orqanlarının xəstəlikləri – 1,2% (1000 nəfərə 9,9 müraciət), nomenklaturaya düşməyən və düzgün işarələnməyən xəstəliklər – 1,1% (1000 nəfərə 8,4 müraciət), maddələr mübadiləsi və allergik pozulmalar – 1,0% (1000 nəfərə 8,0 müraciət), revmatizm – 0,8% (1000 nəfərə 6,5 müraciət), qan yaradıcı xəstəliklər sistemi – 0,7% (1000 nəfərə 5,8 müraciət), hamiləlik xəstəlikləri, doğuşların və doğuşdan sonrakı patologiyası – 0,7% (1000 nəfərə 5,5 müraciət), vitamin çatmamazlığı xəstəlikləri – 0,4% (1000 nəfərə 3,1 müraciət), kişi cinsiyyət orqanlarının xəstəlikləri (zöhrəvi xəstəliklərdən başqa) – 0,2% (1000 nəfərə 1,9 müraciət), zəhərlənmə – 0,2% (1000 nəfərə 1,3 müraciət), yeni törəmə – 0,2% (1000 nəfərə 1,6 müraciət), endokrin sistemi xəstəlikləri – 0,1% (1000 nəfərə 0,9 müraciət), psixi pozulma – 0,02% (1000 nəfərə 0,2 müraciət).

Yuxarıda göstərilənlərdən aydın olur ki, xəstəliklərin strukturasının əsas hissəsini infeksion xəstəliklər, həzm orqanlarının xəstəlikləri, burun, qulaq, boğaz xəstəlikləri, tənəffüs orqanlarının xəstəlikləri, travmalar, dəri xəstəlikləri, parazitar xəstəliklər, göz orqanlarının xəstəlikləri tutur ki, onların payına üst-üstə xəstəliklərin 83,9%-i düşür.

Xəstəxanaya qəbul

Naxçıvan MSSR-də kənd əhalisinin xəstəxanaya qəbulu məsələsi yuxarıda qeyd edildiyi kimi, doqquz kənd sahə və bir kənd rayon xəstəxanalarında öyrənilmişdir.

Xəstəxanada aparılan xəstəlik tarixindən, yeni doğulmuşun inkişaf tarixindən, uşağın inkişaf tarixindən və başqa sənədlərdən məlumatlar xüsusi hazırlanmış statistik kartaya köçürmə yolu ilə əldə edilmişdir. Bu materialların nəticəsində aydın oldu ki, 1962-ci ildə bu xəstəxanalara 1640 nəfər kənd əhalisi qəbul olunmuşdur ki, bu da ilkin müraciətlərin sayının 17,8%-nə və bütün əhalinin sayının 14,0%-nə bərabər olmuşdur. Əhalinin 1000 nəfərinə 140,1 xəstəxanaya qəbul düşür. Əhalinin siniflər və nozoloji forma üzrə xəstəxanaya yerləşdirilməsi aşağıdakı 36-cı cədvəldə göstərilib.

36-cı cədvəl

Naxçıvan MSSR-də 1962-ci ildə kənd əhalisinin kənd xəstəxanalarına yerləşdirilməsi

Xəstəliyin adı	1000 nəfər əhaliyə xəstələrin sayı	Xəstəxanaya yerləşdirilənlərin sayı		Xəstənin çarpayıda qalma müddəti
		100 nəfər xəstələnənlərə	1000 nəfər əhaliyə	
1	2	3	4	5
Cəmi	787,9	17,8	140,1	8,8
Infeksion xəstəliklər	152,8	15,6	21,1	8,3
O cümlədən: angina	69,4	17,7	12,3	7,6
Viruslu qripp	26,1	18,4	4,8	6,4
Parazit xəstəliklər	33,7	58,7	19,8	4,9
O cümlədən: askaridoz	24,8	68,9	17,1	4,8
Travmalar	63,7	8,6	5,4	9,1
Burun, qulaq və boğaz	125,2	13,1	16,4	7,2
O cümlədən: tonzillitlər	12,5	24,4	3,1	7,0
Yuxarı tənəffüs yollarının iltihabı	78,3	14,1	11,0	7,1
Tənəffüs yollarının xəstəlikləri	80,6	32,1	25,9	10,3
O cümlədən: bronxitlər	35,5	24,3	8,6	10,5
Ağ ciyərlərin krupoz iltihabı	3,1	69,4	2,1	13,3
Ocaqlı pnevmoniya	36,5	38,6	14,1	9,6
Qan dövranı orqanlarının xəstəlikləri	27,3	15,5	4,0	13,1
Həzm orqanlarının xəstəlikləri (diş və ağız boşluğunun xəstəliklərindən başqa)	125,8	21,6	27,2	9,9
O cümlədən: qastritlər	33,2	14,4	4,8	8,5

dispepsiyalar	20,4	33,5	6,8	7,7
Enteritlər və kolitlər	43,5	18,1	7,8	8,6
Xroniki hepatit və qara ciyərin sirrozu	10,7	28,8	3,1	14,5
Dəri xəstəlikləri	46,5	7,9	3,7	9,7
O cümlədən: piodermiya	32,1	7,9	2,5	8,9
Sairə xəstəliklər	124,0	10,9	13,6	10,7

Cədvəldən göründüyü kimi müraciətlərin sayına görə xəstəxanaya yüksək faiz qəbul əsasən ağ ciyərin krupoz iltihabı (69,4%), askaridoz (68,9%), ocaqlı pnevmaniya (38,6%), dispepsiyalar (33,5%), xroniki hepatit və qara ciyərin sirrozu (28,8%), tonzillitlər (24,4%), bronxitlər (24,3%), viruslu qoripp (18,4%), enteritlər və kolitlər (18,1%), anginalar (17,7%), qastritlər (14,4%) və yuxarı tənəffüs yollarının iltihabı (14,1%) xəstəliklərin hesabına olmuşdur.

Siniflər üzrə xəstəxanaya ən çox qəbul etmək koeffisienti (100 xəstələnmişlərə) parazitar xəstəliklər (58,7%), tənəffüs yolları xəstəlikləri (32,1%) həzm orqanları xəstəlikləri (21,6%), infeksion xəstəliklər (15,6%), qan dövranı orqanlarının xəstəlikləri (15,5%), burun, qulaq və boğaz xəstəlikləri (13,1%), sairə xəstəliklər (10,9%), travmalarla (8,6%) və dəri xəstəlikləri (7,9%) üzrə olmuşdur.

Xəstələrin xəstəxanaya qəbulu ən çox həzm orqanlarının xəstəliklərinin (1000 nəfərə 27,2) hesabına olmuşdur. Onlardan 7,8 hadisə enteritlər və kolitlərə, 6,8 – dispepsiyalara, 4,8 – qastritlərə və 3,1 xroniki hepatitlərə və qara ciyər sirrozuna düşür;

Ikinci yerdə tənəffüz orqanlarının xəstəlikləri durur (1000 nəfərə 25,9), onlardan ocaqlı pnevmaniya 14,1 hadisə, bronxitlər – 8,6, ağ ciyərlərin krupoz iltihabı – 2,1 hadisə;

Üçüncü yerdə infeksion xəstəliklər durur (1000 nəfərə – 21,1), o cümlədən angina xəstəliyinə görə xəstəxanaya qəbul olunanlar 12,3 və viruslu qripplə 4,8 hadisə;

Dördüncü yerdə parazitar xəstəliklər durur (1000 nəfərə 19,8) onlar arasında askaridozlar 17,1 hadisə;

Beşinci yeri burun, qulaq və boğaz xəstəliyi tutur (1000 nəfərə 16,4), onlardan əsas yeri yuxarı tənəffüs yollarının iltihabı (11,0) və tonzillitlər (3,1%) tutur;

Altıncı yerdə sairə xəstəliklər durur (1000 nəfərə 13,6). Axırıncı üç yeri travmalar (5,4) və qan dövranı orqanlarının xəstəlikləri (4,0) və dəri xəstəlikləri (3,7), o cümlədən piodermiya (2,5) tutur.

Stasionar müalicənin orta müddəti, bütün xəstəliklər üzrə 8,8 gün olmuşdur.

Xəstənin çarpayıda ən çox qalma müddəti qan dövranı orqanlarının xəstəliklərin də qeyd olunmuşdur (13,1 gün).

Xəstənin çarpayıda qalma müddəti tənəffüs orqanlarının xəstəliyində 10,3 gün olmuşdur, o cümlədən ağ ciyərlərin krupoz iltihabında – 13,3 gün, bronxitlərdə 10,5 gün, ocaqlı pnevmaniyada – 9,6 gün. Həzm orqanlarının xəstəliklərində – 9,9 gün, o cümlədən xroniki hepatitdə və qara ciyərin sirrozunda – 14,5 gün, enteritlər və kolitlərdə – 8,6 gün, qastritlərdə – 8,5 gün, dispersiyalarda – 7,7 gün, travmalarda – 9,1 gün; infeksion xəstəliklərdə – 8,3 gün, o cümlədən anginalarda – 7,6; gün viruslu qrippdə – 6,4 gün; burun, qulaq və boğaz xəstəliklərində – 7,2 gün, o cümlədən yuxarı tənəffüs yollarının xəstəliklərində – 7,1 gün, tonzillitlərdə – 7,0 gün; parazitar xəstəliklərdə – 4,9 gün, onlardan askaridozda – 4,8 gün.

Onu da qeyd etmək məqsədə uyğundur ki, Naxçıvan MSSR-də kənd əhalisinin xəstəliyinə aid tədqiqat nəticəsində əldə edilən materiallar bir sıra alimlərin (P.I.Kalyu, Y.A.Loqinova, B.M.Matsko, O.N.Stelmax, E.R.Ağayev, A.M.Laskov) kənd əhalisinin xəstəlikləri haqqında əldə etdikləri məlumatlara çox yaxındır.

Naxçıvan MSSR-də 1920-1966-cı illərdə işləmiş səhiyyə təşkilatçıları haqqında M Ə L U M A T

Arxiv materiallarını araşdırarkən bizə rast gələn Naxçıvan MSSR-də əhaliyə tibbi xidmətin təşkilində və xalq səhiyyəsinin inkişaf etdirilməsində diqqətə layiq iş görmüş görkəmli səhiyyə təşkilatçılarının adlarını Monoqrafiyada işıqlandırmağı zəruri saydıq.

Onların adlarını aşağıda qeyd edirik.

Xalq səhiyyə komissarları (1946-cı ilə qədər) və səhiyyə nazirləri (1946-cı ildən sonra)

1. Əli Abbas oğlu Abbasov – ilk xalq səhiyyə komissarı (1920-1922);
2. Məmmədismayıl (Baba) Allahverdi oğlu Qədimov – xalq səhiyyə komissarı (1924-1928);
3. Rüfətpaşa Tağı oğlu Səfərov – xalq səhiyyə komissarı (1928-1930);
4. Nadir Cəlil oğlu Məmmədli – xalq səhiyyə komissarı (1931-1937);
5. Aslan Nəzər oğlu Tahirov – xalq səhiyyə komissarı (1937);
6. Həmid Əsgər oğlu Əsədov – xalq səhiyyə komissarı (1938-1944);
7. Ələkbər Əhəd oğlu Ismayılov – səhiyyə naziri (1944-1953);
8. Hüseyn Cabbar oğluAbbasov–səhiyyə naziri (1953-1955);
9. Süleyman Əsəd oğlu Süleyman-zadə – səhiyyə naziri (1955-1959);
10. Tofiq Abdulla oğlu Sultanov –səhiyyə naziri(1959-1965);
11. Adil Nifti oğlu Məmmədov – səhiyyə naziri (1965-1971);

Səhiyyə nazirinin müavinləri və nazirliyin Baş mütəxəssisi haqqında əldə etdiyimiz məlumat

1. Anna Ivanovna Suslova – səhiyyə nazirinin müavini (1944-1948);
2. Hacı Tahir oğlu Tahirov – səhiyyə nazirinin müavini (1966-1973);
3. Valentina Filipovna Qnedkova – nazirliyin Baş mama ginekoloqu (1951-1963)

Qeyd: Yuxarıda adları qeyd olunan xalq səhiyyə komissarları – R.T.Səfərov və A.N.Tahirov haqqında bizə heç bir məlumat rast gəlmədiyinə görə məlumat T.R.Cəfərovun Monoqrafiyasından (Naxçıvan MR-da səhiyyənin inkişafı (1999-cu il) götürülüb və olduğu kimi çap edilib.

O ki, qaldı H.Ə.Əsədova, onun haqqında arxiv məlumatı olsa da tərcümeyi halı haqqında heç kimdə, hətta Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin arxivində belə məlumat olmadı.

Ilk səhiyyə komissarı və görkəmli səhiyyə təşkilatçısı

Naxçıvan zəhmətkeşləri Naxçıvan MSSR-də əhaliyə tibbi xidmət göstərilməsinin təşkilində və xalq səhiyyəsinin inkişaf etdirilməsində görkəmli səhiyyə təşkilatçılarının adlarını böyük məhəbbət və səmimi minnət-darlıq hissi ilə xatırlayırlar. Belə təşkilatçılardan biri Naxçıvan Muxtar Sosialist Respublikasının ilk səhiyyə komissarı Əli Abbas oğlu Abbasov olmuşdur.

Ə.A.Abbasov ömrünün 40 ilindən çoxunu insanların sağlamlığı uğrunda mübarizəyə sərf etmişdir. O, 1886-cı ilin yanvar ayında Naxçıvan şəhərində anadan olmuşdur. Ə.A.Abbasov ibtidai təhsilini Naxçıvan şəhər məktəbində aldıqdan sonra 1901-ci ildə Irəvan şəhər müəllimlər seminariyasına daxil olmuş və 1905-ci ildə seminariyanı bitirərək Naxçıvan şəhərində və Naxçıvan qəzasının kəndlərində 7 il xalq müəllimi kimi işləmişdir. Ə.A.Abbasov 1912-ci ildə Kiyev Universitetinin tibb fakültəsinə daxil olmuş, 1917-ci ildə universiteti bitirdikdən sonra doğma vətənə qayıtmış və həkimlik etməyə başlamışdır.

Ə.A.Abbasov Naxçıvana gələn zaman orada yalnız bir həkim və bir neçə orta tibb işçisi var idi ki, onlar da sonralar Naxçıvanda baş vermiş hərc-mərclik nəticəsində öz şəxsi təhlükəsizliklərini təmin etmək üçün 1918-ci ildə qəzanı tərk etmişlər. Ə.A.Abbasov Naxçıvandakı həkimlik fəaliyyətindən danışaraq xatırlayırdı: «O zamanlar işləmək üçün heç bir şərait yox idi. Gün çıxandan gün batanadək işləmək lazım gəlirdi. Əhaliyə tibbi yardım göstərmək işi çox çətin idi. Hər yerdə qarın yatalağı, vəba və qeyri-infeksion xəstəliklər geniş yayılmışdı. Dərman çatışmırdı. Peyvənd etmək üçün vaksin

olmadığından əhali çiçək xəstəliyinə tutulurdu. Xəstəxananın vəziyyəti daha acınacaqlı halda idi…».

Ə.A.Abbasov belə bir çətin şəraitdə əhaliyə tibbi xidmət göstərməklə yanaşı Naxçıvanda Sovet hakimiyyəti qurulması uğrunda mübarizədə də fəal iştirak etmişdir.

Naxçıvanda Sovet hakimiyyəti qurulduğu ilk günlərdən başlayaraq əhaliyə tibbi xidmət göstərmək üçün ciddi tədbirlər görüldü. 1920-ci ilin oktyabrında Naxçıvan Inqilab Komitəsinin dekreti ilə ölkədə ilk səhiyyə şöbəsi yaradıldı. Oraya müdir həkim Ə.A.Abbasov təyin edildi. Bir neçə aydan sonra səhiyyə şöbəsi səhiyyə komissarlığına çevrildi və Ə.A.Abbasov ilk səhiyyə komissarı vəzifəsinə irəli çəkildi. Bu ağır illərdə əhaliyə tibbi xidmətin təşkili və xalq səhiyyəsinin inkişafı Ə.A.Abbasova tapşırılmışdı. Qarşıda duran vəzifə şərəfli olsa da çox ciddi və inadla çalışmaq tələb olunurdu. Bir tərəfdən büdcənin zəif olması, daha doğrusu mərkəzi səhiyyə təşkilatları ilə (xüsusən Bakı ilə) əlaqənin hələ tam bərpa olunmaması, müalicə müəssisələrinin dağıdılması, digər tərəfdən isə yoluxucu xəstəliklərin geniş yayılması yenicə yaradılmış səhiyyə təşkilatının işində böyük çətinliklər törədirdi.

Ə.A.Abbasov ona tapşırılan vəzifəni şərəflə yerinə yetirdi. Onun təşəbbüsü ilə Naxçıvanda 20 çarpayılıq şəhər xəstəxanası bərpa edildi, yeni uşaq xəstəxanası, ambulatoriya, sanitariya komitəsi təşkil olundu və aptek açıldı, habelə Noraşendə (indiki Şərur rayonunda) feldşer məntəqəsi və aptek təşkil edildi. Bu müəssisələrdə işləyənlərin sayı 46-ya çatırdı (onlardan 4 nəfəri həkim olmuşdur).

Ə.A.Abbasov sonralar göz həkimi olmaq qərarına gəlir. O, 1922-ci ilin fevralında Bakıya gəlib, əvvəlcə Bakı şəhər göz xəstəxanasında ordinator, sonra isə Azərbaycan Dövlət Universiteti tibb fakültəsinin göz xəstəlikləri klinikasında assistent vəzifəsində işləyir.

Ə.A.Abbasov 1930-1936-cı illərdə 26 Bakı komissarı adına Bakı-Biləcəri qovşağının vahid dispanserində göz xəstəlikləri şöbəsinə başçılıq edir. 1936-cı ildə o, mərkəzi göz xəstəxanasına direktor müavini, 2 il sonra isə həmin xəstəxananın direktoru təyin edilir. 1946-cı ildə həmin

xəstəxana Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya Institutuna çevrilir və Ə.A.Abbasov həmin institutun direktoru vəzifəsinə irəli çəkilir. Ömrünün sonunadək o, bu vəzifədə çalışır. Təşkilatçılıq bacarığı, işdə prinsipial, qayğıkeşliyi az müddət ərzində ona respublikanın tibb işçiləri arasında böyük hörmət və nüfuz qazandırır.

Azərbaycan SSR Elmi-Tədqiqat Oftalmologiya Institutunun professoru, tibb elmləri doktoru S.X.Axundova-Bağırbəyova Ə.A.Abbasova verdiyi xasiyyətnamələrin birində yazır: «…Özünün çoxillik fəaliyyəti ərzində həkim Ə.A.Abbasov yüksək ixtisaslı mütəxəssis-oftalmoloq olmaqla bərabər eyni zamanda yaxşı təşkilatçıdır. Ə.A.Abbasov nəinki institutun bütün kollektivi arasında, habelə xəstələr arasında da böyük hörmət və nüfuz qazanmışdır. Istər siyasi və istərsə də ictimai xarakterdə keçirilən bütün tədbirlərdə o, həmişə yaxından iştirak edir…».

Ə.A.Abbasov göz müalicə-profilaktika müəssisələri şəbəkəsinin təşkilində və genişləndirilməsində də fəal iştirak etmişdir.

Ə.A.Abbasovun həyatı həm də elmlə sıx surətdə bağlı olmuşdur. O, bir çox qiymətli əsərlərin müəllifidir. Ə.A.Abbasov elmi fəaliyyətə hələ 1925-ci ildən başlamışdır. O, göz xəstəliklərinə dair 40-dan artıq elmi əsərin müəllifidir. Ə.A.Abbasov əsərlərində «Anensefaliya zamanı gözdəki dəyişiliklər», «Həqiqi gözsüzlük təsadüfü», «Şişvarı cisimdə atrofiya qalığı», «Qüzehli qişada tipik və atipik kolobomlar», gözün anadangəlmə eybəcərliyi, habelə gözün qüsurlu inkişafı məsələlərini işıqlandırmışdır.

Ə.A.Abbasovun diqqətini sonralar başlıca olaraq «Piqmentli retinitin etiologiyasına aid kazuistika», «Yayılmış skleroz nəticəsində retrobulbar kazuistikası», «Xərçənglə zədələnmiş döş vəzisi çıxarıldıqdan sonra gözün damar traktında xərçəng metastazı təsadüfü», «Gözyaşı kanalında milçək sürfəsinin tapılması təsadüfü» və sairə bu kimi kazuistikalar (nadir təsadüf edilən xəstəliklər) cəlb etmişdir. Ə.A.Abbasovun 1937-1947-ci illərdə yazdığı «Traxomatoz pannuslarda civə 1-sianat məhlulunun konyunktivaaltı inyeksiyasına dair göstərişlər haqqında», «Traxomanın

subkonyunktival inyeksiya ilə müalicəsi», «Traxoma və onun ağırlaşmalarının müalicə üsulları» və başqa tədqiqat işləri traxomatoz pannusun və traxomanın müalicəsinə həsr edilmişdir. Ə.A.Abbasov çevrilmiş göz qapaqlarının düzəldilməsinə, trixiaza aid xüsusi üsulları vardır. 1930-cu ildən etibarən o, metil spirtinin görmə sinirinə təsiri, metil spirtinə məruz qalmış xəstələrin müalicəsi və profilaktikası məsələləri ilə maraqlanmışdır. Bir sıra elmi işlərində müharibə, sənaye, kənd təsərrüfatı, məişətlə əlaqədar olaraq təsadüf edilən göz travmatizminə aid çoxlu dəyərli məsləhətlər vermişdir. Bu tədqiqat işlərində müəllif belə bir fikrə gəlir ki, bir sıra profilaktik tədbirlərin həyata keçirilməsi nəticəsində sənaye göz travmatizmini minimum dərəcəyə endirmək olar.

Ə.A.Abbasov 1949-cu ildə «Göz almasının döyüş yaralanmalarında elektromaqnit operasiyası» adlı dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək tibb elmlər namizədi adını almışdır.

Ə.A.Abbasov bir sıra təsadüflərdə işıq həssaslığını itirmiş gözlərdə görmənin və düzgün proyeksiyanın əldə edilməsinə müvəffəq olmuşdur. Özünün müharibə və sülh dövründəki çoxlu təcrübəsinə əsasən həkim Ə.A.Abbasov hətta gecikmiş hallarda belə göz daxilindən maqnitlə xırda metal qəlpələrin çıxarılması üçün çox xətərsiz və yaxşı üsul əldə etmişdir. 1951-ci ildə o, «Azərbaycanda traxoma» haqqında monoqrafiya yazmağa başlamışdır. Bu məsələyə tarixi, coğrafi, etnoqrafik, iqlim, aroqrafik, məişət və sairə nöqteyi-nəzərdən yanaşaraq müəllif Azərbaycanda traxomanın yayılması səbəblərini aydınlaşdırmaqla respublikada traxomanın tezliklə, tam ləğvinə hansı yollarla nail olmağı göstərmişdir.

Göz xəstəlikləri sahəsində 35 ildən çox etdiyi həkimlik fəaliyyəti dövründə Ə.A.Abbasov 10 mindən çox müxtəlif operasiya etmiş və yüzlərlə adamın gözünə işıq vermişdir.

1952-ci ilin fevralında Ə.A.Abbasova Azərbaycan SSR Elmi-Tədqiqat Oftalmologiya institutunun baş elmi işçisi adı verilmişdir.

Ə.A.Abbasov Naxçıvan MSSR-dən uzaqda işləsə də həmişə respublikada səhiyyə işinin vəziyyəti ilə yaxından

maraqlanmış və onun yaxşılaşdırılması üçün qayğı göstərmişdir. Ə.A.Abbasovun təşəbbüsü ilə 1956-cı ildə Naxçıvanda keçirilmiş elmi sessiya Naxçıvan MSSR-də traxoma xəstəliyinin ləğv edilməsi məsələsinə həsr edilmişdir.

Ə.A.Abbasovun ictimai fəaliyyəti də diqqətəlayiq olmuş, o, dəfələrlə Bakı şəhər Sovetinə deputat seçilmiş və bir çox illər ərzində Azərbaycan oftalmoloqları cəmiyyətinin sədri olmuşdur.

Kommunist Partiyası və Sovet hökuməti xalq səhiyyəsi sahəsində Ə.A.Abbasovun səmərəli fəaliyyətini yüksək qiymətləndirmişlər. Ona 1940-cı ildə Azərbaycanın Əməkdar Həkimi adı verilmişdir. Ə.A.Abbasov həmçinin Lenin ordeni, «Şərəf nişanı» ordeni, medallarla, «Səhiyyə əlaçısına» nişanı ilə və fəxri fərmanla təltif olunmuşdur.

Əli Abbas oğlu Abbasov 1957-ci il aprelin 23-də vəfat etmişdir.

M.A.Qədimov Naxçıvan MSSR-nin ilk xalq səhiyyə komissarlarından biridir

Məmmədismayıl Allahverdi oğlu Qədimov 1895-ci il avqustun 23-də Naxçıvan şəhərində anadan olmuşdur. 1915-ci ildə Kutaisi klassik gimnaziyasını bitirdikdən sonra, Kiyev universitetinin tibb fakültəsinə daxil olur. 1919-1920-ci illərdə M.A.Qədimov Bakı lazaretində feldşer vəzifəsində işləyir. Bundan sonra o, Naxçıvan şəhərinə gəlir və burada 1920-ci ilin iyun ayından 1923-cü ilin axırınadək şəhər ambulatoriya-sının müdiri vəzifəsində çalışır. 1924-cü ildə M.A.Qədimov Naxçıvan MSSR xalq səhiyyə komissarı vəzifəsinə irəli çəkilir.

Naxçıvan MSSR-də xalq səhiyyə komissarı vəzifəsində çalışarkən M.A.Qədimov bütün qüvvəsini Muxtar respublikanın müalicə və profilaktika müəssisələri şəbəkəsinin genişlənməsinə, tibb müəssisələrində işin təşkilinə, onların həkim kadrları və orta tibb işçiləri ilə təmin olunmasına sərf etmişdir. Artıq 1925-ci ildə respublikada tibb müəssisələrinin (23), həkimlərin (22) və orta tibb işçilərinin (36) sayı xeyli artmışdır.

1925-ci il noyabrın 1-də M.N.Qədirli və M.A. Qədimovun təşəbbüsü ilə Naxçıvan MSSR həkimlərinin I qurultayı çağırılmışdır. Həmin qurultay respublikada səhiyyə işinin yaxşılaşmasında böyük rol oynamışdır. Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığının sənədlərində göstərilir ki, qurultaydan sonra Naxçıvan MSSR tibbi müəssisələrinin avadanlıqla təchiz olunması işinə böyük yardım göstərilmişdir.

M.A.Qədimov eyni zamanda elmi işlə də məşğul olmuşdur. Onun 14 elmi əsəri olmuşdur ki, bunlardan da 8-i nəşr edilmişdir. O, yalnız yaxşı təşkilatçı deyil, eyni zamanda fəal ictimaiyyətçi idi. 1924-cü ildən 1929-cu ilədək M.A.Qədimov Naxçıvan MSSR Mərkəzi Icraiyyə Komitəsinin

üzvü, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı kollegiyasının üzvü, Azərbaycan Tibb Cəmiyyətinin fəal üzvlərindən biri olmuşdur.

Böyük Vətən müharibəsinin ilk günlərində (5/VII-1941-ci il) M.A.Qədimov Sovet ordusu sıralarına səfərbərliyə alınmış və ömrünün son günlərinə qədər sovet döyüşçülərinə tibbi xidmət göstərmək üçün bir sıra məsul vəzifələri yerinə yetirmişdir.

Səhiyyə sahəsindəki xidmətlərinə görə M.A.Qədimov «Qırmızı Əmək Bayrağı» ordeni, medallar, «Səhiyyə əlaçısına» nişanı və Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

M.A.Qədimov 1942-ci ildə Azərbaycan SSR Əməkdar həkimi adına layiq görülmüşdür.

M.A.Qədimov 1944-cü ilin oktyabr ayında Bakı şəhərində vəfat etmişdir.

Rüfətpaşa Tağı oğlu Səfərov

Rüfətpaşa Tağı oğlu Səfərov 1903-cü ildə Naxçıvanda görkəmli Azərbaycan maarifçisi və pedaqoqu Məmmədtağı Sidqinin ailəsində anadan olmuşdur.

R.T.Səfərov Moskva Dövlət universitetinin tibb fakültəsini bitirdikdən sonra 1925-ci ildə Bakıda M.Əzizbə-yov adına xəstəxanada həkimlik fəaliyyətinə başlamışdır. Sonra o, Ağdam, Gəncə səhiyyə orqanlarında məsul vəzifələrdə çalışmışdır.

R.Səfərov 1928-ci ildə Naxçıvan MSSR Xalq Səhiyyə komissarı təyin olunmuşdur. 1930-cu ildə R.Səfərov Bakıya – Xəzər Hövzə Səhiyyə Idarəsinə rəis keçirilib və 35 ildən artıq həmin tibb xidmətinə fasiləsiz rəhbərlik etmişdir. Təcrübəli həkim, bacarıqlı təşkilatçı olan R.Səfərov bütün biliyini və qüvvəsini dənizçilərə və onların ailələrinə tibb xidməti göstərilməsinə sərf etmişdir.

R.Səfərov Bakının ictimai həyatında fəal iştirak etmiş, 26 Bakı komissarı rayon sovetinə dəfələrlə deputat seçilmişdir.

Səhiyyə sahəsində xidmətlərinə görə o, «Qırmızı Əmək Bayrağı» ordeni, iki dəfə «Şərəf nişanı» ordeni ilə, habelə medallarla təltif olunmuşdur.

Ömrünün son illərində fərdi təqaüdçü olduqda belə R.Səfərov Azərbaycan Su səhiyyə sistemində əmək fəaliyyətini davam etdirmişdir.

Rüfətpaşa Tağı oğlu Səfərov 1974-cü ilin iyun ayında vəfat etmişdir.

Nadir Cəlil oğlu Məmmədli

Nadir Cəlil oğlu Məmmədli 1897-ci ilin mart ayında Yelizavetpol quberniyasının Gəncə şəhərində anadan olub.

1916-cı ildə Gəncədə səkkiz illik klassik gimnaziyanı bitirib. N.Məmmədli 1916-1917-ci illərdə Gəncə şəhərində müəllim, 1918-1919-cu illərdə isə Gəncə şəhər bələdiyyə idarəsində müvəkkil işləmişdir. 1920-ci ildə o, Bakı şəhərinə köçmüş və həmin ildən ömrünün axırına kimi əmək fəaliyyətini səhiyyə işi ilə bağlamışdır.

Məmmədli 1920-1925-ci illərdə Azərbaycan Xalq səhiyyə komissarlığında əvvəl inzibati şöbənin böyük kargüzarı, sonra isə işlər müdiri vəzifəsində çalışmışdır.

N.Məmmədli 1925-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə qəbul olunmuş və oranı bitirmişdir.

1930-cu ilin may ayında Azərbaycan SSR Xalq Komissarları Soveti Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini Azərbaycan Dövlət Tibb institutuna çevirmək haqqında qərar qəbul edir. Institutun ilk direktoru N.C.Məmmədli təyin olunur. O, institutda işlədiyi vaxtlarda respublikada ixtisaslı tibb kadrları hazırlamaq üçün Tibb institutunun nəzdində yeni fakültələrin açılması, ucqar rayonlar üçün həkimlərin hazırlanması, tədris bazalarının genişləndirilməsi və möhkəmləndirilməsi kimi məsələlərin həllində böyük təşkilatçılıq işi görür.

Tibb institutu təşkil olunduqdan sonra bu yeni elm ocağı Milli tibb kadrlarının yetişdirilməsində böyük rol oynadı və N.Məmmədlinin bu işdə böyük xidməti xüsusi təqdirə layiqdir.

O dövrdə əhali arasında geniş yayılmış malyariya xəstəliyinə qarşı mübarizə işi artıq dövlət əhəmiyyəti kəsb edir. Buna görə də Azərbaycan Xalq Komissarları Soveti yanında malyariya komitəsi təşkil olunur və Xalq Komissarları

Sovetinin sədri Dadaş Bünyadzadə eyni zamanda bu komitənin sədri təyin edilir. N.Məmmədli isə komitəyə üzv seçilir. N.Məmmədli malyariyaya qarşı mübarizəyə öz bilik və bacarığını sərf edir. «Malyariya əleyhinə idarələrin işinə aid təlimat», Azərbaycan Tibb institutu nəzdində tropik fakültə təşkil edilməsi, 1932-ci ildə «Ikinci beşillikdə respublikada malyariya xəstəliyinin ləğv edilməsi və ona qarşı tədbirlərin baş planı»nın hazırlanmasında fəal iştirak edir.

Naxçıvan MSSR-də səhiyyə işlərini qaldırmaq və əhalinin sağlamlığını qorumaq üçün həyata keçirilən tədbirləri gücləndirmək məqsədilə N.Məmmədli Naxçıvana göndərilir və Muxtar Respublikanın Xalq Səhiyyə komissarı təyin olunur. N.Məmmədli Naxçıvanda xalq səhiyyəsinin inkişafı üçün böyük işlər görür. 1934-1937-ci illərdə səhiyyə sahəsində əldə edilən nailiyyətlər – yeni xəstəxanaların açılması, çarpayıların sayının artırılması, respublika sanitar epidemioloji və Naxçıvan şəhər Təcili yardım stansiyasının yaradılması, doğum və körpələr evinin, tibb məntəqələrinin təşkil edilməsi, tibb müəssisələri üçün yeni binaların tikilməsi, epidemik xəstəliklərə qarşı aparılan kompleks tədbirlər və s. N.Məmmədlinin adı ilə bağlıdır.

1931-ci ildə ilk dəfə Naxçıvan şəhərində tibb məktəbi açılmışdır. Bu vacib işin təşəbbüskarı N.Məmmədli olmuşdur. Həmin məktəb yerli əhalidən orta tibb işçisi kadrları hazırlamağa imkan vermişdir.

1934-1936-cı illərdə Naxçıvanda mineral suların tədqiq edilməsi işində N.Məmmədlinin əməyi daha böyükdür. Onun təklifi ilə Bakıdan göndərilən ekspedisiyalar Sirab, Badamlı, Darıdağ və Nəhəcir mineral sularının fiziki-kimyəvi xassəsini və onların müalicə əhəmiyyətini öyrənmişlər.

N.Məmmədli nəinki bacarıqlı təşkilatçı, təşəbbüskar həkim, fəal ictimaiyyətçi olmuşdur, o, həm də layiqli elmi işçi kimi tanınmış, bir çox elmi əsərin müəllifi olmuşdur.

Nadir Cəlil oğlu Məmmədli 1937-ci ildə Gəncə şəhərində vəfat etmişdir.

Aslan Nəzər oğlu Tairov

Aslan Nəzər oğlu Tairov 1898-ci ilin may ayında Salyan rayonunda anadan olub.

4 illik kənd məktəbini bitirdikdən sonra Bakıya gəlir və 1911-ci ildə ikinci kişi gimnaziyasına daxil olur. 1920-ci ilin aprel çevrilişindən sonra Bakı Dövlət Universitetinin tibb fakültəsinə qəbul olur. 1926-cı ilin may ayında tibb fakültəsini müvəffəqiyyətlə bitirən A.Tairov Universitetin Elmi Şurasının qərarı ilə Hospital Cərrahlıq kafedrasında ordinator saxlanılır. Iki illik ordinaturanı bitirdikdən sonra Lənkəran şəhər xəstəxanasının baş həkimi və eyni zamanda cərrahiyyə şöbəsinin müdiri təyin olunur. O, bu vəzifədə 1935-ci ilədək işləyir və 7 minə yaxın müxtəlif cərrahi əməliyyatlar aparır.

Praktik təbabətdə özünü göstərən gənc həkim 1935-ci ildə Azərbaycan Tibb institutunun Hospital Cərrahlıq kafedrasına assistent kimi işləməyə dəvət olunur.

1937-ci ildə Naxçıvan MSSR Xalq Səhiyyə komissarı təyin edilir və həmin il dekabrın 22-də öz razılığı ilə tutduğu vəzifədən azad olunur.

Hospital Cərrahiyyə kafedrasında çalışmaqla bərabər, 1938-ci ildən 1941-ci ilə qədər eyni zamanda sanitar-aviasiyada cərrah kimi respublika əhalisinə təcili cərrahi yardım göstərir.

A.Tairov Rus-Alman müharibəsi dövründə özünü bacarıqlı hərbi-səhra cərrahı kimi göstərmiş, 1944-1945-ci illərdə 45-ci ordunun baş cərrahı işləmiş, hərbi cərrahlıqda çox böyük təşkilatçılıq nümayiş etdirmişdir.

O, 1946-cı ildə Aşqabad zəlzələsində türkmən xalqına yardım göstərən azərbaycanlı həkim tağımına rəhbərlik etmişdir.

Ordudan tərxis olunan dosent A.N.Tairov Azərbaycan SSR Səhiyyə nazirinin elmi katibi təyin edilir və 1952-ci ilədək bu vəzifədə işləyir.

1954-cü ildə A.N.Tairov Bakı şəhər Səhiyyə şöbəsinin baş cərrahı təyin edilir, elə həmin il doktorluq dissertasiyasını müdafiə edir və ona professor elmi adı verilir.

1964-cü ildə Fakültə Cərrahlıq kafedrasının müdiri vəzifəsinə seçilir və 1971-ci ilədək bu vəzifədə çalışır. Onun rəhbərliyi ilə 3 doktorluq, 4 namizədlik dissertasiyası müdafiə edilmişdir.

A.N.Tairovun əməyi yüksək qiymətləndirilərək ona 1960-cı ildə Azərbaycan SSR Ali Sovetinin Fərmanı ilə əməkdar həkim, 1966-cı ildə isə tibb elminin inkişafında xidmətlərini nəzərə alaraq əməkdar elm xadimi kimi yüksək ad verilmişdir.

1971-ci ildə A.N.Tairov vəzifə başında dünyasını dəyişmişdir.

Ələkbər Əhəd oğlu Ismayılov

Ələkbər Əhəd oğlu Ismayılov 1909-cu ildə fevral ayının 25-də Göyçay şəhərində anadan olmuşdur. O, çox gənc yaşlarında əmək fəaliyyətinə başlamışdır.

1923-1931-ci illərdə respublikanın rayonlarında komsomol işində işləmişdir.

1923-1925-ci illərdə Azərbaycan LKGI MK-nin Göyçay qəza komitəsinin pioner bürosunun sədri, 1925-1927-ci illərdə Göyçay qəza komsomol komitəsinin təlimatçısı, 1927-1928-ci illərdə Kürdəmir rayon komsomol komitəsinin məsul katibi, 1928-1931-ci illərdə Zaqatala dairə pioner bürosunun sədri vəzifələrində çalışmışdır.

Ə.Ə.Ismayılov 1931-ci ildə Azərbaycan Tibb institutuna daxil olmuş və 1936-cı ildə institututu bitirərək həkim diplomu almışdır.

1936-1938-ci illərdə o, Ismayıllı rayonunda xəstəxananın baş həkimi, səhiyyə şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Ə.Ə.Ismayılov 1938-ci ilin oktyabr ayında Göyçay şəhərinə dəyişilmiş və burada əvvəlcə poliklinikada terapevt, sonra isə poliklinikanın şöbə müdiri, daha sonra isə 1939-cu ilin noyabr ayından 1942-ci ilin yanvar ayına qədər Göyçay rayon səhiyyə şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Ə.Ə.Ismayılov 1942-ci ilin yanvarında Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığına işə dəvət olunur və Komissarlıqda tibbi kadrlar idarəsinin rəisi vəzifəsinə təyin edilir. Bu vəzifədə iki il işlədikdən sonra o, 1944-cü ilin yanvar ayında Naxçıvan MSSR-i Xalq Səhiyyə komissarı vəzifəsinə təyin edilir və burada təqribən 10 il, 1953-cü ilin iyun ayının 30-na kimi nazir vəzifəsində işləyir.

Ə.Ə.Ismayılov 1953-cü ilin iyul ayında Bakı şəhərinə dəyişilir və Semaşko adına xəstəxananın baş həkimi vəzifəsinə təyin edilir. O, bu vəzifədə 13 il işlədikdən sonra 1966-cı ilin oktyabr ayında Azərbaycan Səhiyyə nazirliyinin əmri ilə nazirliyin 4-cü idarəsinin Zaqulbada yerləşən istirahət evinə müdir təyin edilir. 1967-ci ildə bu istirahət evi Pansionat adlandırılır. O, bu vəzifədə 1970-ci ilin fevral ayının 4-nə kimi işləyir, sonra 1970-ci ilin fevralında 5№-li sanatoriyaya dəyişilir və baş həkim vəzifəsində işləyir.

Ə.Ə.Ismayılov 1971-ci ilin oktyabr ayında 4-cü idarənin Mərdəkandakı 3№-li xəstəxanasının baş həkiminin müavini vəzifəsinə dəyişilir və bu vəzifədə ömrünün axırına kimi işləyir.

Ə.Ə.Ismayılov həkimlik fəaliyyəti illərində səhiyyə sahəsində çox səmərəli işlər görmüşdür. O, Göyçayda səhiyyə şöbəsinin müdiri işlədiyi illərdə onun təşəbbüsü və səyi nəticəsində Göyçayda çox nəcib və diqqətə layiq bir iş başlandı: - yaşayış yerlərinin qaydaya salınması və təmizlik uğrunda kütləvi hərəkat, əhalinin özfəaliyyəti sağlamlığın qorunması uğrunda yeni mərhələ oldu. Göyçay tibb işçilərinin bu təşəbbüsü ilə partiya və Sovet orqanlarının rəhbərliyi altında 1940-41-ci illərdə yaşayış yerlərinin sanitar abadlaşdırılmasında kütləvi iş genişləndi. Azərbaycan Xalq Səhiyyə Komissarlığı təşəbbüsü bəyənərək bu təcrübənin Azəröaycanın bütün rayonlarına yayılması haqqında 1940-ci ilin iyul ayının 27-də 1022 №-li əmr imzaladı. Əmrdə yuxarıda göstərilən tədbirlərlə yanaşı yoluxucu xəstəlikləri aşkar etmək, tapılan xəstəlikləri aradan qaldırmaq və qoruyucu peyvəndlər aparmaq məqsədilə bütün əhalinin başdan-başa kütləvi müayinəsini təşkil etmək tövsiyə olunurdu. Qeyd etmək lazımdır ki, bir il ərzində respublmkada Göyçay hərəkatını həyata keçirmək nəticəsində çox böyük iş görüldü. Amma təəssüflər olsun ki, faşist Almaniyası bu işi yarımçıq qoydu.

Ə.Ə.Ismayılov Naxçıvanda işlədiyi 10 il ərzində də az iş görməmişdir. Xüsusən müharibənin ağır illərində ondan daha çevik işləmək tələb olunurdu. Müharibənin o ağır günlərində Xalq Səhiyyə komissarı kimi respublikada sanitariya işlərini tələb olunan səviyyədə saxlamaq və yoluxucu xəstəliklərin

yayılmaması üçün təsirli tədbirlər gördü. Səhiyyə Komissarlığında və onun yerli orqanlarında epidemiyaya qarşı yaradılan fövqəladə komissiyaların işini canlandırdı.

Ə.Ə.Ismayılov 1944-cü ildə derektiv sənədlərə əsasən tədbirlər hazırlayıb həyata keçirmişdi. Bunun nəticəsində uşaq tərbiyə ocaqları genişləndirilmiş, qadınlara və uşaqlara tibbi xidmət yaxşılaşdırılmışdır. Uşaq xəstəxanalarında çarpayıların sayı artırılmış, körpə evlərinin, yay sağlamlıq meydançalarının şəbəkəsi genişləndirilmiş, daimi yaslilərin sayı 9-dan 14-ə çatdırılmışdır. Diaqnostik laboratoriyalar, fizioterapevtik və rentgen kabinələri açılır, onkoloji dispanser təşkil edilir. 1945-1953-cü illərdə xəstəxana müəssisələrinin sayı 2 dəfə, onlarda çarpayıların sayı 1,5 dəfə artır. Xüsusən müxtəlif ixtisaslaşdırılmış şöbələr yaradılır. Tibbi kadrların da sayı çoxalır: - həkimlərin sayı 2,4 dəfə, orta tibb işçilərinin sayı 2,5 dəfə artır.

Ə.Ə.Ismayılovun təşəbbüsü ilə daha bir neçə obyekt təşkil edilmişdir. Məsələn, 1947-1953-cü illərdə Naxçıvan şəhərində qadın məsləhətxanası, rayonların hamısında uşaq və qadın məsləhətxanaları, 13 kənddə xəstəxana, rayonların hamısında sanepidstansiyalar təşkil edilmişdir. Respublikada vərəmə, traxomaya, malyariyaya, dəri-zöhrəvi xəstəliklərinə qarşı mübarizəni gücləndirmək məqsədilə nazirliyin kollegiya iclaslarında bu haqda dəfələrlə məsələ müzakirə edilmiş və müsbət nəticə alınmışdır.

Ə.Ə.Ismayılovun səmərəli fəaliyyəti dövlət tərəfindən dəfələrlə qiymətləndirilmişdir. O, «Şərəf nişanı» ordeni (1945, 1960), «Qırmızı Əmək Bayrağı» ordeni (1949), «Qafqazın müdafiəsi» (1945), 2 dəfə «Almaniya üzərində qələbə» (1946, 1949) medalları ilə, «Səhiyyə əlaçısına» nişanı ilə təltif edilmişdir. Ona Azərbaycan SSR-in əməkdar həkimi adı verilmişdir.

Ə.Ə.Ismayılov habelə ictimai işlərdə fəal iştirak etmişdir. O, Göyçay rayon sovetinin deputatı (1939-1941), Naxçıvan Ali Sovetinin deputatı (1947-1951), Bakı Sovetinin deputatı (1957-1967) seçilmişdir. Bundan başqa Naxçıvan Vilayət partiya komitəsinin üzvü (1947-1952) və büro üzvü

(1948-1949), Bakı şəhəri Oktyabr rayomunun plenum üzvü (1958-1961) olmuşdur.

Ə.Ə.Ismayılov 1983-cü ilin iyun ayının 5-də vəfat etmişdir.

Hüseyn Cabbar oğlu Abbasov

Hüseyn Cabbar oğlu Abbasov 1910-cu ildə Yelizavetpol quberniyasının Gəncə şəhərində anadan olmuşdur.

1925-ci ildə Gəncə şəhər gecə məktəbinə qəbul olunmuş, gündüzlər isə K.Marks adına toxuculuq fabrikində fəhlə işləmişdir. 1929-cu ildə ibtidai sinifi bitirib Bakıyagetmişdir, gündüzlər burada Lenin adına toxuculuq fabrikində fəhlə işləmiş, gecələr fəhlə fakültəsində oxumuşdur. H.C.Abbasov 1933-cü ildə oranı bitirmiş və həmin il Azərbaycan Tibb institutuna qəbul olaraq, 1939-cu ildə ali təhsilini başa vurmuşdur. 1939-cu ildə Naxçıvana təyinat alır və 1939-cu ildən 1944-cü ilin oktyabr ayınadək Şahbuz rayon Səhiyyə şöbəsinin müdiri vəzifəsində işləyir. 1944-cü ilin oktyabr ayında Naxçıvan şəhərinə dəyişilir və Naxçıvan şəhər və rayon Səhiyyə şöbəsinin müdiri təyin edilir. O, bu vəzifədə 9 il işləyib.

H.C.Abbasov 1953-cü ilin iyun ayının 1-də Naxçıvan MSSR Səhiyyə naziri vəzifəsinə təyin edilir və bu vəzifədə 1955-ci il may ayının 1-nə kimi işləyir. 2 ildən sonra o, nazir vəzifəsindən azad olunaraq Naxçıvan respublika sanitar epidemioloji stansiyada epidemioloji şöbənin müdiri vəzifəsinə təyin edilir. Bu vəzifədə o, 17 il işləmişdir. 1972-ci ildə Gəncə şəhərinə köçmüşdür.

H.C.Abbasov Şahbuz rayonunda işlədiyi müharibənin ağır illərində səhiyyə şöbəsində epidemiyaya qarşı fövqəladə komissiya yaradır. Komissiya sanitariya qaydalarına nəzarət etmək, yoluxucu xəstəliklərin, ilk növbədə səpgili yatalağın qarşısını almaq tədbirlərini həyata keçirir. Məhz bunun

nəticəsində o illərdə rayonda yoluxucu xəstəliklərin yayılmasına yol verilmir.

H.C.Abbasov səhiyyə naziri işlədiyi illərdə respublikada səhiyyənin daha da inkişaf etdirilməsinə, onun bazasının möhkəmlənməsinə, xəstələrə göstərilən tibbi xidmətin yaxşılaşmasına cəhd etmişdir. Yoluxucu xəstəliklərə qarşı tədbirlərin vaxtında həyata keçirilməsinə nail olmuşdur.

H.C.Abbasovun 1954-cü il noyabr ayının 29-da «Naxçıvan MSSR-də kənd əhalisinin dispanserizasiyasının tədbirləri haqqında» verdiyi 202№-li əmr kənd əhalisinin dispanserizasiyasının daha da geniş miqyasda aparılmasına və onun keyfiyyətinin yaxşılaşmasına səbəb olmuşdur. Birinci növbədə kəndlərdə mexanizatorları, qabaqcıl kolxozçuları dispanser nəzarətinə götürdülər.

H.C.Abbasovun səmərəli əməyi Dövlət tərəfindən qiymətləndirilmişdir.

H.Abbasov «Qafqazın müdafiəsinə görə», «1941-1945-ci illərdə Böyük Vətən müharibəsi dövründə əməkdə fərqləndiyinə görə» medalları, «Səhiyyə əlaçısına» və «Sanitariya əlaçısı» döş nişanları ilə təltif olunmuş, Naxçıvanın əməkdar həkimi fəxri adına layiq görülmüşdür.

O, ictimai işlərdə fəallıq göstərmişdir. 1948-ci ildə Naxçıvan şəhər sovetinin, 1950-ci ildə Naxçıvan rayon sovetinin deputatı olmuşdur.

H.C.Abbasov Gəncə şəhərində vəfat etmişdir.

Süleyman Əsəd oğlu Süleyman-zadə

Süleyman Əsəd oğlu Süleyman-zadə 1905-ci ildə Ismayıllı rayonunun Lahıc kəndində anadan olmuşdur. Uşaq yaşlarında valideynlərini itirdiyinə görə Bakı şəhərinə gəlir. Burada orta məktəbi bitirdikdən sonra o, universitetin biologiya fakültəsinə daxil olur və oranı 1925-ci ildə bitirir. Sonra Bakı şəhər 19№-li orta məktəbdə 10 il müəllim işləmişdir.

S.Ə.Süleyman-zadə 1936-cı ildə Azərbaycan Dövlət Tibb institutuna daxil olmuş və oranı 1941-ci ildə bitirdikdən sonra iyul ayının 27-də 1557 №-li evakohospitalda baş ordinator işləmiş, bir aydan sonra tutduğu vəzifədən azad edilib, Azərbaycan Xalq Səhiyyə Komissarlığının sərəncamına göndərilmişdir. O, Səhiyyə Komissarlığının 26/VIII-1941-ci il 97№-li əmrinə əsasən Naxçıvan şəhər poliklinikasında nevropotoloq vəzifəsinə təyin edilir.

S.Ə.Süleyman-zadə 1942-ci ilin oktyabr ayının 29-dan 1943-cü ilin iyun ayının 10-a kimi poliklinikanın baş həkimi işləmiş və o vaxt yenidən burada nevropotoloq işləməyi davam etdirmişdir. 1944-cü ilin dekabr ayının 15-də yeni vəzifəyə – Naxçıvan tibb məktəbinin direktoru vəzifəsinə təyin edilmiş və bu vəzifədə 10 ildən artıq işləmişdir.

S.Ə.Süleyman-zadə 1955-ci il may ayının 10-dan 1959-cu il aprel ayının 9-dək Naxçıvan MSSR-in Səhiyyə naziri vəzifəsində işləmişdir. Daha sonra Naxçıvan şəhər birləşmiş xəstəxanasında 2 ay nevropotoloq işləyəndən sonra Azərbaycan SSR Səhiyyə nazirinin əmrilə Bakı şəhərinə köçmüşdür. O, 1959-cu ilin iyun ayının 1-dən 27 ildən çox Respublika Elmi-tədqiqat mikrobiologiya, gigiyeva və virusologiya institutunda müxtəlif vəzifələrdə həkim-bioloq kimi işləmişdir.

S.Ə.Süleymanzadə nazir işlədiyi müddətdə respublikada tibbi kadrların artırılmasına, yeni xəstəxanaların açılmasına,

çarpayıların çoxalmasına, müalicə-sanitar müəssisələrinin avadanlıqla və tibbi ləvazimatla təchiz edilməsinə daim diqqət yetirmişdir. Məsələn, 1955-1959-cu illərdə 2 kənddə xəstəxana, 5 kənddə feldşer-mama məntəqəsi açılmış, həkimlərin sayı 38 nəfər, orta tibb işçilərinin sayı 265 nəfər artmışdır.

Səhiyyə nazirliyinin 1958-1959-cu illərdə respublikada kənd tibb müəssisələrinin yenidən qurulması haqqında əmri oldu. Bu əmrə əsasən 1959-cu ildə rayon səhiyyə şöbələri ləğv olundu, rayon xəstəxanaları rayon sanepidstansiyalarla birləşdirildi və yeni kompleks-sanitar xəstəxana birləşməsi – SXB adlandırıldı. SXB-yə rayonun baş həkimi rəhbərlik edir, o, həm də böyük sanitariya inspektoru sayılır.

Belə quruluş kənd tibb müəssisələrinin işində profilaktik istiqaməti təmin edir. Rayonda mövcud kadrlardan və maddi vəsaitdən daha səmərəli istifadə etmək üçün şərait yaranır.

S.Ə.Süleyman-zadə göstərdiyi xidmətə görə Dövlət tərəfindən medallarla təltif olunmuşdur. Ona Azərbaycan SSR-i Səhiyyə nazirliyi tərəfindən fəxri fərmanlar verilmişdir.

S.Ə.Süleyman-zadə 1986-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Tofiq Abdulla oğlu Sultanov

Tofiq Abdulla oğlu Sultanov 1920-ci ildə fevral ayının 22-də Naxçıvan şəhərində anadan olmuşdur.

Orta məktəbi və Naxçıvan Pedaqoji məktəbini bitirdikdən sonra o, 1936-1938-ci illərdə Naxçıvan şəhərinin 1№-li orta məktəbində coğrafiya müəllimi işləmişdir.

1938-1942-ci illərdə o, Azərbaycan Dövlət Tibb institutunda oxumuşdur. Tələbə olduğu müddətdə T.A.Sultanov 1940-1942-ci illərdə institutun normal anatomiya kafedrasında preparator və laborant vəzifələrində çalışmışdır.

1942-ci ilin sentyabr ayında T.A.Sultanov ordu sıralarına çağırılmışdır və Böyük Vətən müharibəsi illərində döyüşən orduda zabit kimi həkim işləmişdir. T.A.Sultanov 1942-1943-cü illərdə şimal-qərb və mərkəz cəbhələrində sanitar rotasının qəbul məntəqəsinin və sanitar rotasının komandiri, 1943-1945-ci illərdə – I Ukrayna, I Belorus və IV Ukrayna cəbhələrində sanitar rotasının komandiri, alayın baş həkimi olmuşdur.

T.A.Sultanov müharibə vaxtı ən gərgin döyüşlərin və döyüş əməliyyatların iştirakçısı olub – Kursk Qövsündə, Sandomir əməliyyatında, balaton gölü (Macarıstan) ətrafındakı döyüşlərdə və s. O, Rusiyanın, Belorusiyanın, Ukraynanın, Moldovanın, Polşanın, Macarıstanın, Almaniyanın, Çexoslovakiyanın alman faşistlərindən azad olunmasında iştirak etmişdir.

T.A.Sultanov müharibəni 1945-ci ilin may ayında Çexoslovakiyada qvardiyaçı kapitan hərbi rütbəsində başa çatdırmışdır.

Müharibədən sonra, 1945-1946-cı illərdə T.A.Sultanov Sovet qoşunlarının şimal qrupunda, Almaniyada, alayın baş həkimi işləmişdir.

1946-1953-cü illərdə o, Rusiyanın Uzaq Şərqində, primorsk hərbi dairəsində qvardiyaçı hava-desant diviziyasında

tibbi-sanitar rotasının komandiri, alayın tibb məntəqəsinin rəisi vəzifəsində işləmişdir.

1948-ci ildə ona Hava-Desant Qoşunlarının əmri ilə qvardiyaçı mayor hərbi rütbəsi verilmişdir.

1953-cü ilin noyabr ayında T.A.Sultanov hərbi xidməti başa vurandan sonra vətənə – Naxçıvan şəhərinə qayıdır və həmin aydan o, bir müddət Naxçıvan şəhər Tibb-bədən tərbiyəsi dispanserində həkim vəzifəsində işləyir.

T.A.Sultanov 1954 (mart) – 1959 (aprel) – illərdə Naxçıvan MSSR-i Səhiyyə nazirinin müavini, 1959-cu ilin aprel ayından 1965-ci ilin iyul ayına kimi səhiyyə naziri vəzifəsində işləmişdir. 1965-ci ildə tutduğu vəzifədən azad edildikdən sonra ona 2 aylıq əmək məzuniyyəti verilmişdir. Məzuniyyəti bitdikdən sonra T.A.Sultanov Bakı şəhərinə Azərbaycan respublika səhiyyə nazirliyinin sərəncamına köçürülmüşdür. O, 1965 (sentyabr) – 1968 (sentyabr) illərdə Azərbaycan respublikasının səhiyyə nazirliyinin 4-cü Baş idarəsində rəis müavini, 1968 (sentyabr) – 1975 (noyabr) – illərdə isə ömrünün axırına kimi səhiyyə nazirliyinin 4-cü Baş Idarəsinin Mərdəkan qəsəbəsində yerləşən 1№-li sanatoriyasında baş həkim vəzifəsində işləmişdir.

T.A.Sultanov nazir vəzifəsində işlədiyi müddətdə respublikada səhiyyənin inkişafına, onun texniki bazasının möhkəmlənməsinə, tibbi kadrların və xəstəxanaların, onlarda çarpayıların artırılmasına daima diqqət yetirmişdir. O illərdə Naxçıvan şəhərində 30 çarpayılıq respublika Psixonevroloji dispanseri, 35 çarpayılıq Naxçıvan mərkəzi rayon xəstəxanası, 2 kənddə kənd sahə xəstəxanası, Noraşen (Şərur) qəsəbəsində 25 çarpayılıq uşaq xəstəxanası açılmışdır. 8 kənddə xəstəxanalar genişləndirilərək 10 çarpayıdan 25 çarpayıya çatdırılmışdır. Naxçıvan şəhərində 100 çarpayılıq vərəm əleyhinə dispanser binası tikilərək istifadəyə verilmişdir.

T.A.Sultanov 1956-cı ildə Moskva şəhərində səhiyyə təşkilatı üzrə rəhbər səhiyyə işçilərinin bir illik təkmilləşdirmə kurslarında öz ixtisasını artırmışdır.

Müharibədə göstərdiyi xidmətlərinə görə T.A.Sultanov «Qırmızı Ulduz», «II dərəcəli Vətən müharibəsi» (2 dəfə) ordenləri ilə, «Döyüş Xidmətlərinə görə» və başqa medallarla,

o cümlədən «Almaniya üzərində qələbəyə görə» medalı ilə təltif edilmişdir. 1961-ci ildə göstərdiyi nümunəvi xidmətlərinə görə ona «Şərəf Nişanı» ordeni verilmişdir.

Tofiq Sultanov 1975-ci ilin noyabr ayının 29-da iş yerində vəfat etmişdir.

Adil Nifti oğlu Məmmədov

Adil Nifti oğlu Məmmədov 10 may 1931-ci ildə Naxçıvan şəhərində anadan olub.

Orta məktəbi bitirdikdən sonra 1949-cu ildə Azərbaycan Dövlət Tibb institutunun sanitariya-gigiyena fakültəsinə qəbul olub, 1955-ci ildə institutu bitirmişdir.

1955-ci ilin iyun ayından 1956-cı ilin mart ayınadək Naxçı-van Respublika Sanitar epidemioloji stansiyasında epi-demioloq vəzifəsində işləmişdir.

1956-cı ilin mart ayından 1956-cı ilin oktyabr ayınadək Culfa rayon SES-nin baş həkimi, 1956-cı ilin oktyabr ayından 1959-cu ilin may ayınadək Culfa rayon Səhiyyə şöbəsinin müdiri işləmişdir.

A.N.Məmmədov 1959-cu ilin may ayında Naxçıvan MSSR Səhiyyə nazirinin müavini təyin edilir və 1961-ci ilin oktyabr ayınadək bu vəzifədə işləyir.

O, 1961-ci ilin oktyabrından 1964-cü ilin oktyabr ayınadək Moskva şəhərində SSRI Səhiyyə Nazirliyinin N.A.Semaşko adına Səhiyyə təşkili və təbabət tarixi institutunda aspiranturada oxumuşdur. Aspiranturanı bitirdikdən sonra 1965-ci ilin iyul ayınadək Bakı şəhərində Elmi-tədqiqat Əmək gigiyenası və peşə xəstəlikləri institutunda metodiki-təşkilat şöbəsinin müdiri vəzifəsində işləmişdir.

A.Məmmədov 1965-ci ilin iyul ayından 1971-ci ilin iyul ayınadək Naxçıvan MSSR Səhiyyə naziri vəzifəsində işləmişdir.

1971-ci ilin iyul ayından 1974-cü ilin aprel ayınadək Respublika Elmi-tədqiqat Parazitologiya institutunda metodiki-təşkilat şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1974-cü ilin aprel ayından 1992-ci ilin fevralınadək Bakı şəhər N.Nərimanov rayon Səhiyyə şöbəsinin müdiri işləmişdir və həmin müddətdən səhhəti ilə əlaqədar fərdi təqaüdə çıxır.

A.N.Məmmədovun səhhəti bir qədər yaxşılaşdıqdan sonra o, 1992-ci ilin oktyabr ayından 1994-cü ilin iyul ayına kimi həmin səhiyyə şöbəsində məsləhətçi müfəttiş, 1994-1997-ci ilin sentyabr ayınadək Nərimanov rayonunun 18№-li şəhər poliklinikasında şöbə müdiri vəzifəsində işləmişdir. O, 1997-ci ildən yenidən təqaüddədir.

A.Məmmədov Naxçıvanda işləyərkən səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirmişdir. 1965-1971-ci illərdə Iliç, Culfa rayon mərkəzi xəstəxanaları, Naxçıvan şəhər doğum evi, respublika xəstəxanasının yanında yeni bina tikilərək istifadəyə verilmiş, Naxçıvan şəhərində 50 çarpayılıq uşaq xəstəxanasının, Badamlı mineral sular bazasında balneoloji müalicəxananın inşasına başlanmış, Ordubad mərkəzi rayon xəstəxanası üçün yeni bina tikilməsindən ötrü layihə-smeta sənədləri hazırlanmışdır. Nehrəm kəndində xəstəxana tikilmiş, Iliç rayonunun Mahmudkənd kənd sahə xəstəxanasının inşasına başlanmışdır. Rusiyadan sifarişlə alınmış 80-dən çox taxta evlər respublikanın kəndlərində yerləşdirilərək feldşer-mama məntəqələri üçün istifadəyə verilmişdir.

Orta tibb işçilərinin təkmilləşməsi üçün Naxçıvan Tibb məktəbi nəzdində kurs təşkil olunmuşdur. O illərdə traxoma, malyariya, poliomielit, difteriya xəstəlikləri ləğv edilmişdir.

A.N.Məmmədov 1967-ci ildə «Naxçıvan MSSR-də səhiyyənin inkişafı (1828-1966)» adlı namizədlik dissertasiyasını müdafiə edərək tibb elmlər namizədi adını almışdır. Onun 25-dən artıq elmi məqaləsi və bir monoqrafiyası dərc edilmişdir.

A.N.Məmmədovun səmərəli əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1971-ci ilin iyul ayında «Şərəf nişanı» ordeni, 1970-ci ildə «V.I.Leninin 100 illiyi», 1986-cı ildə «Əmək veteranı» medalları və «Səhiyyə əlaçısına» nişanı ilə təltif olunmuşdur.

A.N.Məmmədov ictimai işlərdə də fəal iştirak etmişdir. O, 25 ilə yaxın rayon, şəhər sovetinin, 1967-1971-ci illərdə isə

7-ci çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı seçilmişdir. Habelə, bir çox illər rayon, vilayət partiya komitələrinin plenum üzvü olmuşdur.

Anna Ivanovna Suslova

Anna Ivanovna Suslova 1889-cu ildə Vyatski quberniyasının (indiki Kirov vilayətinin) Yaranski qəzasının Suslova kəndində anadan olmuşdur. Ilk təhsilini xalq məktəbində almışdır.

1907-ci ildə Bakı şəhərinə gələrək Mixaylov xəstəxanasında (indiki Əzizbəyov adına doğum evi) sanitarka işləyir, eyni zamanda, Mixaylov məktəbində bazar günləri keçirilən kurslarda iştirak edir. O, 1912-ci ildə 4 sinif imtahanını verir. 1913-cü ildə doğuşa yardım kurslarına daxil olur və oranı 1915-ci ildə bitirərək birinci dərəcəli mamaça ixtisasını alır.

A.I.Suslova 1916-cı ildə 19 №-li kəskin yoluxucu xəstəliklər Lazaretinə (indiki A.Semaşko adına xəstəxanaya) işə düzəlir və 1922-ci ilə qədər burada işləyir. O, gecə kurslarına gedərək, 6 sinifi bitirməsi haqqında şəhadətnamə alır. 1922-ci ildə 2-ci Moskva Dövlət universitetinin tibb fakültəsinə daxil olur və 1924-cü ildə Azərbaycan universitetinin tibb fakültəsinə keçirilir və oranı 1928-ci ildə bitirərək həkim diplomunu alır.

A.I.Suslovanın Azərbaycan respublikasının rayonlarında işləmək xahişini nəzərə alaraq Azərbaycan SSR-i Xalq Səhiyyə Komissarlığı onu Naxçıvan MSSR-nə göndərir ki, o, burada 40 ildən çox həkim işləmişdir.

Naxçıvan respublikasında o, böyük şərəfli yol keçərək həkim-ginekoloq və pediatr vəzifələrində işləmişdir. O, özünün fədakar, inadlı əməyi nəticəsində kollektivdə və xalq arasında hörmət və məhəbbət qazanmışdır.

A.I.Suslova demək olar ki, ömrünün yarısını respublikada ana və uşaqların sağlamlığının mühafizəsinə sərf etmişdir. O, ağır xəstə uşaqlara kömək göstərmək üçün vaxtaşırı rayonlara gedirdi, lazım gələndə aylarla kəndlərdə qalırdı.

A.I.Suslova həm də yaxşı təşkilatçı idi. 1930-cu ildən 1952-ci ilə qədər uşaq məsləhətxanasının müdiri, uşaq xəstəxanasının baş həkimi, Naxçıvan səhiyyə nazirliyində ana və uşaqların müdafiəsi müfəttişi və səhiyyə nazirinin müavini vəzifələrində işləmişdir. O, dəfələrlə akuşer-ginekoloqların və pediatrların ümumittifaq qurultaylarında iştirak etmişdir. Mütəmadi olaraq öz biliyini Sovet Ittifaqının müxtəlif şəhərlərində artırmışdır.

A.I.Suslova ictimai işlərdə də fəal iştirak etmişdir. 12 il (1947-1958-ci illər) Naxçıvan MSSR-i Ali Sovetinin deputatı seçilmiş, respublika Ali Sovetinin üzvü olmuşdur. Onun səmərəli əməyi, hərtərəfli həkimlik və ictimai fəaliyyəti Sovet Dövləti tərəfindən yüksək qiymətləndirilmişdir.

A.I.Suslova «Lenin ordeni», «Şərəf nişanı» ordeni ilə, medallarla, «Səhiyyə əlaçısına» nişanı ilə və Fəxri fərmanlarla təltif edilmişdir. Ona Azərbaycan SSR-in «Əməkdar həkimi» adı verilmişdir.

A.I.Suslova 1969-cu ildə Naxçıvan şəhərində vəfat etmişdir.

Hacı Tahir oğlu Tahirov

Hacı Tahir oğlu Tahirov 1923-cü ildə Naxçıvan şəhərində anadan olub. Ibtidai məktəbin 6-cı sinfini bitirdikdən sonra 1935-ci ildə Naxçıvan tibb məktəbinə daxil olub və 1938-ci ildə oranı bitirib. O, 1938-1946-cı illər ərzində Naxçıvan şəhərində müalicə-profilaktika müəssisələrində feldşer kimi işləyib. 1946-cı ildə Azərbaycan Dövlət Tibb institutunun sanitar-gigiyena fakültəsinədaxil olmuş və 1952-ci ildə institutu bitirmişdir.

H.T.Tahirov 1952-1958-ci illərdə Naxçıvan Səhiyyə nazirliyində Baş Dövlət Sanitar müfəttişi işləmişdir. O, 1958-1962-ci illərdə respublika sanitar epidemioloji stansiyanın baş həkimi vəzifəsində çalışmışdır. H.T.Tahirov 1962-ci ildən 1973-cü ilə qədər Naxçıvan MSSR Səhiyyə nazirliyində əvvəlcə baş epidemioloq, sonra baş sanitar müfəttişi – nazir müavini, axırıncı iki ildə isə səhiyyə nazirini əvəz etmişdir. O, 1973-1987-ci illərdə respublika sanitar epidemioloji stansiyada xüsusi təhlükəli infeksiyalar şöbəsinin müdiri vəzifəsində işləmişdir.

H.T.tahirov 1987-ci ildə Bakı şəhərinə köçmüş və o ildən 2004-cü ilə qədər Azərbaycan Respublika sanitar karantin müfəttişliyinin Xəzər dəniz sanitar karantin şöbəsində epidemioloq vəzifəsini tutmuşdur. H.T.Tahirov Moskva və mərkəzi həkimləri təkmilləşdirmə və ixtisaslaşdırma kurslarında, Leninqrad hərbi tibb akademiyasında kursda ixtisasını təkmilləşdirmişdir.

H.T.Tahirov Naxçıvanda işlədiyi müddətdə sanitar gigiyena və epidemiya əleyhinə tədbirlərin həyata keçirilməsində bilavasitə iştirak etmiş, baş vermiş yoluxucu xəstəliklərin tezliklə aradan qaldırılmasına, onların təkrar baş verməməsi üçün öz bilik və bacarığını sərf etmişdir.

1958-ci ilin birinci rübündə Noraşen (Şərur) rayonunun Dəmirçi kəndində təbii çiçək hadisəsi baş verdi. Onun qarşısını

almaq və yayılmasına imkan verməmək üçün təcili epidemiya əleyhinə tədbirlər hazırlanıb həyata keçirilir. Birinci növbədə kənddə qərargah təşkil edilir. H.T.Tahirov epidemioloji ocağın rəisi təyin edilir. Hər gün profilaktik və epidemiya əleyhinə tədbirlər aparılır. Kənddə xəstəxana və izolyator təşkil edilir. Gündə 2 dəfə (səhər və axşam) əhali termometraj edilir. Hərarəti olan, şübhəli xəstələr izolyatora qoyulur.

Tədbirdə Azərbaycan Səhiyyə nazirinin birinci müavini Rizvan Şıxbünyat oğlu Cavadovun rəhbərliyi ilə Azərbaycan Respublika taun əleyhinə stansiyanın, Azərbaycan Respublika Elmi-tədqiqat mikrobiologiya, virusologiya və gigiyena institutunun mütəxəssisləri qərargahda fəaliyyət göstərirlər. Beləliklə görülən məqsədyönlü tədbirlər nəticəsində təbii çiçək, xəstəliyi az vaxtda ləğv edilir. Məhz buna görə H.T.Tahirov SSRI Səhiyyə nazirliyi və Azərbaycan SSR-i Səhiyyə nazirliyi tərəfindən təşəkkür almışdır.

H.T.Tahirov səmərəli əməyinə görə Dövlət tərəfindən 8 dəfə medallarla, «Səhiyyə əlaçısına» döş nişanı ilə təltif olunmuşdur. O, həm də fəal ictimaiyyətçi olmuşdur. Naxçıvanda işlədiyi illərdə Naxçıvan şəhər sovetinə deputat seçilmişdir.

H.T.Tahirov haliyədə təqaüdçüdür.

Valentina Filippovna Qnedkova

Valentina Filippovna Qnedkova 1915-ci ildə Mancuriyada (uzaq şərqdə) anadan olmuşdur. Uşaq yaşlarında ailəsi ilə birlikdə Bakı şəhərinə gələn V.F.Qnedkova burada 15 №-li məktəbin 7-ci sinfini bitirərək 1931-ci ildə tibbi fəhlə fakültəsinə daxil daxil olur və oranı 1933-cü ildə qurtarıb Azərbaycan tibb institutuna daxil olur. 1938-ci ildə institutu bitirəndən sonra öz xahişi ilə onu Naxçıvan respub-likasının Culfa rayonuna, doğum evinin şöbə müdiri vəzifəsində işləmək üçün göndərirlər. O, burada çox az vaxtda əhali arasında böyük hörmət qazanır.

V.F.Qnedkova 1941-ci ildə Naxçıvan şəhərinə dəyişilir. Əvvəlcə Naxçıvan respublika birləşmiş xəstəxanasının doğum-ginekoloji şöbəsinin müdiri, sonra isə Naxçıvan şəhər doğum evinin şöbə müdiri vəzifəsində işləmişdir. O, eyni zamanda Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin doğuşa yardım müfəttişi işləmişdir. Bu illərdə V.F.Qnedkova özünü bacarıqlı, enerjili mütəxəssis kimi göstərir. 1951-ci ildə onu Naxçıvan MSSR-i Səhiyyə nazirliyinin baş mama-ginekoloqu vəzifəsinə irəli çəkirlər və bu vəzifədə ömrünün axırına kimi işləyir.

V.F.Qnedkova 25 ilə yaxın respublikada işləyərək özünün fədakar əməyilə, naxçıvanlıların dərin hörmətini qazanmışdır. O, cavan həkimlərə və orta tibb işçilərinə, onların ixtisasının artırılmasına böyük kömək göstərmişdir.

Respublikanın zəhmətkeşləri onun işini yüksək qiymətləndirmişlər. V.F.Qnedkova dəfələrlə Naxçıvan şəhər ZDS-in deputatı seçilmişdir. O, 17 mart 1963-cü ildə (ölümündən bir gün qabaq) Naxçıvan MSSR-i Ali Sovetinin deputatı seçilmişdir.

Onun əməyi dövlət tərəfindən dəfələrlə qiymətləndirilmişdir. O, «Əməkdə fərqlənməyə görə», «Böyük Vətən müharibəsi 1941-1945-ci illərdə fədakar əməyinə görə» medalları ilə, Azərbaycan SSR-i Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Ona Naxçıvan MSSR-in «Əməkdar həkimi» adı verilmişdir.

V.F.Qnedkova 1963-cü il mart ayının 18-də öz xidməti vəzifəsini yerinə yetirərkən vaxtsız vəfat etmişdir.

«Naxçıvan MSSR-də səhiyyənin inkişafı» adlı dissertasiyanın (1828-1966-cı illər) mövzusuna aid dərc olunan elmi məqalələrin

S I Y A H I S I

1. Inqilabdan əvvəl Naxçıvandə səhiyyə xidmətinin inkişaf tarixinə dair. «Azərbaycan tibb jurnalı», Bakı, 1962-ci il, №12, səh.87-92.
2. Sovet hakimiyyəti illərində Naxçıvan MSSR-də səhiyyə işlərinin inkişafı. «Azərbaycan tibb jurnalı», Bakı, 1963-cü il, №4, səh.100-105.
3. Naxçıvan MSSR-də Sovet səhiyyəsinin nailiyyətləri. Gənc elmi işçilərin beşinci elmi konfransının materialları (N.A.Semaşko adına səhiyyə təşkili və təbabət tarixi institutu), Moskva, 1963-cü il, səh.5-8.
4. 40 il ərzində Naxçıvan MSSR-də səhiyyə işləri. «Azərbaycan tibb jurnalı», Bakı, 1964, №2, səh. 78-84.
5. Anna Ivanovna Suslova (anadan olmasının 75 illiyinə). «Azərbaycan tibb jurnalı», Bakı,1964, №6, səh. 81-82.
6. Naxçıvan MSSR-in tibb işçisi – ilk qadın (E.F.Uspenskayanın əmək fəaliyyətinin 50 illiyinə). «Feldşer-akuşerka» jurnalı, Moskva, 1964-cü il, №11, səh.51-52.
7. Inqilabdan əvvəl Naxçıvanda səhiyyə işləri (ayrıca nəşrlə), Bakı, 1964, 1,23 çap vərəqi – 1-24 səh.
8. Naxçıvan MSSR-də kənd əhalisinin kənd məntəqələri üzrə ümumi xəstəlikləri. Gənc elmi işçilərin altıncı elmi konfransının materialları.(N.A.Semaşko adına səhiyyə təşkili və təbabət tarixi institutu), Moskva, 1965,səh.59-61.
9. Böyük Vətən müharibəsi illərində Naxçıvan MSSR-in səhiyyəsi. «Azərbaycan tibb jurnalı», Bakı, 1965-ci il, №5, səh.74-78.
10. M.A.Qədimov - Naxçıvan MSSR-nin ilk xalq səhiyyə komissarlarından biridir (anadan olmasının 70 illiyi münasibəti ilə). «Azərbaycan tibb jurnalı», Bakı, 1965, №8, səh.90-91.

11. Naxçıvan MSSR-də səhiyyənin təşkilində tibb işinin tarixi (1828-1940), Naxçıvan respublika elmi-tibb cəmiyyətinin birinci elmi-təcrübi konfransının materialları. Naxçıvan, 1965-ci il, səh.15-16.
12. Ə.A.Abbasov Naxçıvan MSSR-nin ilk Xalq Səhiyyə komissarı. «Azərbaycan tibb jurnalı», Bakı, 1966, №1, səh.103-106.
13. Naxçıvan MSSR-də kənd əhalisinin hospitallaşması. Gənc elmi işçilərin yeddinci elmi konfransı. Məruzənin tezisləri (N.A.Semaşko adına ümumittifaq elmi-tədqiqat sosial gigiyena və səhiyyə təşkili institutu), Moskva, 1966, səh.46-47.
14. Naxçıvan MSSR-də səhiyyənin təşkili və təbabət tarixinin səhifələri. Böyük Oktyabr Sosialist inqilabına həsr olunmuş tarix və nəzəri elmlərə aid ikinci Zaqafqaziya elmi konfransın məruzələrinin tezisləri. Azərbaycan Elmlər Akademiyasının nəşriyyatı. Bakı, 1967-ci il, səh.191-193.
15. Naxçıvan MSSR-də səhiyyənin inkişafı (1828-1966). Tibb elmləri namizədlik elmi dərəcə almaq üçün dissertasiyanın avtoreferatı. Bakı, 1967-ci il.
16. 45 ildə Naxçıvan MSSR-də sanitar epidemioloji təhlil. Musabeqov adına respublika elmi-tədqiqat mikrobiologiya, gigiyena və virusologiya institutunun gənc elmi işçilərinin nəzəri elmi konfransının materialları. Bakı, 1966-cı il.
17. Naxçıvan MSSR-də bağırsaq infeksiyasının epidemiologiyasına aid. Akademik Mirqasımov adına Respublika kliniki xəstəxananın yekun elmi-təcrübi konfransının materialları. Bakı, 1969-cu il.
18. Naxçıvan MSSR-də kənd əhalisinin həzm orqanlarının xəstəliyi (ağız boşluğu və dişlərsiz). Azərbaycan həkimləri təkmilləşdirmə və ixtisaslaşdırma institutunun XXXV səyyar elmi sessiyasının materialları. Naxçıvan şəhəri, 1968-ci il, səh.92-94.
19. Naxçıvan MSSR-də əhaliyə göstərilən oftolmoloji xidmətin inkişaf tarixi və onun gələcək perspektivləri. Azərbaycan elmi tədqiqat oftalmologiya institutunun V.I.Leninin anadan olmasının 100 illiyinə və

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 50 illiyinə həsr edilmiş VII səyyar elmi-təcrübi sessiyanın materialları. Naxçıvan şəhəri, 1969-cu il, dekabr.
20. Naxçıvan MSSR-də səhiyyənin inkişafına dair. «Azərbaycan tibb jurnalı», №4, Bakı, 1970-ci il.
21. Nadir Məmmədli (anadan olmasının 75 illiyi münasibəti ilə). «Elm və həyat» jurnalı, №3, Bakı, 1972-ci il.
22. Naxçıvan MSSR-də malyariyanın yayılması və ləğvi (tarixi xülasə), I məlumat - «Naxçıvanda Sovet hakimiyyəti qurulanadək malyariya ilə mübarizə (1905-1920-ci illər), Azərbaycan Elmi tədqiqat tibbi parazitologiya və tropik təbabət institutunun əsərləri, VIII-cild, Bakı, 1972-ci il, səh. 46-51.
23. Naxçıvan MSSR-də malyariyanın yayılması və ləğv edilməsi (tarixi xülasə). II məlumat – Naxçıvanda Sovet hakimiyyəti qurulandan sonra Böyük Vətən müharibəsi illərinədək malyariya ilə mübarizənin təşkili və ona qarşı mübarizə tədbirləri (1920-1941-ci illər). Azərbaycan Elmi tədqiqat tibbi parazitologiya və tropik təbabət institutunun əsərləri, VIII cild, Bakı, 1972-ci il, səh.52-59.
24. I.A.Axundov (anadan olmasının 75 illiyi ilə əlaqədar). Azərbaycan Elmi tədqiqat tibb parazitologiya və tropik təbabət institutunun əsərləri, VIII cild, Bakı, 1972-ci il, səh.270-274.
25. Malyariya və onun profilaktikası haqqında. Azərbaycan SSR Səhiyyə nazirliyinin Respublika Sanitar Maarif evi (vərəqələr), Bakı, 1972-ci il, 6 səhifə.

Ə D Ə B I Y Y A T

1. A.A.Nadirov. Naxçıvan MSSR (iqtisadi coğrafi oçerk), Bakı, 1959.
2. Beynəlxalq səhiyyə təşkilatının illik məlumatı. Jeneva, 1965.
3. Böyük Sovet Ensiklopediyası, 29-cu cild, 2-ci nəşr, Moskva, 1954.
4. «Cənubi Qafqaz ölkəsinin qəzalarında kənd həkim sahə hissəsinin qurulması haqqında». Rusiya imperiyasının cəm toplusu, II toplu, tom 55, II şöbə əlavə, Sankt-Peterburq, 1884.
5. D.M.Malyujenko. «Irəvan quberniyasında cüzəm». Irəvan quberniyasının 1908-ci ilə aid yaddaş kitabı, IV fəsil, Irəvan, 1908.
6. D.M.Malyujenko «Irəvan quberniyasında malyariya və onunla mübarizə». Irəvan quberniyasının 1912-ci ilə aid yaddaş kitabı, VIII fəsil, Irəvan, 1912-ci il.
7. H.Sultanov. «1925-ci ildə Naxçıvanın fəaliyyəti haqqındakı məruzə». Irəvan, 1926.
8. H.Sultanov. «Naxçıvan ölkəsi və onun iqtisadiyyatı», Bakı, 1927.
9. «Hərbi hospitallar». Qafqaz təqvimi, 1854-cü ilə aid, Tiflis, 1853.
10. H.C.Səfiyev. «Şərur-Dərələyəz qəzasının Şərur kənd həkim sahəsi», Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri. II cild, 2-ci buraxılış, Tiflis, 1916.
11. I.A.Axundov və M.Şahsuvarlı. Şərurda malyariya (Naxçıvan MSSR). Azərbaycan Tropik institutunun əsərləri, Bakı, 1936-cı il.
12. «Irəvan quberniyasında 1904-cü ildə vəba epidemiyasının xülasəsi». Irəvan quberniyasının 1906-cı ilə aid yaddaş kitabı, Irəvan, 1905.
13. «Irəvan quberniyasında səhiyyə işlərinin müasir vəziyyəti». Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri. I cild, 3-cü buraxılış, Tiflis, 1914.
14. «Qafqaz mülki idarələrinin tibb şöbəsi». Qafqaz təqvimi 1853-cü ilə aid 5-ci şöbə, Tiflis, 1852.
15. «Qafqaz canişinlik istehsal qüvvələrinin xülasəsi». Qafqaz təqvimi 1879-cu ilə aid, 2-ci şöbə, Tiflis, 1878-ci il.
16. Qafqaz haqqında məlumatlar məcmuəsi, VII cild, Tiflis, 1880.
17. «Qafqazda 1892-ci ildə vəba epidemiyası». Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, II cild, 2-ci buraxılış, Tiflis, 1894.
18. «Qafqaz mülki idarələrində müasir tibbi şöbələrin vəziyyətinin xülasəsi». Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, I cild, 2-ci buraxılış, Tiflis 1914.
19. Q.V.Urazov. «Irəvan quberniyasında cüzəm». Irəvan quberniyasının 1902-ci ilə aid yaddaş kitabı, 4-cü şöbə, Irəvan, 1902.
20. Q.Ə.Qaraşov. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və Naxçıvan MSSR-nin yaranması, Bakı, 1958.
21. M.Ə.Ibrahimov. Azərbaycanda səhiyyə işləri. Bakı, 1957.
22. M.I.Barsukov. SSRI-də səhiyyə tarixinin oçerki (1917-1956-cı illər), Moskva, 1957-ci il.
23. «Molla Nəsrəddin» jurnalı, 1906-1911-ci illərə aid komplekt. Azərbaycan SSR Elmlər Akademiyasının əlyazmalar fondu.
24. N.C.Məmmədli. Azərbaycan SSR-də 2-ci beşillikdə malyariya və onunla mübarizə. Bakı, 1932.
25. N.I.Anserov. Birinci Azərbaycan tibb cəmiyyətinin əsərləri, Bakı, 1936.
26. «Naxçıvan və Şərur qəzalarında baş vermiş skarlatina xəstəliyi», Irəvan quberniyasının 1912-ci ilə aid yaddaş kitabı, VII fəsil, Irəvan, 1912.
27. Naxçıvan MSSR-in xalq təsərrüfatı «statistik məcmuə», Bakı, 1964.
28. Naxçıvan və Şərur-Dərələyəz qəzalarında tibb personalı. Irəvan quberniyasının 1914-cü ilə aid yaddaş kitabı, birinci şöbə, Irəvan, 1914-cü il.

29. Naxçıvan qəzasında əhalinin ümumi sayı. Irəvan quberniyasının 1910-cu ilə aid yadaş kitabı, 3-cü şöbə, Irəvan, 1910-cu il.
30. Naxçıvan Ensiklopediyası. Azərbaycan Elmlər Akademiyası, Bakı, 2002.
31. «Naxçıvan MSSR səhiyyəsinin əsas göstəriciləri» Azərbaycanda səhiyyə kitabında (statistik məcmuə), Bakı, 1962-ci il.
32. P.I.Kalyu, E.A.Loqinova və başqaları. Kənd əhalisinin xəstəlik halı (kənd rayonlarının müalicə-profilaktika müəssisələrinə müraciəti), Moskva, 1960-cı il.
33. Ş.Həsənov. Azərbaycan SSR-də malyariya, «statistik hesabat», Azərbaycan tibb jurnalı, 1930, №1-3.
34. Türkiyə və Rusiya arasında 16 mart 1921-ci il müqaviləsi. SSRI-nin ali siyasi sənədləri, XIN, Moskva, 1959.
35. Y.Kaminski. Naxçıvan qəzasının ikinci tibb sahəsinin tibbi-sanitar vəziyyəti. Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri, 2-ci cild, 2-ci buraxılış, Tiflis, 1916.
36. Naxçıvan MSSR Mərkəzi Dövlət arxivi: fond 17, siyahı 1-2, qovluq 3, 6, 17, 27, 44, 74, 114, 123, 155, 169; fond 17, siyahı 2, qovluq 1, 3, 5, 10, 27, 28, 109; fond 17, siyahı 3, qovluq 1, 22, 101, 110; fond 17, siyahı 8, qovluq 5, 10, 22; fond 17, siyahı 9, qovluq 49; fond 25, siyahı 2, qovluq 1; fond 63, siyahı 3, qovluq 1.
37. Azərbaycan SSR-i Səhiyyə nazirliyinin arxivi: fond 1, siyahı 1, qovluq K-71, 60, 61, 62, 63, 64, 65, 66, 67, 68, 69, 70, 71, 72, 73, 74, 75, 76, 77, 78, 79, 80, 81, 82, 83, 84, 85, 86; fond 2, siyahı 2, qovluq 152.
38. Naxçıvan MSSR Səhiyyə nazirliyinin arxivi: fond 17, siyahı 1-2, qovluq 155, 221, 301; fond 17, siyahı 2, qovluq 3,9, 37, 44, 76, 79, 109, 111, 128, 152, 153, 163, 168, 173; fond 17, siyahı 3, qovluq 53, 135.

M Ü N D Ə R I C A T

GIRIŞ …….. 5

I FƏSIL.
SOVET HAKIMIYYƏTININ QƏLƏBƏSINƏ QƏDƏR NAXÇIVANDA TIBB XIDMƏTININ INKIŞAF TARIXI (1828-1920-ci illər) ……...8

II FƏSIL.
SOVET HAKIMIYYƏTI ILLƏRINDƏ NAXÇIVAN MSSR-də SƏHIYYƏNIN INKIŞAFI ..…….…….41

1. Naxçıvanda Sovet hakimiyyəti qurulan illərdə bərpa, sənayeləşmə, kənd təsərrüfatının kollektiv-ləşməsi dövründə səhiyyə (1920 – 1932-ci illər) ..…..……41

2. Xalq təsərrüfatının sosialist quruluşunun başa çatması və sosialist cəmiyyətinin möhkəmlənməsi dövründə Naxçıvan MSSR-də səhiyyə (1933-1940-cı illər) ……...…64

3. Böyük Vətən müharibəsi illərində Naxçıvan MSSR-də səhiyyə (1941-1945-ci illər) ..……..……..79

4. Müharibə illərindən sonra bərpa və sosialist təsərrüfatının inkişafı dövründə Naxçıvan MSSR-də səhiyyə (1946 – 1953-cü illər)……..…..91

5. Xalq təsərrüfatının daha da inkişafı və kommunizm cəmiyyətinin quruculuğunun genişlənməsi dövründə Naxçıvan MSSR-də səhiyyə (1953-1965-ci illər) ..……104

6. 1966-cı ildə Naxçıvan MSSR-də səhiyyənin vəziyyəti……..……..……119

III FƏSIL

NAXÇIVAN MSSR-də KƏND ƏHALISININ ÜMUMI XƏSTƏLIK HALININ ÖYRƏNILMƏSI …….139

Naxçıvan MSSR-də 1920-1966-cı illərdə işləmiş səhiyyə təşkilatçıları haqqında məlumat …… 154

«Naxçıvan MSSR-də səhiyyənin inkişafı» adlı dissertasiyanın (1828-1966-cı illər) mövzusuna aid dərc olunan elmi məqalələrin siyahısı ……186

Ə D Ə B I Y Y A T……..……189

ADIL NIFTI OĞLU MƏMMƏDOV
Tibb elmləri namizədi

NAXÇIVAN MSSR-də SƏHIYYƏNIN TARIXI VƏ MƏRHƏLƏLI INKIŞAFI (1826 - 1966)

BAKI - 2006